# Xalq qəzeti

Xalqın qəzeti!

№ 37 (30731) 19 fevral 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Uğurlardan yazmaq qüruru

**Gələcəkdə Azərbaycanın qazandığı uğurların səbəblərini araşdıracaq müxtəlif beyin mərkəzlərinin, sosioloji tədqiqat qurumlarının, eləcə də ayrı-ayrı ekspertlərin eyni məntiqi nəticəyə gələcəklərini indidən əminliklə söyləyə bilərik.**



Nəticə ondan ibarət olacaq ki, Azərbaycan diplomatik münasibətlərdə olduğu ölkələrlə, əməkdaşlıq etdiyi transmilli korporasiyalarla, birgə layihələrlə çıxış etdiyi tərəfdaşları, eləcə də bütün qonşuları ilə ədalətli və səmimi davranır. Bəli, uğur şəraitdən asılı olmayaraq, hər zaman verilən sözə əməl ediləndə, tərəf-müqabillə ədalətli və dürüst davrananda qazanılır. Azərbaycanın qazandığı böyük uğurların memarı isə sözü və əməli daim üst-üstə düşən Prezident İlham Əliyevdir. Bu uğurlara sevinmək nə qədər xoşdursa, onları qələmə almaq bir o qədər qürurvericidir.

Bu düsturu cənab Prezidentin dilindən dəfələrlə eşitmişik. Elə bir il bundan əvvəl ADA Universitetində səslənən suala verdiyi cavab da bunun əyani sübutu idi: "Biz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmamışıq. Biz hər zaman münasibətlərimizdə ədalətli olmuşuq. Uğurumuzun səbəbi bundadır. Hesab edirəm ki, əsas çıxış yolu və üsul düzgün və səmimi olmaqdır. Biz qonşularla yaxşı və bəzi hallarda əla münasibətlər qura bilmişik. Düşünürəm ki, bu, məhz həmin keyfiyyətlərlə bağlıdır. Çünki onlar bizə etimadla yanaşa bilərlər və bilirlər ki, bizim tərəfdən "sürpriz"lər olmayacaq".

*(ardı 8-ci səhifədə)*

# Qarabağın bərpa və dirçəlişi sürətlə davam etdirilir



Səhifə ⇨ 2

## Avantüristlər üçün "İsveç nağılı"

*Yaxud xoşbəxtliyi bədbəxtliyə çevirmək istəyənlərin "Cənubi Qafqaz gündəliyi"*

**Deyilənə görə, İsveç insan xoşbəxtliyi ölçüləri baxımından dünyada ön sıralardadır. Əlbəttə, belə deyimlər nisbidir və daim mübahisələndirilməyə açıqdır. Ən azı ona görə ki, İsveçin də yer aldığı Skandinaviya ölkələri dünyada intiharların sayına görə də liderlik edirlər. Necə düşünək? Düşünək ki, isveçlilərin xoşbəxtliyi qıcqırma fazasına daxil olub?**



Bu günlərdə İsveç parlamentinin Erik Helsborn adlı deputatı Ermənistanı və erməniləri müdafiə etmək yönümlü çağırış səsləndirib. O zaman ortaya növbəti sual çıxır: Gərək, nə qədər bədbəxt olasan ki, bu cür sərsəm çağırışı dilə gətirəsən?

Həqiqətən, cənab Helsborn bədbəxtdir. Çünki ölkəsinə yaxından-uzaqdan hansısa əlaqəsi olmayan mövzuya baş vurub. Deyən lazımdır ki, bax, sənə nə düşüb ermənilərdən? Amma sualımız ritorikdir. Axı erməni lobbi və diaspor təşkilatlarının səpdikəri "xoşbəxtlik toxumları" Avropanın şimal ölkəsində də cücərməkdədir.

Görünür, bunun təsiridir ki, deputat Helsborn İsveç parlamentindəki xarici siyasət məsələləri ilə bağlı gedən diskussiyalarda bildirib ki, Qərb daha güclü Avropa sivilizasiyası və güclü Avropa naminə Cənubi Qafqaz regionunda Ermənistan demokratiyasını, insan hüquq və azadlıqlarını qorumalıdır.

*(ardı 6-cı səhifədə)*

## Milli Olimpiya Komitəsinin hesabatı

**Dünən Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) IX Hesabat-seçki Baş Məclisi keçirilib. Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, MOK-un inzibati binasında keçirilən Baş Məclisdə komitənin üzvləri, Olimpiya və qeyri-Olimpiya idman növləri federasiyalarının və idman təşkilatlarının nümayəndələri iştirak ediblər.**



Baş Məclisdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə "Milli Olimpiya Komitəsinin 2022-2024-cü illərdəki fəaliyyəti" haqqında hesabat məruzəsi ilə çıxış edib. O, iqtisadi və digər sahələrdə inkişaf sürətinə görə regionun lider dövləti olan Azərbaycanın bütün dünyada idman ölkəsi kimi tanındığını bildirib.

Çingiz Hüseynzadə hesabat dövrü ərzində Azərbaycanın idman tarixində bir sıra uğurlu hadisələrin baş verdiyini diqqətə çatdıraraq MOK-un gördüyü işlərin miqyasına görə çox əhatəli olduğunu, əldə edilmiş uğur və nailiyyətlərin həm keyfiyyətinə, həm də kəmiyyətinə görə yüksək səviyyəyə qalxdığını qeyd edib.

(ardı 5-ci səhifədə)

## Ermənipərəstlərin son "Qarabağ patron"u



Səhifə ⇨ 8

## Ukrayna Şərqi Avropanın "Qordi düyünü"nə çevrilib



Səhifə ⇨ 15

## Xan Şuşinskinin ata evi



Səhifə ⇨ 15

## ...Yol gedir Ordubada



Səhifə ⇨ 13

## Böyük Qayıdış marafonu



Səhifə ⇨ 11

## Revanşizmin "zühuru" və ya Koçaryanın Rusiya ümidi

*Ermənistanın ikinci prezidenti Ukrayna ilə bağlı durumdan həvəslənib*

**Son günlər ABŞ-ın yeni rəhbərliyinin Rusiya ilə danışıqlar aparmaq istəyi, o cümlədən Ukrayna böhranının Moskvanın xeyrinə həll ediləcəyinə dair ehtimallar Ermənistanın revanşist-şovinist kəsimində "fəallıq" yaradıb. Ölkənin ikinci prezidenti Robert Koçaryanın tələsik mətbuat konfransı keçirməsi, yəni varlığını göstərməsi, eləcə də tədbirdə bildirdikləri bunu deməyə əsas verir.**



Görünür, Koçaryan yenidən hakimiyyətə qayıtmaq üçün həvəslənib. Heç şübhəsiz, o, Qərbin Ermənistandakı mövqelərinin zəifləyəcəyinə, Rusiyanın ümumən Cənubi Qafqazda təşəbbüsü ələ alacağına ümid bəsləyir. Bu ümiddə bir çox məqamlar var və yazımızda onlardan söz açacağıq. O cümlədən, ölü vəziyyətə düşmüş erməni avantürizmini yeni qiyafədə diriltmək niyyətlərinə də nəzər salacağıq.

*(ardı 6-cı səhifədə)*

# Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

## "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Hilton Garden İnn" hoteli Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub.

Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var, qonaqların zövqünü oxşayan interyer işləri görülüb.

Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Hoteldə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zallarının yaradılması nəzərdə tutulur. Buradakı restoran, banket zalları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını keçirmələrinə geniş imkanlar yaradır.

Müasir hoteldə qonaqların sağlamlığını və istirahətini təmin etmək məqsədilə hovuz, fitnes və SPA mərkəzləri də yaradılır.

Bildirildi ki, hoteldə işlərin icrası 60 faiz yerinə yetirilib.

"Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm işlər görülsə də, böyük turizm potensialına malik Qarabağ işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.



Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

# Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksi istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.**

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına Mərkəzdə görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Azərbaycanın işğaldan azad edilən ərazilərində elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması, enerji təhlükəsizliyinin təmin olunması və yaradılacaq infrastrukturların elektrik enerjisi ilə təchizatı üçün "Azərişıq" ASC tərəfindən genişmiqyaslı təmir, yenidənqurma və tikinti işləri aparılır. Ağdam şəhərinin Baş Planına uyğun olaraq, şəhər ərazisində 35/0,4 kilovoltluq iki transformator məntəqəsi inşa edilib. Bu məntəqələr güc mərkəzləri olaraq, ilk mərhələdə ətrafda salınacaq yeni yaşayış sahələrini elektrik enerjisi ilə təmin edəcək. Baş Planda həmin transformator məntəqələrinin digər yaşayış sahələri üçün inşa ediləcək güc mərkəzləri ilə əlaqələndirilməsi və dairəvi elektrik təchizatı sxeminin yaradılması nəzərdə tutulub. Eyni zamanda, şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 2-də təməli qoyulan bu Regional Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.

Mərkəz iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kVA olan 35/0,4 kilovoltluq iki güc transformatoru, 35 və 0,4 kilovoltluq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Regional Rəqəmsal İdarəetmə Mərkəzinin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Ağdam-2" yarımstansiyasından 35 kilovoltluq hava-kabel xətti çəkilib.

Mərkəz şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli Mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Eyni zamanda, burada mühəndis–texniki heyətin səmərəli işini təmin edən müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, vətəndaş qəbulu üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait yaradılıb. Burada yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışları təşkil ediləcək. Kompleksdəki tədris zalı 35/0,4 kilovoltluq müasir şəbəkə modelinin, 35 və 0,4 kilovoltluq fiber-optik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələrinin perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub.

Həmçinin Kompleksdə xüsusi dayaqlarda şəbəkədə istifadə olunan element və ləvazimatlar nümayiş etdirilir. İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji mənbələrinin (Günəş və külək enerji qurğuları) tətbiqinə dair model yaradılıb. Bu modelin həm işçi heyətin, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Eyni zamanda, elektroenergetika sahəsində qazanılmış tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC sayğacları), təhlükəsizlik texnikası və idarəetmə plakatları nümayiş olunur.




# Ağdam Muğam Mərkəzi müasir sənət ocağıdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma Muğam Mərkəzində görülən işlərlə bağlı məlumat verildi.

Ümumi sahəsi 1,4 hektar olan Mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var.

İkinci mərtəbədə inzibati otaqlar yerləşir. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək.

Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib. Tikinti-quraşdırma işləri artıq yekunlaşmaq üzrədir. Hazırda tamaşa zalında, binanın çöl hissəsində son tamamlama işləri görülür, müvafiq avadanlıq və mebellər quraşdırılır.



Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb.

Xatırladaq ki, Ağdam Muğam Mərkəzinin təməli 2023-cü il mayın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

# “Ağdam Residence” yaşayış kompleksi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də “Ağdam Residence” yaşayış kompleksində yaradılan şəraitlə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verildi.

Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib. Kompleksdəki binalar 6 mərtəbəlidir və ümumi blokların sayı 11-dir.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxdılar.

Mənzillərin 45-i birotaqlı, 108-i ikiotaqlı, 48-i üçotaqlı, 8-i isə dördotaqlıdır.

Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.



Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci il fevralın 13-də yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

# Körpələr evi-uşaq bağçası istifadəyə hazırlanır





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında aparılan tikinti işləri ilə tanış olublar.**

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Qeyd edildi ki, 160 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə 2023-cü ildə başlanılıb. Zirzəmi və iki mərtəbədən ibarət binanın ümumi sahəsi 2700 kvadratmetrdən çoxdur. Burada müxtəlif otaqlar, uşaqların təlim-tərbiyəsi üçün bütün zəruri şərait yaradılacaq.




# Prezident və birinci xanım 2-ci yaşayış kompleksində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb. Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

# Ağdamın ilk orta məktəbi yenidən həyata qaytarılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan məktəb 960 şagird yerlikdir. Burada kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı olacaq.

Məktəbin tikintisinin 2025-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Hazırda inşası davam etdirilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir. Bu orta təhsil müəssisəsi Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin müasir standartlara uyğun təhsil almalarına xidmət edəcək.



# Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Əsgəran qala-kompleksinin konsepsiya layihəsi barədə məlumat verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar.**

Mədəniyyət naziri Adil Kərimli və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verdilər.

Bildirildi ki, Əsgəran qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən, qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur.

Qala ərazisində müxtəlif rekreasiya xidmətlərinin də təklif olunduğu yaşayış kompleksinin inşası, daxili yol şəbəkəsinin (piyada və nəqliyyat) hazırlanması planlaşdırılır.

Kompleks ərazisində ilin dörd fəslində festival və mədəni tədbirlərin keçirilməsi, idman, istirahət və əyləncə, ticarət, ictimai iaşə və digər sahələr üzrə müvafiq infrastrukturun yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, Qarabağın hakimi Pənahəli xanın göstərişi ilə inşa olunan XVIII əsrə aid Əsgəran qalası Azərbaycan memarlığının nadir nümunələrindəndir.

Qeyd edək ki, Azərbaycan dövləti xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasına xüsusi diqqət və qayğı göstərir. Torpaqlarımız işğal altında olduğu dövrdə Ermənistan tərəfindən dağıdılan, məhv edilən irsimiz, o cümlədən tarixi, dini abidələrimiz bu gün dövlətimiz tərəfindən təmir-bərpa edilir, yenidən qurulur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu işlərə mühüm töhfə verir. Fond tərəfindən bu istiqamətdə aparılan işlərə Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin yenidən qurulmasını, eyni zamanda, Mehmandarovların malikanə kompleksinin təmirini, Zəngilan məscidinin tikilməsini, Ağdam Cümə məscidinin bərpasını və s. misal göstərmək olar. Bütün bu işlər, eyni zamanda, bölgənin turizm potensialının inkişafına müsbət təsir göstərir. Bu baxımdan, Əsgəran qala-kompleksinin bərpası, tarixən malik olduğu şöhrətinin özünə qaytarılması xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin tanıdılmasına xidmət edir.



***AZƏRTAC***

# Asiya Parlament Assambleyasının İcraedici Şurasının Bakı iclası



**Fevralın 18-də Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası çərçivəsində qurumun İcraedici Şurasının iclası keçirilib.**

İclası APA-da parlament nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev açıb. Nümayəndə heyətinin rəhbəri Azərbaycanın sədrliyi ilə 26 ölkəni təmsil edən 250-dən çox nümayəndə və 7 beynəlxalq təşkilatın təmsilçisinin qatıldığı APA-nın 15-ci sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Rizvan Nəbiyev ötən il Azərbaycanın bütün suveren ərazilərində baş tutmuş növbədənkənar prezident və parlament seçkiləri haqqında məlumat verib, həmçinin Bakıda keçirilmiş COP29 – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası və onun çərçivəsində qəbul edilmiş mühüm qərarların əhəmiyyəti barədə danışıb. O, COP29 çərçivəsində qəbul edilən qərarların ətraf mühitin mühafizəsi, yaşıl enerji keçidi və dayanıqlı inkişaf məqsədlərinə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

İclasda APA-nın Baş katibi Məhəmməd Reza Məcidi qurumun ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabat təqdim edib. O, bu müddət ərzində görülən işlərdən bəhs edib, 2026-2027-ci illər üçün APA-nın prezidentliyi və vitse-prezidentliyinə namizədliklər, bəzi ölkələrə tam hüquqlu və müşahidəçi statusunun verilməsi məsələləri, eləcə də qurumun komitələrində müzakirə olunan qətnamə layihələri ilə bağlı fikir və təkliflər barədə məlumat verib.

Sonra APA-nın 15-ci Plenar sessiyasının gündəliyi müzakirə olunub.

Tədbirdə qurumun Siyasi məsələlər üzrə, İqtisadi və davamlı inkişaf üzrə, Büdcə və planlaşdırma üzrə, Sosial və mədəni məsələlər üzrə daimi komitələri tərəfindən irəli sürülən qətnamə layihələri nəzərdən keçirilib, təşkilati və digər məsələlərə baxılıb.

*

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Əvvəlcə Natalya Koçanova Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra iki ölkənin parlament sədrləri arasında təkbətək görüş keçirilib. Görüşdən sonra qonaq Heydər Əliyev xatirə zalındakı eksponatlarla tanış olaraq, buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Daha sonra tərəflər arasında geniş tərkibdə görüş olub.

Sahibə Qafarova Belarus parlamentinin sədrinin rəsmi səfərlə yanaşı, həm də Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etməsini yüksək qiymətləndirib.

Bildirilib ki, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 32 ildə ikitərəfli əlaqələrdə fundamental ənənələr formalaşıb. Münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolunu vurğulayan Milli Məclisin sədri, ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan 170-dən artıq sənədin əlaqələrin daha da güclənməsinə xidmət etdiyini vurğulayıb.

Ölkəmizə rəsmi səfərə və APA-nın 15-ci plenar sessiyasında iştiraka dəvətə görə təşəkkürünü bildirən Natalya Koçanova qeyd edib ki, iki ölkənin bugünkü əlaqələri illərin sınağından çıxmış qarşılıqlı münasibətlərə əsaslanır. O, iki ölkənin iqtisadi, ticarət, mədəniyyət və digər sahələrdə əlaqələrinin yüksək səviyyədə olmasından danışaraq, bu baxımdan parlamentlərarası əlaqələrin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

***XQ***

# Belarus qonaq Heydər Əliyev Mərkəzində



**Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova fevralın 18-də Bakıda Heydər Əliyev Mərkəzində olub.**

Qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Ümummilli liderin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Natalya Koçanova əvvəlcə Ulu öndərin Azərbaycana rəhbər olduğu dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər - rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub. "Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Natalya Koçanovaya bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Azərbaycanın qədim musiqi alətləri ilə tanışlıqdan sonra qonaq "Kukla sərgisi"nə və Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

***XQ***

# AİB ilə iqtisadi şaxələndirmə və yaşıl artıma dəstək müzakirəsi

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnkişaf Bankının Azərbaycandakı Nümayəndəliyinin ölkə üzrə direktoru Sunniya Durrani-Camal ilə görüşüb.**

Nazirlikdən bildirilib ki, görüşdə AİB ilə münasibətlərin inkişaf etdiyi vurğulanıb. Ortamüddətli dövrdə ölkəmizdə sosial-iqtisadi inkişaf, investisiyaların təşviqi üzrə prioritetlər, bankın Ölkə Tərəfdaşlıq Strategiyasının əhatə edəcəyi istiqamətlər barədə məlumat verilib.

Tərəflər işbirliyinin gündəliyində olan məsələlər haqqında fikir mübadiləsi apardılar. Ölkəmizdə iqtisadi şaxələndirməyə və yaşıl artıma dəstək, özəl sektorun, insan kapitalının, sənaye zonalarının inkişafı, rəqəmsallaşma və s. məsələlər müzakirə olunub.

***XQ***

# Qambiya Respublikasının Prezidenti Zati-aliləri cənab Adama Barrouya

**Hörmətli cənab Prezident!**

Qambiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Biz Azərbaycan-Qambiya dostluq əlaqələrinə böyük önəm veririk. Bu gün həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın uğurla inkişaf etməsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq məcrasında inkişafı, çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Qambiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2025-ci il**

# Milli Olimpiya Komitəsinin hesabatı



*(əvvəli 1-ci səhifədə)*

“Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrindəki inkişafının əsası ölkə başçısının uzaqgörən siyasətinin nəticəsi olduğu kimi, Olimpiya Hərəkatı və idmandakı uğurlarımız da Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Hesabat dövründə ölkəmizin Olimpiya və idman həyatında bir sıra olduqca əlamətdar tarixi hadisələr baş verib. Azərbaycan Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarında qazanılmış 7 (2 qızıl, 2 gümüş, 3 bürünc) medalla ümumi komanda hesabında 30-cu yeri tutub”, – deyə Çingiz Hüseynzadə bildirib.

MOK-un vitse-prezidenti Baş Məclis iştirakçılarına məlumat verərək deyib ki, ötən dövrləri əhatə edən hesabat kitabında Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələri, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin görüşləri, çıxışları, qəbulları, iştirak etdiyi tədbirlər, beynəlxalq yarışlar, idmançılarımızın Olimpiya oyunlarında, Olimpiya festivallarında, İslam Həmrəyliyi Oyunlarında çıxışı, Olimpiya Həmrəyliyi Fondunun proqramları, maliyə-marketinq, informasiya və nəşriyyat məsələləri öz əksini tapıb. O, müxtəlif səviyyəli beynəlxalq yarışlarda atletlərimizin qazandıqları uğurlardan, Bakıda keçirilən beynəlxalq yarışlardan danışaraq, MOK-un hesabat dövründəki fəaliyyətini yüksək qiymətləndirib.

Hesabat məruzəsi dinlənildikdən sonra səsə qoyularaq yekdilliklə qəbul olunub. Sonra MOK-un Təftiş Komissiyasının hesabat məruzəsi dinlənilib.

Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, Azərbaycan Atletika Federasiyasının prezidenti Cavid Qurbanov və idmançılar adından çıxış edən Fərid Mansurov hesabat məruzəsini və MOK-un fəaliyyətini yüksək qiymətləndirərək gələcək işlərdə uğurlar arzulayıblar.

Hesabat-seçki Baş Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib.

Daha sonra İlham Əliyev, Azər Əliyev, Çingiz Hüseynzadə, Fərid Mansurov, Zemfira Meftaxetdinova, Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, Faiq Qarayev və Alla Həsənova MOK-un İcraiyyə Komitəsinin üzvləri seçiliblər.

Baş Məclisdə MOK-un Təftiş Komissiyasının üzvləri də seçilib.

***Leyla QURBANOVA***
***XQ***

# Pakistanla strateji tərəfdaşlığın hədəfləri



**Fevralın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiya Parlament Assambleyasının 15-ci plenar iclası çərçivəsində ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Yusif Rza Gilaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan-Pakistan strateji tərəfdaşlığı, parlament diplomatiyasının əhəmiyyəti, habelə postmünaqişə dövründə bölgədəki mövcud vəziyyət müzakirə olunub.

Ötən il Pakistana rəsmi səfəri və bu çərçivədə Yusif Rza Gilani ilə görüşünü məmnunluqla xatırlayan Ceyhun Bayramov, intensiv qarşılıqlı təmas və səfərlərin strateji tərəfdaşlığımızın inkişafına töhfə verdiyini qeyd edib.

Söhbət zamanı dostluq, qardaşlıq, qarşılıqlı hörmət və dəstəyə əsaslanan Azərbaycan-Pakistan münasibətlərinin ikitərəfli, o cümlədən çoxtərəfli müstəvidə inkişaf etdirilməsi üçün potensialın mövcud olduğu diqqətə çatdırılıb. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində əməkdaşlıq imkanlarının müzakirə olunduğu görüşdə, iki ölkə tərəfindən bir-birinin ərazi bütövlüyü və suverenliyinə göstərilən davamlı dəstək minnətdarlıqla vurğulanıb. İki ölkənin qanunvericilik orqanları, deputatları arasında əlaqələrin, habelə parlament diplomatiyasının gücləndirilməsinin tarixi və mədəni baxımdan yaxın olan xalqlarımız arasında münasibətlərə töhfə verdiyi bildirilib.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minatəmizləmə fəaliyyəti, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırıb.

***XQ***

# Baş nazir Əli Əsədovun Prezident Məsud Pezeşkianla görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 18-də Tehran şəhərinə işgüzar səfəri çərçivəsində İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşüb.**

Nazirlər Kabinetindən bildirilib ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana çatdırıb.

Görüşdə Azərbaycan–İran əlaqələrinin dostluq və mehriban qonşuluq prinsipləri əsasında inkişaf etdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın yeni məzmunla zənginləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan ilə İran arasında nəqliyyat, energetika və neft-qaz sahələrində həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər nəzərdən keçirilib.

Üçüncü Xəzər İqtisadi Forumunun əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Xəzər dənizinə sülh, dostluq və əməkdaşlıq dənizi kimi baxdığı bir daha diqqətə çatdırılıb.

Regiondakı yeni reallıqlar nəzərə alınaraq aktual məsələlərdə müzakirə olunub.

***XQ***

# İranın Birinci vitse-prezidenti ilə müzakirə

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 17-də Tehran şəhərinə işgüzar səfəri çərçivəsində İran İslam Respublikasının Birinci vitse-prezidenti Məhəmməd Reza Areflə görüşüb.**



Görüşdə Azərbaycan-İran münasibətlərinin mövcud vəziyyəti, həmçinin iqtisadiyyat, ticarət, investisiya, nəqliyyat-tranzit, neft-qaz, energetika və humanitar sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Avtomobil və dəmir yolları bağlantılarının yaradılması, İran ərazisindən keçməklə Şərqi Zəngəzur-Naxçıvan nəqliyyat infrastrukturunun tikintisi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və digər birgə layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

Eyni zamanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, dənizin çirkləndirilməsinin və dayazlaşmasının qarşısının alınması, habelə Xəzər dənizi hövzəsində əməkdaşlıqla bağlı bir sıra digər məsələlər barədə müzakirələr aparılıb.

***XQ***

# Azərbaycanın Baş naziri III Xəzər İqtisadi Forumunda



**Fevralın 18-də İran İslam Respublikasının paytaxtı Tehranda III Xəzər İqtisadi Forumu keçirilib. Forum iştirakçıları əvvəlcə Tehran Beynəlxalq Sərgisi çərçivəsində İnnovasiyalar və Texnologiyalar Evi ilə tanış olublar. Sonra Xəzəryanı dövlətlərin hökumət başçıları məhdud tərkibdə danışıqlar aparıblar. Danışıqlarda Xəzərdə beştərəfli əməkdaşlığın bir sıra mühüm məsələləri nəzərdən keçirilib.**

Daha sonra III Xəzər İqtisadi Forumunun plenar iclası olub. Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Sessiyada çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, Xəzər İqtisadi Forumu Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün mühüm platformadır.

Bildirilib ki, 2022-ci ildə Moskvada keçirilmiş İkinci Forumun Birgə Kommünikesində ticarət dövriyyəsinin artırılması, regionun investisiya cəlbediciliyinin və Xəzəryanı dövlətlərin iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsində tərəflərin maraqlı olduğu təsdiqlənib.

Ə.Əsədov Azərbaycan ilə Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əməkdaşlığın dinamik inkişaf etdiyini diqqətə çatdırıb: “Sevindirici haldır ki, Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət dövriyyəsi 2024-cü ilin sonunda 6 faizdən çox artıb”.

2018-ci ildə Aktauda imzalanmış Xəzəryanı dövlətlərin hökumətləri arasında iqtisadi-ticari əməkdaşlıq haqqında Sazişin 2023-cü ildə qüvvəyə minməsinin vacibliyini qeyd edən Ə.Əsədov bu Sazişin həyata keçirilməsinin ticarət, sənaye, kənd təsərrüfatı, turizm sahələrində və digər sektorlarda praktik tədbirlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Vurğulanıb ki, bu gün Xəzəryanı dövlətlər arasında müxtəlif səviyyələrdə qarşılıqlı fəaliyyətin bir sıra formatları və mexanizmləri mövcuddur, sahəvi əməkdaşlıq üzrə möhkəm müqavilə-hüquqi baza yaradılır, ən yüksək səviyyədə qəbul edilmiş qərar və razılaşmaların həyata keçirilməsi istiqamətində ciddi iş aparılıb.

Baş nazir əlavə edib: “Şübhəsiz ki, bununla bağlı 2018-ci ildə Aktauda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya Xəzərdə hərtərəfli əməkdaşlıq üçün baza sənədidir”.

İkinci Forumdan sonra nəqliyyat sektorunda regionun inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün əlverişli şərait yaradan mühüm razılaşmalar əldə edilib. Forum iştirakçılarına uğurlu fəaliyyəti regionun bütün ölkələrinin maraqlarını əhatə edən “Şərq-Qərb” və “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında Azərbaycanın rolu barədə məlumat verilib.

Vurğulanıb ki, Azərbaycan ərazisindən yükdaşımaların artımını nəzərə alaraq, ölkəmiz nəqliyyat infrastrukturunun müasirləşdirilməsi hesabına bu dəhlizlərin ötürücülük qabiliyyətinin artırılmasına əlavə vəsaitlər yatırır.

“İnanırıq ki, Xəzəryanı dövlətlər Xəzərin sülh, harmoniya, mehriban qonşuluq və səmərəli beynəlxalq əməkdaşlıq dənizi olaraq qalması üçün səylərini davam etdirməlidir. Bu, ilk növbədə, bizdən Xəzər dənizində təhlükəsizliyin və sabitliyin təmin edilməsi istiqamətində qətiyyətli tədbirlər görməyi tələb edir”, - deyə Baş nazir bildirib.

Yaşıl energetika və rəqəmsal texnologiyalar sahəsində layihələrin həyata keçirilməsi imkanları sayəsində açılan əlavə perspektivlərə toxunan Ə.Əsədov qeyd edib ki, bu mühüm sahələrdə əməkdaşlıq regiona sabit və ekoloji cəhətdən təhlükəsiz gələcək təmin edir.

“Bu baxımdan regionumuzda ilk dəfə keçirilən COP29 iqlim konfransının əhəmiyyətini qeyd etmək istərdim. Belə əlamətdar beynəlxalq tədbirin keçirilməsi Xəzər regionunun qlobal iqlim gündəmindəki əhəmiyyətini təsdiqləyir və investisiyaların ekoloji cəhətdən təmiz texnologiyalara və davamlı inkişafa fəal cəlb edilməsinə kömək edir”, - deyə hökumət başçısı əlavə edib.

Qeyd olunub ki, Xəzər dənizinin ətraf mühitinin hazırkı vəziyyəti Xəzəryanı dövlətlərdə ciddi narahatlıq doğurur və Xəzərin ekoloji problemlərinin həllinə vahid yanaşma tələb edir.

Ə.Əsədov deyib: “Xəzər dənizinin dayazlaşması məsələləri dövlətlərimizin başçılarının VI Xəzər Zirvə toplantısında hərtərəfli müzakirə mövzusuna çevrildi. Səbəblərin müəyyən edilməsi və dayazlaşmanın qarşısının alınması üzrə tədbirlərin müəyyən edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib”.

İşçi qrupunun ilk iclasını Bakıda təşkil etməyə imkan verəcək bütün zəruri razılaşmaların tezliklə başa çatacağına ümid ifadə olunub.

Plenar iclasın yekununa dair III Xəzər İqtisadi Forumunun Kommünikesi qəbul edilib.

***XQ***

# Revanşizmin “zühuru” və ya Koçaryanın Rusiya ümidi



**(əvvəli 1-ci səhifədə)**

Əvvəla, onu bildirək ki, R.Koçaryan Ermənistanda qarşıdan gələn seçkilərdə aktiv iştirakla bağlı fikirlərini bölüşüb. O, detallara getməsə də, hakimiyyətə qarşı mübarizənin bütün yollarına – küçə aksiyalarına, növbədənkənar seçkilərin keçirilməsinə əl atılacağına dair mesajlar verib və özünü ağıllı göstərərək vurğulayıb ki, görüləcək işlərə praqmatik formada yanaşmaq lazımdır.

Koçaryanda “praqmatik təfəkkürün” yaranması Rusiyanın Qərb cəbhəsi üzərində qalib gəlib-gəlməyəcəyindən asılıdır. Başlıca məqam budur ki, onun rəhbərlik etdiyi revanşistlər Moskvanın güclənməsini seçkilərdə qalib gəlib baş nazir Nikol Paşinyan administrasiyasını devirmək, Azərbaycana qarşı avantürist niyyətlər reallaşdırmaq, yenidən işğalçılıq həyata keçirmək üçün fürsət kimi dəyərləndirirlər. Bunu Robertin mətbuat konfransında səsləndirdikləri də təsdiqləyir. Məsələn, o, Bakı–İrəvan sülh prosesinə dair fikirlərini bölüşərkən deyib ki, Ermənistan hakimiyyəti sülhə nail ola bilər, amma hazırkı danışıqlar formatı praktik nöqteyi-nəzərdən əlverişsizdir. Başqa sözlə desək, rəsmi İrəvan barış müqaviləsini imzalayacaq, ancaq gələcəkdə Ermənistanda hakimiyyət dəyişkliyi yaşansa, ölkə yenidən Azərbaycana qarşı çıxacaq və sazişin əhəmiyyət qalmayacaq.

Bəli, R.Koçaryan sülh istəmir, bu məxluqun dilə gətirdiyi bütün fikirlər barış mühitini təhdiddir. O, açıq şəkildə də bildirir ki, sülh sazişi imzalana bilər, lakin barış davamlı olmayacaq. “Çünki bu sazişləri kimin poza biləcəyi ilə bağlı heç bir məhdudiyyət mexanizmi yoxdur”,– deyən Koçaryanın zamanında Rusiyaya arxalanaraq, Bakı ilə İrəvan arasında normallaşma xəttini nəzərdə tutan bir çox prosesləri pozduğunu xatırlaya bilərik. Ümumən, onun 1998-ci ildə Ermənistanda hakimiyyətə gəlməsi, 1999-cu ilin parlament terroru ilə özünə əks çıxanları aradan götürməsi, mahiyyətcə sülh prosesində həmin vaxt özünü göstərməyə başlayan müəyyən pozitiv ab-havanı aradan qaldırmaq məqsədi daşımışdı...

R.Koçaryan onu da bildirib ki, Ermənistanın ən böyük səhvi danışıqları vasitəçisiz aparmasıdır. Onun düşüncəsinə görə, Ermənistan və Azərbaycan hazırda qeyri-bərabər səviyyədədir və bu səbəbdən hansısa sənəd heç vaxt müharibəni dayandırmayacaq.

Göründüyü kimi, Koçaryan tipik erməni kimi davranır. Hesab edir ki, güclü tərəf zəifi əzməlidir. Vasitəçi təminatına gəldikdə, Robert və onun təmsil olunduğu klan 1991–1993-cü illərdə həmin “təminat” hesabına torpaqlarımızı işğal etmişdi. Koçaryanın dilə gətirdikləri, əslində, o dövrün xiffətini çəkməkdir. Yəni, vasitəçi kimi görmək istədiyi tərəf Rusiyadır. Koçaryan ən yaxşı təminat baxımından güclü ordu amilini də qabardır ki, aydındır ki, bu, söz xətrinə deyilmiş sözdür. Çünki Ermənistan heç nəyə öz ordusunun köməyi ilə nail olmayıb.

“Ermənistan sülh müqaviləsi prosesini indiki nöqtəyə gətirməməli idi. Onlara (Ermənistan hakimiyyətinə – red.), guya, sülh yaratdıqlarını bəyan etmək üçün yelləyəcəkləri kağız lazımdır. Əsas odur ki, “sülh” sözü var, məzmun isə önəmli deyil. Çoxları məzmunu oxumur, ancaq başlıqları rəhbər tutur və Nikol Paşinyan bunu çox gözəl anlayır. Onun bacardığı məhz budur. Onun bacardığı diplomatiya deyil, sülh deyil, müharibə deyil. Çünki o, həm diplomatiyanı, həm də müharibəni uğursuzluğa düçar edib”, – deyən R.Koçaryanın var gücü ilə hazırkı erməni hakim komandasını gözdən salmağa çalışdığı aydındır. Onun sözlərinə görə, Paşinyan dalana dirənib və ölkəni özünün irəli sürdüyü “Dünyanın kəsişməsi” təşəbbüsü kimi satmaq istəyir.

Qeyd edək ki, “Dünyanın kəsişməsi” mahiyyətcə erməni avantürizmini Rusiyanın təsir alətindən çıxararaq, Qərbin egidasına təhvil verməkdir. Paşinyanın və onun Qərbdəki dostlarının çalışdığı həmin təşəbbüsün köməyi ilə Moskvanı Cənubi Qafqazdan tamamilə sıxışdırmaqdır. Hazırda R.Koçaryan buna qarşı qətiyyətli və möhkəm cəbhə açmaq arzusundadır. Ona görə də 44 günlük müharibəyə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın üzərində dayanır. Əlbəttə ki, sənədin Ermənistan üçün kapitulyasiya aktı olması reallığını qəbul etmir. Üstəlik, bəyanatın hazırda yerinə yetirilməyən Naxçıvana yol müddəasına manipulyativ yanaşır, böyük ölçüdə Qarabağ ermənilərinin bölgəyə qayıtmalarından danışır. Daha dəqiq desək, bu qayıdışın üçtərəfli bəyanata əsasən reallaşmasından. Başqa sözlə desək, Qarabağ avantürası baxımından Rusiyanın vacibliyi amilini qabardır.

Nəzərə alaq ki, üçtərəfli bəyanatın ayrı-ayrı punktları mübahisələndirməyə, müxtəlif interpretasiyalara açıq sayıla bilər. Amma aydındır ki, Azərbaycan rəhbərliyi hər bir halda, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhələndirəcək hansısa sənədə imza atmayıb. Koçaryan isə zəif qandığı diplomatiyaya baş vurur və Qarabağ ermənilərinin bölgəyə qayıdışını sənədin Naxçıvana yol müddəasının yerinə yetirilməsi üçün şərt olaraq qondadır. Elə məhz buna görə də qayıdış məsələsini Bakı–İrəvan sülh prosesinə daxil etməkdən söz açır. “Ehtimal son dərəcə kiçik olsa da, var. Lakin bu kiçik ehtimaldan istifadə edilməlidir”, – deyən Koçaryanın fikrincə, məsələ Paşinyan iqtidarının Qarabağa qayıdışı istəməməsi səbəbindən reallaşmır.

Əslində, Ermənistanın ikinci prezidentinin bildirdikləri keçilmiş yoldur. Məsələn, o, Qarabağ ermənilərinin bölgəyə qayıtmaları ilə bağlı beynəlxalq təminatlardan söz açır. Məgər N.Paşinyan və komandasının üzvləri buna nail olmağa çalışmamışdılar? Çalışmış və istəmişdilər ki, qayıdış məsələsi sülh müqaviləsində yer alsın. Rəsmi Bakı isə çox haqlı olaraq Qərbi Azərbaycana qayıdış məsələsini qaldırmışdı. Yəni, insanların yaşayış yerlərinə dönmələri varsa, prosesə kompleks şəkildə yanaşılmalıdır. Nəzərə alaq ki, vaxtilə Ermənistandan köçüb Azərbaycana gələn azərbaycanlıların sayı, Qarabağdan köçüb Ermənistana sığınan hayların sayından iki dəfə çoxdur.

Onu da bildirək ki, rəsmi İrəvan Koçaryanın barəsində söz açdığı Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsini 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən əvvəl də gündəmə gətirmişdi. Lakin Azərbaycan buna razılıq verməmişdi. Çünki məsələ özündə ölkəmizin konstitusion quruluşunu şübhələndirmək, Qarabağdakı separaçı quruluşu saxlamaq əzmini daşıyırdı.

Separatçılardan söz düşmüşkən, Koçaryan Bakıda məhkəmə prosesləri davam edən ermənilərdən də danışıb. O, həmin proseslərə nəzərən də Paşinyan iqtidarına qarşı antipatiya yaratmağa girişib, sözlərindən belə çıxıb ki, rəsmi İrəvan separatçı rejimin liderlərini Qarabağdan çıxarmaq istəməyib. Onun özünün bu istiqamətdə hansı addımlar atmasına gəlincə, Koçaryan 2023-cü ilin sentyabrında gündə on dəfə oyuncaq liderlərlə əlaqə saxladığını və hətta onları qurtarmaq üçün tədbirlər gördüyünü vurğulayıb. Söhbət hansı tədbirlərdən gedir, bu yerdə, Robertin dedikləri gülməlidir. O bildirib ki, göstərdiyi cəhdlər haqqında özünün ikinci kitabında yazacaq, hələlik təfərrüatları açıqlamaq istəmir.

Əlbəttə, Koçaryanın Qarabağdakı separatçı rejimin keçmiş liderlərinin ələ keçməmələri, indiki aqibətlə üzləşməmələri üçün qapısını döyəcəyi tək ünvanın Kreml olduğunu ehtimal etmək çətin deyil. Axı istər, o, istərsə də Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Rusiya rəhbərliyinin qucağında oturmuş nadinc uşaqlar idilər. Görünür, kifayət qədər, möhkəm otura bilmədilər, yaxud qucaq onları saxlayacaq potensialını itirdi.

Ancaq Koçaryan hazırkı qlobal kataklizmlər və Ukrayna ilə bağlı proseslərin fonunda durumun dəyişdiyini düşünə bilər. Əvvəldə də bildirdik ki, onun tez-tələsik mətbuat konfransı keçirməsi və varlığını ortaya qoyması adi məsələ deyil. Koçaryan yekun nəticədə Ermənistandakı rusbaşlıları hərəkətə keçirməyə çalışır və qarşıdakı müddətdə bu meyilin daha da güclənəcəyini düşünmək mümkündür. Hələlik isə Robert, necə deyərlər, kontrabasda təkdir. Tək olsa da, yalnız Qarabağ avantürasını diriltmək niyyətlərindən söz açmır, eyni zamanda, həmin avantüranın baş nazir N. Paşinyan tərəfindən ortaya qoyulmuş Qərb seqmentini gözdən salmağa cəhd göstərir. Bu məqsədlə, o, Ermənistanın Avropa İttifaqına qoşulmaq istəklərini əhəmiyyətsiz cəhd kimi dəyərləndirir.



Bəli, R.Koçaryan son dərəcə incə mətləblərə toxunur. Məsələn, o, ABŞ-ın hazırkı administrasiyasının anti-Avropa kursunun “Köhnə qitə”də doğurduğu xəyalqırıqlığı üzərinə oyun oynayır və belə bir məkana inteqrasiyanın heç bir fayda verməyəcəyini qabardır, dolayısı ilə Ermənistanın nicat yolunun Rusiya olduğu təsəvvürünü aşılayır. Heç şübhəsiz, Rusiyalı Ermənistanı Qarabağlı və digər avantürist niyyətlərə, o cümlədən işğalçılığa, 44 günlük müharibə ilə itirilmişləri bərpa etməyə hazır Ermənistan qismində təsəvvürə gətirir.

Əlbəttə, təkcə Koçaryanın və onun kimi düşünən faşist təfəkkürlülərin, müharibə canilərinin yaddan çıxardıqları bir məqam var ki, o da hazırkı Azərbaycanın vaxtilə əraziləri işğal edilmiş zəif Azərbaycan olmamasıdır. Üstəlik, robertlər, serjiklər və digər sərsəmlər Moskvaya yalmanmaq üçün fürsət tapdılarını zənn edib sevinməkdənsə, Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirləri qulaqlarında sırğa etsələr daha yaxşıdır. Konkret olaraq, Koçaryan nəzərə alsın ki, dövlətimizin başçısının xəbərdarlığına etinasız yanaşmaq onun özü üçün də Bakı həbsxanasında soyuq hücrə deməkdir. Həm də ona görə ki, məhbus həyatı yaşamağa tam layiqdir. Yazımızı isə ölkəmizin liderinin haqqında söz açdığımız xəbərdarlığını diqqətə çatdırmaqla bitiririk: “Bizə qarşı 30 illik işğalçılıq siyasəti, sadəcə olaraq, Ermənistan məhsulu deyil, onunla həmrəy olan islamofob, azərbaycanofob, irqçi, ksenofob dairələrin, xarici ölkələrin nümayəndələrinin birgə məhsuludur. Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycandakı dini konfessiyaların Donald Trampa məktubu

**Azərbaycanın dini icmaları adından Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətinizin uğurlu başlaması münasibətilə səmimi təbriklərimizi çatdırmaq bizim üçün böyük imtiyaz və şərəfdir. Bu ali vəzifənizdə Sizə ən xoş arzularımızı, həmçinin bu ali vəzifəni Sizə etibar edən Amerika xalqına davamlı firavanlıq və rifah diləklərimizi bildiririk.**

Müxtəlif dinlərə mənsub insanların tarixən sülh və harmoniya şəraitində birgə yaşayan Azərbaycanın dini liderləri olaraq, biz də bu fürsətdən istifadə edərək, Sizin Birləşmiş Ştatlarda ənənəvi dəyərlərin və dini etiqad azadlığının qorunması məsələlərinə sarsılmaz sadiqliyinizə görə öz dərin minnətdarlığımızı bildiririk. Sizin din, ailə və əxlaq prinsiplərinə qəti sadiqliyiniz bütün dünyada milyonlarla insana ümid işığı tutur, yenidən mənəvi dəyərlərin və əxlaqi bütövlüyün təşviq edilməsinə xidmət edir.

Bu fikirlər Azərbaycandakı dini konfessiyaların ABŞ Prezidenti Donald Trampa ünvanladıqları məktubda yer alır. Məktubda deyilir:

“Vətənimiz Azərbaycan dünyada dini və mədəni müxtəlifliyin mənəvi sərvət kimi qəbul edildiyi nadir məkanlardan biridir. Biz fəxr edirik ki, dünyanın bir çox yerində islamofobiya, antixristianlıq və antisemitizm kimi etnik, dini və irqi ayrı-seçkiliyin artdığı bir vaxtda Azərbaycan müsəlmanların, xristianların, yəhudilərin və digər din ardıcıllarının həmişə harmoniya və firavanlıq şəraitində yaşadıqları bir nümunə kimi çıxış edir.

Azərbaycanda mədəniyyət ocaqları ilə yanaşı məscidlər, kilsələr və sinaqoqlar yan-yana fəaliyyət göstərir. Dövlətimiz bütün dini icmalar üçün bərabər şərait yaradır, onların dini qurumlarını qayğı və himayə ilə dəstəkləyir, onlara mütəmadi olaraq maddi və mənəvi yardım göstərir, ölkənin ictimai həyatında fəal iştirakına təminat verir.

Müxtəlifliyin zəngin irsini qoruyub saxlayan, dini azadlıqları dəstəkləyən, qlobal dinlərarası dialoqda fəal iştirak edən Azərbaycan qlobal sülhə mühüm töhfə verir və nümunə kimi çıxış edir.

Bu dini harmoniyanın xüsusi diqqətə layiq nümunəsi əsrlər boyu təqib və ya ayrı-seçkilikdən azad bir mühitdə inkişaf edən Azərbaycanın yəhudi icmasıdır. Quba rayonundakı tarixi Qırmızı Qəsəbə müsəlman dünyasındakı ən qədim və ən böyük yəhudi icmalarından birinin məskənidir. Burada fəaliyyət göstərən sinaqoqlar, məktəblər və mədəniyyət mərkəzləri ilə bu məkan Azərbaycanın dini azadlıqlara sarsılmaz sadiqliyinin sübutudur. Bununla yanaşı, Azərbaycan hökuməti xristian və yəhudi dini qurumlarına böyük dəstək verir, onların Azərbaycanın vətəndaş və ictimai həyatında fəal iştirakını təmin edir.

Sizin Ağ Evin İnam Ofisini yaratmaq və keşiş Paula Uayt-Keyni baş məsləhətçi vəzifəsinə təyin etmək qərarınız imanı idarəçilik və ictimai həyata inteqrasiya etmək üçün güclü öhdəliyi əks etdirir. Onun dini etiqad azadlığı, humanitar hüquqlar və mənəvi dəyərlərin müdafiəsində liderliyi Azərbaycanda üstün tutduğumuz prinsiplərə uyğundur.

Biz qarşılıqlı anlaşma və ortaq dəyərləri təşviq etmək üçün Birləşmiş Ştatlardakı liderlər və təşkilatlarla əlaqə qurmağı səbirsizliklə gözləyirik. Ümidvarıq ki, Sizin rəhbərliyiniz altında bütün dünyada dinə əsaslanan icmalar möhkəmlənməkdə, dini azadlıqlar qorunub saxlanmaqda davam edəcək.

Bir daha səylərinizə görə dərin minnətdarlığımızı bildiririk. Qoy, Sizin prezidentlik dövrünüz hamı üçün birlik, mənəvi möhkəmlik və rifahın möhkəmləndirilməsində davamlı uğurlarla əlamətdar olsun.

**Ən yüksək hörmət və xeyir-dualarla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yepiskopu***

***Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekti***

***Milix YEVDAYEV,***
***Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudi İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Alban-Udi Xristian Dini İcmasının sədri***

***Zamir İSAYEV,***
***Bakıdakı Yəhudi Sefardi Dini İcmasının rəhbəri”***

**Replika**

# Avantüristlər üçün “İsveç nağılı”



**(əvvəli 1-ci səhifədə)**

Yəqin, fərqinə vardınız ki, isveçli deputat Ermənistan və havadarlarının, eləcə də erməni lobbi və diaspor təşkilatlarının ənənəvi “klişelərini” təkrarlamaqla “xoşbəxt olmağa” çalışır. Həmin “klişelər” üzrə direktivlərin haradan qaynaqlandığı məlumdur. Axı son günlər “Köhnə qitə”də Ermənistanın qorunmasının vacibliyi məsələsindəki deyimlər aktuallaşmağa başlayıb. Karyerist Helsborn isə özünü vəzifə pillərindən irəliyə getməyə kökləyib.

Bəli, hesab etmirik ki, deputat düşüncə böhranı keçirir. Məsələyə mövcud prizmadan yanaşsaq, bəlkə ona bədbəxt də demək olmaz. Çünki, bir qayda olaraq, Avropada vəzifə yüksəlişinə can atanlar ermənilərlə yaxınlıq edirlər. Mövcud tendensiya günümüz üçün də aktualdır və əsl bədbəxtlik elə budur.

Bəli, bədbəxtlik ondadır ki, Avropa, ümumən Qərb özü üçün erməni təəssübkeşliyində müqəddəslik yaradır. Burada ən pisi bu təəssübkeşliyin anti-Azərbaycan motivlərinin mövcudluğudur. Nəzərə alaq ki, deputat Erik Helsborn ölkəmizi anti-demokratik tərzdə təqdim edib. Yəni, daha bir ənənəvi “tezis” gündəmdədir. Söhbət “demokratik Ermənistanın” “avtoritar Azərbaycandan” qorunmasından gedir. Bunun Avropa sivilizasiyasının müdafiəsi ilə nə əlaqəsi?

E.Helsborn kimi “bədbəxtlər” isə əlaqə qondara bilirlər. Onlar çox asanlıqla ölkəmizi qaralamaq, nüfuzdan salmaq üçün hər cür cəfəngiyyatı tirajlamağı yaxşı bacarırlar. Şübhəsiz, erməni lobbi və diaspor təşkilatlarının səpdikləri “xoşbəxtlik toxumlarının”, belə demək mümkünsə, maddi təmənna məhsulundan faydalanıblar. Ona görə də siyasi leksikonlarını nağıllar üzərində kökləyirlər.

Əlbəttə, E.Helsbornun ölkəmiz əleyhinə dilə gətirdiyi sərsəmliklərin hamısını diqqətə çatdırmaqdan, onun tərbiyəsizliyə söykənmiş həyasızlığındakı aşkar ermənipərəstliyin bütün təfərrüatlarına diqqət yetirmək niyyətindən uzağıq. Ancaq nağıldan söz düşmüşkən, isveçli deputatın ölkəsi ilə bir coğrafi arealda yerləşən Danimarkanın məşhur yazıçı Hans Xristian Andersonun təsiri altında olduğunu söyləmək mümkündür. Bu mənada Helsbornun erməni avantürizminə yalnız nağıl dəstəyi göstərdiyini deyə bilərik.

Onu da deyək ki, hazırkı durumda nağıl dəstəyi rəsmi İrəvan üçün çox vacibdir. Çünki, əslində, ona göstəriləcək başqa dəstək yoxdur. Ermənistan və ölkənin rəhbərliyi nağıllarla bəslənir. Hərçənd, Skandinaviya nağılları bir qədər fərqlidir. Onlarda göydən üç alma düşmür, üç daş – vikinqlərin yerindən oynatdıqları daşlar düşür. Həmin daşlardan biri Helsbornun öz başına, biri təmsil olunduğu parlamentə, digəri isə Ermənistana düşür.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Zəngəzur – Azərbaycandan qoparılmış türk torpağı

## *Qərbi Azərbaycan geosiyasi məkan kimi*

**Bu məqalədə Zəngəzur məsələsinin Qərbi Azərbaycan kontekstində məhz geosiyasi aspektdə konseptuallaşmasına üstünlük veririk. Səbəbi, ümumiyyətlə, geosiyasətin anlamı və funksiyası ilə bağlıdır. "Geosiyasət", hər şeydən öncə, siyasi fikrin istiqamətidir. O, ərazi üzərində nəzarət konsepsiyasıdır. Bundan başqa, geosiyasətdə müxtəlif dövlətlərin nüfuz dairələrini bölmələri və yenidən bölüşdürmələri məsələləri yer alır. Burada nüfuzu dövlətlər qrupu da ola bilər.**




Qərbi Azərbaycan və o cümlədən, Zəngəzur məsələsi də bizim üçün ilk növbədə məhz vurğulanan aspektlərdə böyük aktuallıq kəsb edir. Eyni zamanda, coğrafi məkan olaraq Qərbi Azərbaycan və Zəngəzur Türk dünyasının geosiyasi tələbatları kontekstində dərk edilməlidir. Prezident İlham Əliyevin məsələyə yanaşması, onu izah etməsi və konkret vəzifələr müəyyənləşdirməsi həmin prizmada olduqca aktual və vacibdir. Faktlar da bunu təsdiqləyir.

### Zəngəzur postmüharibə reallıqları prizmasında

Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan regional miqyasda siyasi, geosiyasi, mədəni aspektlərdə nəzəri və praktiki cəhətdən anlayışlara yeni reallıqlar prizmasında baxmağı aktuallaşdırdı. Əslində, burada proseslər müxtəlif sferaların qarşılıqlı əlaqəsində əsrlərdir davam edən qeyri-konstruktiv geosiyasətin təsirindən çıxmağa başladı və bu yeni reallıq prinsipial əhəmiyyət daşıyan problemlərə fərqli yanaşmaların formalaşdırılmasını tələb etdi.

Onların sırasında bizim üçün Qərbi Azərbaycanın geosiyasi anlamı xüsusi yer tutur. Məsələnin bu cür qoyuluşunun səbəbləri son 300 ildə Qafqazda tarixi proseslərin gedişi məntiqi ilə böyük güclərin geosiyasi məqsədlərinin qarşılıqlı əlaqəsi ilə bağlıdır. Məsələnin nəzəri dərniliklərinə baş vurmadan praktiki anlamı olan bir sıra məqamlara baxaq.

Bizim üçün başlanğıc və istiqamətverici tezis Prezident İlham Əliyevin 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə ifadə etdiyi bu fikirdir: "Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, yaşıl enerji və təhlükəsizlik nöqteyi-nəzərindən vahid bir böyük məkana çevrilməlidir, halbuki, bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir".

Azərbaycan Prezidenti həmişə fikirləri yüksək siyasi-diplomatik dildə, lakin yığcam ifadə edir. Bu fikirdə də politologiyanın nəzəri və siyasi yanaşmanın praktiki aspektləri üçün çox əhəmiyyətli olan üç konseptual məqam sintezində dəqiq ifadə edilmişir. Birincisi, indi Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası faktiki olaraq geniş anlamda "vahid bir böyük məkana çevrilməlidir".

İkincisi, bu cür yanaşmanın tarixi, geosiyasi və digər əsasları regionun tarixindədir ki, indi "bu bölgələr...vahid konsepsiya əsasında inkişaf edir".

Üçüncüsü, bugünün reallığını da unutmamalıyıq: "Bu, bizim bölgüyə görə üç regiondur".

Bir qədər də vurğulanan faktların sintezinin daxili məzmununa baxsaq, müasir politoloji düşüncə üçün çox maraqlı siyasi və geosiyasi mənzərə açılar: birincisi, Zəngəzur və Qarabağ ümumi səviyyədə Qərbi Azərbaycan anlayışının geosiyasi, iqtisadi və təhlükəsizlik kontekstlərində tərkib hissəsidir.

İkincisi, artıq həmin yanaşma çərçivəsində Naxçıvanın da Qərbi Azərbaycanın geosiyasi məkan kimi anlamında yeri və rolu yenidən müəyyənləşməlidir. Özlüyündə Naxçıvanın bu cür geosiyasi və siyasi qiymətləndirilməsi Azərbaycan Respublikasının milli, regional və Türk dünyası miqyaslarında ortaq məntiqlə davranmasının təsdiqidir. Bununla əsaslı konseptual şəkildə Qərbi Azərbaycan və onun tərkib hissələri kimi Qarabağ və Şərqi Zəngəzur geosiyasi aspektdə vahid məkan kimi qavranılır və onun geosiyasi, siyasi, təhlükəsizlik və kommunikasiya aspektlərində yenidən dərk edilməsinə ciddi ehtiyac yaranır.

Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız dərin mənalı tezisi burada istiqamətverici və müəyyənedici rol oynamalıdır. Əslində, İlham Əliyev bu il yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş xüsusi müşavirədə fikirlərini aydın şəkildə belə ifadə etmişdir.

Prezident vurğulamışdır ki, çar Rusiyası tərəfindən ermənilərin zaman-zaman Azərbaycan ərazilərinə köçürülməsi, Qərbi Zəngəzurun 1920-ci ildə Azərbaycandan alınması, Qarabağ xanının öldürülməsi, sovet dönəmində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması və mütəmadi olaraq Azərbaycanın ermənilərə ərazi güzəştləri etməsi məlum imperialist dairələrin əsrlərlə hazırladığı vahid geosiyasi prosesin ayrı-ayrı fraqmentləridir. Bununla Prezident İlham Əliyev azərbaycanlıları şüurda, Vətənə yanaşmada, fəaliyyətdə dövlətçiliyimiz üçün arxiəhəmiyyəti olan nəzəri və praktiki aspektləri özündə ehtiva edən siyasi və geosiyasi dəyişikliyə səsləmişdir.

Həmin kontekstdə Prezident İlham Əliyev strateji vacibliyi böyük olan bir məqamı ayrıca vurğulamışdır. Konkret olaraq, Zəngəzur məsələsinə Türk dünyasının coğrafi, siyasi, geosiyasi, iqtisadi, mədəni, nəqliyyat, kommunikasiya və digər özəllikləri kontekstində baxılmasını şərt kimi təqdim etmişdir.

İlham Əliyev demişdir: "Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək Türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, Türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi Türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq".

Bu o deməkdir ki, Azərbaycan rəhbəri Zəngəzuru siyasi və geosiyasi faktor kimi konkret kontekstdə aktuallaşdırır – XIX əsrin əvvəllərində başlanan proseslərin son məqsədi Türk dünyasını Zəngəzurda "sındırmaq", onu bütün anlamlarda parçalamaq, türk xalqlarını bir-birindən təcrid etmək idi. Bunun üçün tarixi Azərbaycan torpaqlarında "Ermənistan" yaratdılar və sonra Qərbi Zəngəzuru da ona verdilər.

Prezident İlham Əliyev bir qədər də geniş aspektdə məsələyə yanaşaraq, olduqca düzgün və geosiyasi-konseptual anlamı dərin olan tezis formalaşdırır: Zəngəzur Qərbi Azərbaycanın coğrafi, geosiyasi, iqtisadi, mədəni, dini və mənəvi-əxlaqi aspektlərdə parçalanmasının bir fraqmentidir.

Buradan ziyalıların, siyasətçilərin, məmurların, adi vətəndaşların qarşısında həm də müqəddəs vəzifə qoyulur – müstəqillik naminə öz tariximiz haqqında bilikləri gerçəkliyə uyğun zənginləşdirməli, onu davranışlarımızın tərkib hissəsinə çevirməliyik. Bu bağlılıqda bütövlükdə "Zəngəzur" anlayışının geosiyasi və konseptual dərki olduqca vacib görünür. Öncə, məsələnin gerçək tarixi dinamikasından başlayaq.

### Zəngəzur tarixi dinamikada

Məsələ onunla bağlıdır ki, Zəngəzurun geosiyasi və konseptual anlamı tarixi faktların yenidən dərk edilməsi əsasında mümkün ola bilər. Buna imkan verən kifayət qədər fakt var.

Tarix təsdiq edir ki, Zəngəzur məsələsi geosiyasi faktor kimi XIX əsrin əvvəllərində bir neçə böyük geosiyasi gücün region uğrunda gərgin mübarizəsi fonunda xeyli aktuallaşdı. Burada Qərbin imperialist dairələri, Osmanlı, Qacar imperatorluğu və Rusiya imperiyası arasındakı hərbi, siyasi, diplomatik, iqtisadi mübazirə ön plana çıxmışdı.

Proseslərdə Azərbaycanı faktiki olaraq parçalayan Türkmənçay müqaviləsi dönüş nöqtəsi oldu. Təəssüf ki, bu siyasi, diplomatik, nüfuz bölgüsü, geosiyasi-coğrafi "dönüş" ölkə, dövlət və xalq kimi Azərbaycanın xeyrinə olmadı. Əksinə, regionda fəaliyyət göstərən müxtəlif böyük güclər işğalı qanuni fakt kimi təhtəlşüurda qəbul edərək, Azərbaycanı daha xırda hissələrə parçalamağın "hüquqi əsaslarını", "sivil formalarını" və "ədalətli üsullarını" axtarmağa başladılar.

Bununla demək olar ki, 300 ilə yaxın müddətdə azərbaycanlıların vətən uğrunda gərgin mübarizələri başladı. Lakin, təəssüf ki, müxətlif səbəblərdən biz çox dəyərləri, o cümlədən, tarixi torpaqlarımığızın bir qismini itirdik.

Çar Rusiyası dövründən əvvəl də Zəngəzurda türk varlığına qarşı müəyyən haqsızlıqlar olduğu sənədlərdə əksini tapmışdır. Məsələn, 1593-cü ildə hazırlanmış "İrəvan vilayətinin icma dəftərləri"ndə ("xaric əz dəftər") türklərin bir neə kəndi yazılmamışdı. 1595-ci il dəftərində onlar bərpa edilmişdir. Nümunə kimi Sisyanda Belə kəndini, Gülbarı məzərəsini, Saatlı məzrəsini, Bazarçayı nayihəsində Qızılca kəndini, Berdi kəndini və digərlərini, Zar və Zəbil nayihələrində Çörəkkəndi, Sellini, Çinarı, Qarabatanı və digərlərini göstərə bilərik. Tarix göstərdi ki, bu cür qeyri-dəqiqliklər sonralar düşmənin əlinə müxtəlif "tarixi fakt" bəhanəsi vermişdir.

Çar Rusiyası dönəmində hazırlanan rəsmi sənədlərdə də Azərbaycanın müxtəlif bölgələrində türk varlığının tam üstünlüyü faktlarda əksini tapmışdır. Onlardan biri 1868-ci ildə hazırlanmış "Qafqaz arxeoqrafik komissiyasının aktları"dır. Orada Zəngəzur da daxil olmaqla türklərin həyat tərzi, var-dövlətləri, onlara qarşı edilən haqsızlıqlar, mal-qaralarının oğurlanması, əmlaklarının talan edilməsi ilə bağlı çoxlu sayda fakt vardır.

Zəngəzurda azərbaycanlılar üçün ən ağır vəziyyət isə keçən əsrin əvvəllərində yarandı. 1919-cu il yanvarın 6-da Yelizavetpoldan (Gəncə) Bakıya göndərilən teleqramda yazılır ki, Zəngəzur Uyezdində müsəlmanlara qarşı ermənilərin hücumları olmuşdur. Ermənilər tutduqları yerlərdə möhkəmlənirlər.

İki gün sonra Cəbrayıl rayonunun Düdükçü kəndindəki qırğınlar barədə qəza rəisi Gəncə qubernatoruna məruzə etmişdir. Orada yazılır ki, ermənilər müsəlman əhalini mühasirəyə alaraq qətllər törətmiş, onları oğurlamış və dağıntı törətmişlər. Zorakılığa məruz qalanların adları da sənəddə vardır.

1919-cu il yanvarın 12-də Zəngəzurun qəza rəisi Məlik Namazəliyev Azərbaycan Daxili İşlər Nazirliyinə vurduğu teleqramda da azərbaycanlılara qarşı törədilən vəhşiliklərdən bəhs etmişdir.

1919-cu il avqustun 20-də Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov Qarabağ haqqında yaydığı bəyanatda bölgədə erməni vəhşiliklərini konkret faktlarla şərh etmişdir və yerli müsəlmanların hüquqlarının pozulması faktlarını sadalamışdır. Ermənilərin etnik təmizləmə və deportasiya ilə məşğul olduqları məntiqi bəyanatda yer almışdır.

Bütün bu faktların fonunda siyasi səviyyədə də Zəngəzur və Qarabağla bağlı gərgin diplomatik mübarizə gedirdi. Onun dramatizmi həmin dövrün sənədlərində əks olunnmuşdur. Məsələn, Azərbaycanın o dönəmdə Baş naziri olmuş Nəsib bəy Yusifbəylinin Müttəfiq Ali Komissarlığının müavini, polkovnik C.Reyə ünvanlandığı cavab sənədində (17 noyabr 1919-cu il, sənəd №308) yazılır ki, "Zəngəzurda Azərbaycan hökuməti hərbi əməliyyat aparmır. Zəngəzur Azərbaycan Respublikasının ayrılmaz hissəsidir və o, Azərbaycanla yanaşı, müttəfiqlər tərəfindən də belə qəbul edilir".

Sənəddə siyasi və geosiyasi aspektdə başqa bir əhəmiyyətli məqam vardır. Orada yazılmışdır: "Haskel...bizim Zəngəzur qəzasına məxsusi sahibliyimizi etiraf edib. Naxçıvan məsələsi üzrə razılaşmanın bir bəndində erməni hökumətindən tələb edib ki, (sülh konfransının ali komissarı Haskel nəzərdə tuturlu – F.Q.) Azərbaycan hakimiyyətinə Zəngəzurda üsyançı hərəkatını dayandırmaqda köməklik göstərsin. Beləliklə də erməni əhalisini Azərbaycan Respublikasının hakimiyyətinə tabe olmağa məcbur etsin. Bizim aldığımız son məlumatlara görə, erməni hökuməti nəinki Haskelin qarşısındakı bu öhdəliyinə əməl etməyib, əksinə, Zəngəzura özünün qoşunlarını göndərib ki, üsyançı hərəkata dəstək olsun, onu gücləndirsin. Buna görə də Azərbaycan hökuməti orada qayda yaradılması və anarxist-bolşevik əhvali-ruhiyyəli erməni üsyançı bandalarına təsir göstərmək məqsədilə Qarabağ üzrə general-qubernatora hərbi kömək göndərməyə məcbur olub".

Bizcə, həmin dövrdə Azərbaycan hökumətinin yaranmış vəziyyətə yanaşması tamamilə aydındır. Burada ən azı üç geosiyasi məqamın kompleks təqdimatı vardır. Birinci məqam ondan ibarətdir ki, Azərbaycan Respublikası (AXC) dövlət kimi sülhsevər, demokratik qaydaları gözləyən və hər bir vətəndaşı üçün lazımi şərait yaradandır. N.Yusifbəylinin 1919-cu ildə parlamentdəki çıxışında aydın ifadə edilmişdir ki, "Azərbaycan hökuməti Qafqarbağda ermənilərin mədəni haqlarını tanıyır və hörmətlə yanaşır...Azərbaycan xalqı da "tərəddüdsüz ermənilərin bu təbii hüquqlarını qəbul edir" (22 dekabr 1919-cu il, sənəd №368).

İkinci məqam onunla bağlıdır ki, buna baxmayaraq müəyyən dairələrin təhriki ilə Azərbaycan dövlətçiliyini zəiflətmək və onu ərazicə parçalamaq üçün erməni separatizmi və terroru baş qaldırmışdır. Üçüncüsü, Azərbaycan hökumətinin xəbərdarlığı və izahına baxmayaraq, regionda fəal olan güclü dövlətlər ikili oyun oynayırlar. Onlar sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, əməldə isə ermənilərin separatçı hərəkətlərinə kömək edirlər.

Özü də bütün bunlar həmin illərdə (əsasən, 1918-1919-cu illərdə) erməni terrorçuların azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin fonunda baş verirdi.

Yəni Azərbaycan hökuməti qətiyyətlə öz humanist və demokratik mövqeyində qalırdı. Ermənilər və onların dəstəkçiləri isə qərəzli və xəyanətkar hərəkətlərində davam edirdilər.

Sənədlərdə əksini tapmış faktlar: Azərbaycanın Fövqəladə İstintaq Komisiyasının üzvü N.Mixaylov 20.09.2019-cu il tarixində Zəngəzur qəzasının Müsəlmanlar kəndində ermənilərin törətdikləri vəhşiliklər barədə hesabat hazırlamışdır (sənəd №279). Orada vurğulanır ki, "ermənilər qəfildən Müsəlmanlar kəndini mühasirəyə almışlar və...kəndə soxulmuş, mülkləri yandırmış, oğurluq etmiş, sakinləri öldürmüş, mal-qaranı aparmışlar". Nəticədə "32 adam qətlə yetirilmiş, 18 nəfər yaralanmış, 50 mülk yandırılmışdır". N.Mixaylov hesabatın sonunda ermənilərin 10 maddə üzrə cinayət məsuliyyətinə cəlb edilməsi məsələsini qaldırmışdır.

Ancaq bu kimi çox sayda faktın olması və Azərbaycan hökumətinin siyasi-diplomatik fəallığına baxmayaraq real nəticə belə oldu: XX əsrin ikinci onilliyində Zəngəzuru Azərbaycandan qopardılar, Qarabağda isə qondarma muxtar qurum yaratdılar.

Bu gün yaranmış geosiyasi reallıqlar prizmasında bu mənzərə ibrətvericidir və üzərində düşünülməlidir. Azərbaycan Prezidenti beynəlxalq ictimaiyyəti buna səsləyir.

Keçən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində də eyni ssenari üzrə erməni vəhşiliyi törədilmişdir. Bu dəfə hadisələr əsasən Qərbi Azərbaycanın Ermənistana bağışlanan hissəsində və Qarabağda baş vermişdir. Erməni terrorçuların və separatçıların davranışları isə keçən əsrin əvvəllərində Zəngəzurda və Qarabağda müşahidə edilən hadisələrlə tam eynilik təşkil edirdi! Buradan əhəmiyyətli nəticələr çıxara bilərik.

Birincisi, ermənilərə əməldə edilən xarici dəstək yüz illərlə onların ağıllanmasına mane olmuşdur. Hər dəfə Azərbaycan tərəfinin humanist, demokratik və sivil hərəkətlərinə onlar erməni vəhşiliyi ilə cavab vermişlər.

İkincisi, Zəngəzur hadisələri bu baxımdan XX əsrin sonlarında Qarabağda və Ermənistanda baş verən hadisələrin anatomiyasını anlamaq üçün tarixi, siyasi və geosiyasi baxımdan olduqca əhəmiyyətlidir. Yəni kimlərsə burada Azərbaycan dövlətçiliyinə qarşı davamlı şəkildə həyata keçirilən siyasət görmürsə, çox yanılır. Sovet dönəmində uydurulan "qardaşlıq" nağılları baş aldatmaqdan başqa bir şey deyildir. Bu məqalədə gətirdiyimiz çox sayda sənəd göstərir ki, əsrlərdir nə bir sıra böyük güclər, nə də ermənilər dəyişirlər – onlar, çox təəssüf ki, qondarma antitürk əhval-ruhiyyəsinin əsiri olmaqda davam edirlər. Biz bunu II Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra Qərbin siyasi dairələrinin baş verənlərə olan reaksiyasından bir daha gördük.

Azərbaycan indiki mərhələdə bu məsələni ən aktual səviyyədə gündəmində saxlamalıdır. Yəni aparılan mübarizənin dərinliyi, miqyası və strateji hədəfləri Zəngəzur məsələsini ciddi nəzərə almalıdır. Prezident İlham Əliyevin yanaşmasında bu məqam öncül yerdədir!

### Geosiyasi nəticələr

Belə görünür ki, Zəngəzur məsələsinin rəsmi Bakı tərəfindən gündəmə gətirilməsinin konseptual səviyyədə düşünülmüş və davamlı şəkildə həyata keçirilməsini nəzərdə tutan məqamları mövcuddur.

Hər şeydən öncə, Azərbaycan rəhbərliyi həmin problemin geosiyasi tərəfinə milli, regional və qlobal miqyasların qarşılıqlı əlaqəsində baxır. Bu o deməkdir ki, öncəki mərhələlərdən fərqli olaraq indi Bakı bir tərəfdən Zəngəzuru daha geniş məkan olan Qərbi Azərbaycan kontekstində nəzərdən keçirir, digər tərəfdən isə onun qədim Azərbaycan torpağı olduğunu bir an olsa belə arxa plana atmır.

Bu tezisin fonunda Azərbaycan rəhbərliyi siyasi, diplomatik və informasiya istiqamətlərində Zəngəzurun region üçün fayda verən layihələrə daxil edilməsinə çalışır. Kommunikasiya, informasiya, logistika üzrə qarşılıqlı anlaşma sayəsində Zəngəzur həmin geosiyasi funksiyanı uğurla yerinə yetirə bilər. Həmin bağlılıqda da azərbaycanlıların heç bir ön şərti, hüquqi məhdudiyyət olmadan "Azərbaycandan Azərbaycana (Naxçıvana) yol"la gedib-gəlməsi tamamilə təbii görünür!

Digər tərəfdən, Zəngəzur yenidən bütün Türk dünyasını birləşdirən "geosiyasi zona", dəhliz, məkan rolunu oynaya bilər. Zəngəzur dəhlizi bu məqamda geniş geosiyasi məna kəsb edir. O, adi layihə deyildir – geniş bir məkanda geosiyasi mənzərəni əməkdaşlıq və təhlükəsizlik istiqamətində dəyişəcək möhtəşəm proqramdır!

Nəhayət, bütün dünya Zəngəzurla Qarabağ və Naxçıvanın vahid məkan olduğunu bütün aspektlərdə qəbul edəcəkdir. Onlar bütövlükdə müstəqil Azərbaycan dövlətinin xarici siyasətində sıx əlaqədə nəzərə alınacaqdır.

Təbii ki, burada Azərbaycanın hər hansı hərbi təsirindən söhbət gedə bilməz, lakin ideya kimi tarixi, siyasi, geosiyasi, mədəni və iqtisadi aspektlərdə Zəngəzur da Azərbaycan ideyasının tərkib hissəsi olaraq yaddaşlarda özünün layiqli yerini tutacaqdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Uğurlardan yazmaq qüruru

(əvvəli 1-ci səhifədə)




Bu sətirləri qələmə alanda yadımıza 2020-ci ilin yanvar ayında Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyevə moderatorun verdiyi suala dövlət başçımızın cavabı düşür. Sual belə idi: "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?" Cənab Prezident bu suala fikirləşmədən "Bakıya" cavabını verdi.

Mükəmməl cavabdır. Bakı İlham Əliyev üçün, sadəcə, Azərbaycanın paytaxtı deyil, ölkənin döyünən qəlbi, xalqın qibləgahı, dünyaya sülh və əməkdaşlıq mesajlarının verildiyi məkandır. Üstündən beş il keçəndən sonra bu sual-cavabı təkrar oxuyanda bir daha əmin oluruq ki, Cənubi Qafqazda söz və güc sahibinə çevirdiyi Azərbaycanı canından çox sevən strateq-diplomat Prezident İlham Əliyevin atdığı hər bir addımı sərrast və dəqiqdir. O, bu cavabı verəndə hələ 44 günlük müharibə, daha sonra bir sutkalıq antiterror tədbirləri, Qarabağ iqtisadi rayonunun separatçılardan təmizlənməsi baş verməmişdi. Yəni Azərbaycan liderinin hərbi-siyasi uğurlarının seriyası, zəfərlərinin paradı hələ irəlidə idi. İlham Əliyevin o cavabı özündə heç kimdən asılı olmayan Azərbaycanın milli maraqlarının daim uca tutulduğu siyasət yürütməsinin parlaq nümunəsini ehtiva edirdi.

***

Bunu isə Prezident İlham Əliyev 2025-ci il yanvarın 20-də Davosda Çinin CGTN telekanalına müsahibəsində söyləyib: "Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var".



Davosda Çinin CGTN telekanalına müsahibəsində dövlətimizin başçısının ölkəmizə qarşı "soyuq müharibə" cəbhəsi açmış bəzi ölkələrə göndərdiyi ciddi mesajları xatırlatmaq istərdik. Azərbaycan Prezidenti qətiyyətlə bəyan etdi ki, biz də onlara qarşı eyni tədbirləri görürük, amma heç vaxt qırmızı xətləri keçmirik: "İyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

***

Nəyi, nə zaman və necə edəcəyini dəqiq müəyyənləşdirməyi bacaran cənab Prezident bugünədək beynəlxalq hüququn norma və prinsiplərini pozacaq heç bir addım atmayıb. İlham Əliyev 2023-cü ilin sentyabrında o cür gərgin və sürətli lokal antiterror tədbirinin gedişində belə erməni əhalisinin Azərbaycana reinteqrasiyası üçün əlindən gələn hər şeyi etdi. Buna qədər isə Qarabağı tərk etmələri barədə çağırışlarına məhəl qoymayan separatçıların özbaşınalıqlarına səbr və təmkinlə yanaşdı. Amma bundan İrəvanın və onun xaricdəki dəstəkçilərinin sui-istifadə etdiklərini görəndə ən doğru addımı atdı – 23 saata separatçıları və Ermənistan ordusunun tör-töküntüsünü Qarabağdan birdəfəlik təmizlədi. Qürurverici amil odur ki, Azərbaycan Prezidenti yenə də məsələni öz gücü, qətiyyəti və qüdrəti hesabına həll etdi. Bu zaman heç bir beynəlxalq hüquq normalarını pozmadan, ədalətli mövqeyindən çıxış edərək, Azərbaycanı istəyinə qovuşdurdu və bununla da ölkəmizin suverenliyi, təhlükəsizliyi təmin olundu.

Yazımızın sonunda bir daha Azərbaycan Prezidentinin nitqindən iqtibas gətirməyi zəruri saydıq: "Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır!"

Qürur doğuran sözlərdir. Bəli, türk qövmü tarix boyu kimsəyə baş əyməyib, bundan sonra da əyməyəcək. Çünki buna mənsub olduğumuz mədəniyyət, bizi ayaqda saxlayan milli-mənəvi dəyərlər və rəhbərə olan güvəncimiz yol verməz.

Bu gün sizə şəxsiyyəti liderə çevirən bütün yüksək keyfiyyətlərə – dərin intellektə, diplomatik fəhmə, xüsusi natiqlik qabiliyyətinə, sərkərdəlik məharətinə malik İlham Əliyevin bənzərsiz siyasi qətiyyətinin, zəfər strategiyasının bəzi məqamlarından qısaca söz açdıq. Liderin növbəti uğurlarını qürurla qələmə almaq ümidi ilə...

*İmran BƏDİRXANLI*
*XQ*

# Azərbaycan ÜTT-yə ciddi hazırlıqla gedir

**Azərbaycan beynəlxalq ticarət aləmində daha güclü oyunçu olmaq üçün strateji hazırlıq aparır. Bu yolda ən vacib addımlardan biri isə Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaqdır. Prezident İlham Əliyevin Davosda verdiyi müsahibə bu hədəfi növbəti mərhələyə daşımaqla yanaşı, qlobal ticarət nizamında Azərbaycanın necə bir yer tutacağına dair yeni mülahizələr ortaya qoydu.**

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaq prosesinə dair Prezident İlham Əliyevin çıxışları ölkənin ticarət siyasətinin və iqtisadiyyatının gələcək inkişafını bir daha ön plana çıxarır. Azərbaycanın ÜTT-yə üzv olma yolunda əsas maneələrdən biri, Prezident İlham Əliyevin vurğuladığı kimi, qlobal proteksionizm, tariflərin tətbiqi və ikili standartların hökm sürməsidir. Bunlar beynəlxalq ticarətin açıq və azad şəkildə inkişafını əngəlləyən ciddi problemlərdir. Azərbaycan Prezidenti proteksionizmin və tariflərin tətbiqinin ölkələrin öz daxili bazarlarını qorumağa çalışarkən, ÜTT-nin təməl prinsiplərinə zidd olduğunu bildirir.



Dövlət başçısı bu problemləri müsbət tərəfdən də qiymətləndirir, çünki Azərbaycanın hazırkı iqtisadi vəziyyəti və mövcud gücü bu maneələri aşmağa imkan verir. Dövlətimizin başçısı ÜTT-yə üzv olmağın yalnız ticarət bazarlarının açılmasından ibarət olmadığını vurğulayır. Azərbaycanın ixrac potensialı hələ də neft və qaz kimi təbii resurslarla əlaqəlidir, lakin ölkə iqtisadiyyatını şaxələndirmək və müxtəlif sahələrdə daha geniş bazarlar yaratmaq məqsədi güdür.

Ümumdünya Ticarət Təşkilatına daxil olmaq, eyni zamanda, yerli istehsalçılara da təzyiq yarada bilər. Bu səbəbdən, Azərbaycan hökuməti danışıqlar prosesini diqqətlə izləyir, müxtəlif təkliflər və şərtlər üzrə balans yaratmağa çalışır. Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının artıq özünü təmin etdiyini və xarici borc yükünün çox aşağı olduğunu bildirərək, təşkilata üzvlüyün əlavə faydalara imkan verəcəyinə inandığını qeyd edir.

Bu yanaşma Azərbaycanın iqtisadi müstəqilliyini qorumağa və beynəlxalq ticarət sisteminə inteqrasiyaya çalışan bir ölkə olaraq nə qədər ciddi bir strateji yol izlədiyini göstərir. Prezident ölkənin iqtisadi sabitliyinin və gücünün ÜTT-yə üzv olma prosesində ona müsbət şərtlər yaradacağına işarə edir. Azərbaycan beynəlxalq ticarət əlaqələrində mövqeyini möhkəmlətmək üçün müxtəlif ölkələrlə ikitərəfli münasibətləri inkişaf etdirərək ÜTT ilə bağlı təkliflərin qəbul edilməsi ilə prosesin daha da irəliləyəcəyinə inandığını ifadə edir.

Bu məqamda Azərbaycan yalnız enerji resurslarına əsaslanan bir iqtisadiyyat modelindən çıxaraq, daha müasir və şaxələndirilmiş bir iqtisadiyyat qurmaq yolunda ciddi addımlar atır. Ümumdünya Ticarət Təşkilatına üzv olma Azərbaycanın yalnız beynəlxalq ticarət müstəvisində deyil, həm də qlobal iqtisadiyyatda güclü oyunçuya çevrilmək potensialını artıracaq. Bu yolda irəliləyən Azərbaycan həm regional, həm də beynəlxalq səviyyədə mühüm strateji qərarlar verərək uzunmüddətli sabitlik və inkişaf üçün əsaslı bir təməl qoyur.

*Şəbnəm ZEYNALOVA,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

Replika

# Ermənipərəstlərin son "Qarabağ patronu"

## *"Xaçlı" təxribat havaya atılan boş güllədir*

**Rusiyada anti-Azərbaycan təxribatları yeni çalar almaqdadır. İndi də qondarma "dqr"ı tərk etmiş ruslardan alət kimi istifadə etmək meyillərini görürük. Həm də bu meylin din pərdəsi altında təşkil olunduğu aşkar sezilir. Deməli, Moskvada "Rusiyada yaşayan həmvətənlər arasından məcburi köçkünlər"in toplantısı keçirilib. Tədbirdə, özlərini "Qarabağın rus icması" adlandıran və Rusiyanın 12 şəhərini "təmsil edən" fəallar Azərbaycanın suverenliyinə qarşı çıxış ediblər.**



Psevdoicmanın "Telegram" kanalında yerləşdirdiyi süjetdən öyrənirik ki, "etiqad təəssübkeşlərinin" tədbirini Rusiya Federasiyası vətəndaşları və Rusiya təşkilatları ilə iş üzrə icma rəhbərinin müavini Andrey Sergeyev təşkil edib. O, müraciətində 2023-cü ilin sentyabrında bütün xristian əhalinin Qarabağdan qovulmasından sonra Rusiyada yaşamağa məcbur olmuş Qarabağ rusları və pravoslav xristianların birləşməsində göstərdikləri səylərə görə həmyerlilərinə təşəkkür edib.

A.Sergeyev ardınca belə deyib: "Bütün baş verənləri nəzərə alsaq, Qarabağ Azərbaycanın bir hissəsi olmamalıdır! Bizim "dqr"ın dinc əhalisinə qarşı ədalətsizliyə və qəddarlığa dözməyə mənəvi haqqımız yoxdur. Rəsmi Bakının bütün dünyanın gözü qarşısında təşkil etdiyi doqquz aylıq "blokada" zamanı uşaqlarımızın, qocalarımızın üzləşdiyi, bütün konvensiyalara zidd olaraq başlayan düşmənçilik "insanlığa qarşı cinayət, bütün mənəvi-əxlaqi prinsiplərin kobud şəkildə pozulması"ndan başqa bir şey deyil".

Özünü xristianların hüquqlarının müdafiəçisi kimi qələmə verən Sergeyev çıxışında həmçinin qeyd edib: "Hər birimiz üçün müqəddəs Qarabağ torpağı vətəndir! Şübhə yoxdur ki, Qarabağ erməniləri və rusları qədimdən ermənilərin olan Qarabağa mütləq qayıdacaqlar".

Bu "xaçlı" təxribatın mahiyyəti və məqsədi hamımıza bəllidir. Rusiyada geniş təsir dairəsinə malik erməni diasporunun dəstək verdiyi şübhə doğurmayan bu aksiyanın kimlərinsə yaşamaq hüququna deyil, açıq-aydın dini və irqi ayrı-seçkilik motivlərinə kökləndiyi göz qabağındadır. Yəqin, oxucularımızda da eyni sual yaranır: Qarabağda nə qədər rus yaşayırdı ki, indi onlar təşkilatlanıb Azərbaycandan öz haqlarını tələb edirlər? Düşündük ki, sualın ən doğru cavab variantı statistikadır.

**ARAYIŞ:** 1989-cu il siyahıyaalınmasına görə, o vaxtkı DQMV-də 1922 rus yaşayıb. Ancaq burada bir "amma" var. Keçmiş DQMV ərazisində əhalisinin əksəriyyəti ruslardan ibarət cəmi bir kənd – Xocavənd rayonunun Kuropatkino kəndi olub. Birinci Qarabağ müharibəsindən əvvəl burada 800-ə yaxın sakin (əsasən molokanlar) yaşayırdı. 1992-ci ildə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində kənd boşalıb. Görünür, ermənilər dindaşlarına olan "böyük məhəbbəti" sayəsində bu kənd tezliklə "Gevorqavan" adlandırıblar. Sakinlərin çoxu Rusiyaya, bir qismi isə Bakıya köçüb. Bəs, 1922 rusun qalan hissəsi haradadır? Münaqişə başlayandan onların hamısı Qarabağı tərk edib.

İndi həmin Sergeyevdən soruşan yoxdur ki, "Qarabağın rus icması"nın üzvlərinin cibində hansı ölkənin pasportu var? Azərbaycanın, Ermənistanın, yoxsa Rusiyanın? Əslində, bu, təzə söhbət deyil. 2023-cü ilin avqustunda Azərbaycanın Rus İcması Qarabağ bölgəsinin "psevdorus icması"nın siyasi kart oynamaq cəhdinə cavab olaraq bəyanat yayıb. Bəyanatda birmənalı olaraq vurğulanır ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur: "Əgər Qarabağın keçmiş sakinləri arasında Azərbaycanın rus icmasına qoşulmaq istəyən etnik ruslar varsa, o zaman təşkilata üzv olmaq üçün əlaqə saxlasınlar. Biz onların sorğularına cavab verməyə və bunun üçün bütün lazımi məlumatları verməyə hazırıq".

İki il əvvəl bu bəyanat-müraciətə heç bir reaksiya olmamışdı. Hər şeydən göründüyü kimi, Rusiyada bu təxribatı törədən müəyyən qüvvələr Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan edən baş nazir Nikol Paşinyandan da artıq erməni olmağı hədəfləyirlər. Bu təxribata imza atanlar hələ sülhə nail olmamış Ermənistan–Azərbaycan münaqişəsinə avantürizm və əxlaqsızlıq xarakteri daşıyan dini xarakter verməyə çalışırlar. Alınmayacaq. Çünki Azərbaycanda monoetnik Ermənistandan fərqli olaraq ruslar, ukraynalılar, yəhudilər, ləzgilər, talışlar, hətta 30 minədək erməninin və çox sayda digər millətlərin nümayəndələrinin rahat yaşadıqları, dini ayinlərini sərbəst şəkildə yerinə yetirdikləri sivil ölkədir

Görünən odur ki, Moskvada bu təxribatı təşkil edənlər Ukraynanın cənub-şərqindəki münaqişənin Qafqazda oxşarlarını yaratmaq rəvayətlərinə inanmaqda davam etdirirlər. Hətta Donbas ssenarisinin Qarabağ bölgəsində tətbiqi mənzərəsini xəyal edənlər də var. Bir dəfə cəhd olundu, amma alınmadı. Rəsmi Moskva bu avantüraya rəvac verənləri və ortaya etiqad kimi incə amili atanları nə qədər tez neytrallaşdırsa, bu, Azərbaycan–Rusiya münasibətlərinin bu günü və gələcəyi üçün bir o qədər yaxşı olardı.

*İ.HƏSƏNQALA*
*XQ*

# Hər saatda 1 insan minaya olur qurban

## *Azərbaycan bu bəladan ən çox əziyyət çəkən ölkələrdəndir*

**Bugünlərdə Rusiyada çıxan “Наука и жизн” jurnalının köhnə nömrələrindən birində Pyotr Lebedev adına Fizika İnstitutunun elmi əməkdaşı Vera Parafonovanın “İnsanlara nisbətən minalar daha çox yaşayırlar” adlı məqaləsinə (https://www.nkj.ru/archive/articles/4338/) rast gəldim. Azərbaycanın təqribən 35 il bu texnogen fəsadla üz-üzə qalmasını, ölkəmizin ərazilərinin xeyli hissəsinə bu “ölüm toxumu”nun səpilməsini nəzərə alaraq o yazını oxudum.**

Doğrusu, həmin dəhşətli sətirləri oxuya-oxuya mərhum şairimiz Əli Kərimin məşhur “Daş” şeirini xatırladım:

**“Yarıçılpaq**
**Qədim insan**
**Düşməninə bir daş atdı,**
**Qana batdı.**
**Daş düşmədi**
**Amma yerə.**
**Uçub getdi üfüqlərdən üfüqlərə.**
**Deməyin ki daş yox oldu.**
**Oldu qılınc, güllə, mərmi.**
**Dayanmadı fikir kimi,**
**Atom kimi.**
**Meridianı qırıq-qırıq,**
**Arzuları zərrə-zərrə,**
**Okeanı parça-parça**
**Edib keçdi…**
**Həmin o daş**
**İndi yenə dayanmayır,**
**Uçur hara?**
**O neytron,**
**elektron –**
**Dönüb nələr,**
**nələr olur.**
**Alov olur,**
**ölüm olur,**
**zəhər olur.**
**Ey həməsrim,**
**Həqiqətin qan qardaşı,**
**Dayandırmaq olmazmı, de, yarıçılpaq, yarıvəhşi**
**Qədim insan**
**atan daşı?!”**

Yox, ustad, dayandırmaq olmur. Həmin yarımvəhşi ermənilərin Azərbaycan ərazisinə atdığı daş milyon yarım minaya çevrilərək ərazilərimizin xeyli hissəsinə səpilmişdir.

... Vera Parafonova yazır ki, plastik korpusda – diametri təxminən altı santimetr olan piyada əleyhinə minalar var. Metala reaksiya verən adi mina detektorundan istifadə edərək onu aşkar etmək mümkün deyil. Yəni potensial təhlükədir. Alim həyəcanla yazır ki, bütün iyirminci əsrdə partlayışlar eşidilib və eşidilməkdə də davam edir. Hərbi əməliyyatların və terror aktlarının partlayışları, bütün dünyanı silkələyən və konkret ailədə ağrı ilə əks-səda verən partlayışlar planetimizin reallıqlarıdır. Bu gün minalar dünyanın ən böyük təhlükələrindən biridir və zaman keçdikcə daha da pisləşir: tapılan və zərərsizləşdirilən hər bir minanın əvəzinə onlarca yeni mina “əkilir”.

BMT-nin hesablamalarına görə, planetimizdə 100-120 milyon ( qeyd etdiyimiz kimi, bu, köhnə statistikadır) piyada əleyhinə mina basdırılıb. Hər ay 500-800 nəfər onların qurbanına çevrilir, hər üçüncü qurban uşaqdır. Mütəxəssislərin fikrincə, mövcud texnologiyalardan istifadə etməklə bütün planeti minalardan təmizləmək təxminən min il vaxt və yüz milyard dollardan çox vəsait aparacaq. Zərərsizləşdirilən hər 5000 mina üçün bir ölü və iki yaralı istehkamçı olacaq. Və bu günə qədər hazırlanmış mina aşkarlama üsullarının heç biri əsas parametrləri (həssaslıq, seçməlik, reaksiya sürəti) baxımından nə BMT-nin humanitar minatəmizləmə standartlarının tələblərinə, nə də yaxın gələcəkdə Yer planetinin qlobal minalardan təmizlənməsinin ümumi vəzifəsinə cavab vermir.

XXI əsrdə minalardan təmizləmə problemi həm də ona görə son dərəcə aktuallaşıb ki, dünyanın müxtəlif ünvanlarında baş vermiş ( onların bəziləri hələ də davam edir) münaqişələrlə yanaşı, İkinci dünya müharibəsindən qalan çoxlu mina və partlamamış sursatlar öz qurbanlarını gözləyir.

Mütəxəssisin fikrincə, bu ağır prosesdə ən çətin olan mərhələ minanın aşkar edilməsidir. Çünki partlayıcı qurğu tapıldıqdan sonra, müasir mina qurğularının növlərinin müxtəlifliyinə və işəsalma mexanizmlərinin mürəkkəbliyinə baxmayaraq, onu zərərsizləşdirmək, adətən, çətin deyil. Əksər hallarda minalar sadəcə olaraq yerində partladılır. Məxfilik rejimi olmasaydı, yəqin ki, hər kəsin mina silahları muzeyini ən azı bir dəfə ziyarət etməsi yaxşı olardı. Çünki orada insanın öz həmcinsini məhv etməkdə əldə etdiyi “mükəmməlliyi” aydın görmək mümkündür.

Bildirilir ki, gizli partlayıcı maddələrin aşkarlanması üçün müasir üsulların yaradılmasının tarixi təxminən 70 il əvvələ gedib çıxır. Bu işlər mina silahlarının inkişafı və beynəlxalq terrorizm kimi problemin ortaya çıxmasından sonra son onilliklərdə xüsusilə intensiv şəkildə həyata keçirilib.

Bu ölüm kabuslarının aşkarlanması ən çətin olanları qabıqsız plastik partlayıcı maddələr və qeyri-metal hallarda olan minalardır. Yaxşı ki, bu gün partlayıcı maddələrin axtarışı üçün eksperimental




üsulların diapazonu kifayət qədər genişdir – canlıların cəlb edilməsindən nüvə-fiziki və mikrobioloji təsirlərin tətbiqinə qədər. Yeni prinsiplərlə işləyən fərdi qurğular yalnız partlayıcı maddələrin müəyyən edilməsi üçün əlavə vasitə kimi istifadə olunur. BMT-nin məlumatına görə, bu gün təmizlənmiş ərazilərin 80 faizindən çoxu hələ də əl ilə təmizlənir.

Alimlərin həyəcanla qeyd etdikləri fikirlərdən biri də odur ki, dünyada əldəqayırma partlayıcı qurğuların istifadəsi durmadan artır. Onlar isə mülki şəxslər, humanitar təşkilatlar, sülhməramlı missiyalar və Birləşmiş Millətlər Təşkilatının əməkdaşları üçün təhlükə yaradır.

Xatırladaq ki, ötən il aprelin 4-də qeyd olunan Beynəlxalq Mina Maarifləndirilməsi və Minalardan Təmizləmədə Yardım Günü münaqişə vəziyyətlərində əlilliyi olan insanların ehtiyacları və hüquqları barədə məlumatlılığın artırılmasına yönəldilmişdi. BMT Təhlükəsizlik Şurasının beş il əvvəl qəbul edilmiş 2475 saylı qətnaməsi BMT-yə üzv dövlətləri əlilliyi olan şəxslərin təhlükəsizliyinin təminatına, onların reabilitasiyaya çıxışını təmin etməyə və münaqişələrin qarşısının alınmasında və sülh quruculuğunda iştirak etməyə imkan verməyə çağırır.

Çox təəssüf ki, beynəlxalq aləmdə partlayıcı silahların qurbanlarının yarısı uşaqlardır. Son onilliklərdə böyük şəhərlər də daxil olmaqla, əhalinin sıx məskunlaşdığı ərazilərdə getdikcə daha çox döyüşlər gedir, nəticədə mülki əhali partlayıcı silahlardan istifadə nəticəsində həlak olur və yaralanır, onların əksəriyyəti uşaqlardır. Belə hallarda alınan xəsarətlər adətən çox ciddi olur – ağır yanıqlardan tutmuş əzaların, eşitmə və ya görmə itkisinə qədər. Bundan əlavə, partlayıcı silahların qurbanı olan uşaqlar, adətən, post-travmatik və həyəcan pozğunluqlarından əziyyət çəkir və psixoloji dəstəyə ehtiyac duyurlar...

Aman Allah, bütün bunlar bizim üçün necə də tanış fakt və hallardır. Münaqişənin başa çatmasına baxmayaraq, Ermənistan Azərbaycan ərazisinə yerləşdirdiyi minaların yerləri haqqında tam və dəqiq məlumatı paylaşmaqdan imtina edir. Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev Təhlükəsizlik Şurasının ötən il keçirilən açıq iclasında çıxışı zamanı deyib ki, Ermənistan 30 il işğalda saxladığı bölgədə Azərbaycanın yenidənqurma səylərinin və yüz minlərlə məcburi köçkünün öz evlərinə qayıtması prosesini bilərəkdən gecikdirir: “Münaqişə həm də Azərbaycanı dünyanın ən çox minalanmış çirklənmiş ölkələrindən birinə çevirdi, təxminən 1,5 milyon mina və naməlum sayda partlamamış sursatlar bölgədə mülki əhali üçün ciddi risklər yaradır”. Xatırladaq ki, münaqişədən sonrakı dövrdə Azərbaycanda mina qurbanlarının sayını 370-ə çatıb, onlardan təxminən yetmişii həyatını itirib, 292-si isə ağır yaralanıb.

**Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib.**

**Prezident İlham Əliyevin “Minaların ətraf mühitə təsirinin azaldılması – Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması” mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubundan**

**Bakı, 30 may 2024-cü il**

Bütün bunları nəzərə alan Azərbaycan dövləti ötən il Zəngilanda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə “Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması” mövzusunda III beynəlxalq humanitar minatəmizləmə konfransı keçirilməsinə nail olmuşdu. Konfransda, ümumilikdə, 75 ölkədən 300-dən çox nümayəndə iştirak edirdi. İştirakçılar arasında bir sıra ölkələrin yüksək vəzifəli şəxsləri, BMT-nin baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmilərinin, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri iştirak edirdiər.

Prezident İlham Əliyevin həmin beynəlxalq tədbirin iştirakçlarına ünvanladığı məktubda deyilirdi: “Azərbaycan öz mina probleminə paralel olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək üçün çoxsaylı təşəbbüslərlə çıxış edib. Bildiyiniz kimi, keçən il ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan etmişdir və bu məsələnin BMT-nin qlobal 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilməsi istiqamətində tərəfimizdən davamlı iş aparılır. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində humanitar minatəmizləmə üzrə xüsusi əlaqə qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Qrup ötən ilin sentyabr ayında fəaliyyətə başlayıb”.

***İttifaq MİRZƏBƏYLİ***

# “USAID-çi media”nın qarayaxma cızmaqaraçılığı

**Hər gün USAID-lə bağlı ifşaedici materiallar dərc edilir. Məlum olur ki, bu qurum qlobal səviyyədə ictimai rəyi nəzarətdə saxlamaq, ABŞ-ın məqsədlərinə uyğun təbliğat və təşviqat qurmaq üçün media subyektlərindən istifadə edib. “Qrant” adı altında onlara, QHT və jurnalistlərə maddi vəsait ötürüb, özünün təsir dairəsinə salıb. Həmçinin, ayrı-ayrı ölkələrdən fərdi jurnalistləri peşə kursları keçmək adı ilə təlimlərinə cəlb edib, informasiya təxribatları törətmək bacarıqları aşılayıb. Media qurumları isə agentliyin layihələrini icra edərək, tapşırıqlarını yerinə yetirib, yalanlarla dolu müxtəlif iftira, qarayaxma kampaniyaları təşkil edib.**

Eyni zamanda, ABŞ və Avropada yerləşən “The New York Times” (3 milyon), “Politico” (8 milyon), “Associated Press” (17 milyon), BBC (2,9 milyon fund–sterlinq), “Reuters” (9 milyon), “Frans-Press” kimi qəzet və informasiya vasitələri də qurumun maliyyə ayırdığı media orqanları arasında olub.

Agentliyin fəaliyyətində fırıldaq, korrupsiya, mənimsəmə faktları üzə çıxır. Bu da ABŞ-ın yeni hakimiyyətini razı salmır. İndi yeni administrasiya ölkəyə mənfəət gətirməyən, milli maraqlara xidmət etməyən, böyük həcmdə pulların mənimsənilməsinə xidmət edən bu siyasətə son qoymaq niyyətindədir. Təbii olaraq vasitəçi kimi istifadə edilən qurumlar, xaricdə onlara bağlı olanlar biri-birinin ardınca sıradan çıxır, maliyyə yardımları dayandırılır.

Vaşinqtonun atdığı addımlar isə Avropa jurnalistikasında xarici təsir barədə mübahisələrə səbəb olub. Bu barədə “AnewZ”un “USAID-in Media maliyyələşdirilməsinə təsiri və ya müdaxiləsi” mövzusunda hazırladığı süjetdə məlumat verilib. Materialda USAID-in fəaliyyət mexanizminə diqqət çəkilərək bildirilib ki, təşkilat rəsmi olaraq müstəqil bir agentlik olsa da, o, ABŞ Prezidentinə, Dövlət katibinə və Milli Təhlükəsizlik Şurasına birbaşa tabedir: “Rəsmi qaydada onun fəaliyyətinin humanitar yardım, iqtisadi inkişaf, səhiyyə və demokratiya təşəbbüslərinə həsr olunduğu bildirilsə də, USAID müxtəlif ölkələrdə ictimai rəyə və daxili işlərə təsir göstərmək məqsədilə media və QHT-lərin maliyyələşdirilməsində rol oynayıb və bu rolu səbəbindən hazırda nəzarətə məruz qalır”.

Analitiklər bu maliyyələşdirmənin media qərəzsizliyi ilə bağlı suallar yaratdığını, xüsusilə, ABŞ-ın xarici siyasət maraqları ilə sıx əlaqəli narrativlərə dair narahatlıq doğurduğunu iddia edirlər.

İndi isə, xüsusilə, respublikaçılardan olan tənqidçilər “BBC Media Action”ın 2023–2024-cü illərdə USAID-dən 3 milyon dollar aldığını qeyd edirlər. Onların fikrincə, ABŞ Prezidenti Trampın “radikal dəlilər tərəfindən idarə edildiyini” söylədiyi USAID-in tamamilə bağlanması “BBC Media Action”ın illik büdcəsində böyük bir boşluq yaradacaq.

Qeyd edək ki, “BBC Media Action” BBC-nin beynəlxalq xeyriyyə təşkilatıdır və dünyanın ən yoxsul bölgələrində yayımlanan proqramlar hazırlayır, jurnalistlərə peşə hazırlığını artırmağa kömək edir və onları öz təsir dairəsində saxlayır.

Son vaxtlar USAID-lə bağlı Macarıstan hökumətinin mövqeyi də maraq doğurub. Beləki, Macarıstanın Baş naziri Viktor Orban USAID-i onun hökumətini zəiflətmək üçün müxalif media qurumlarına maliyyə dəstəyi verməkdə ittiham edib. O da vurğulanıb ki, USAID-in maliyyələşdirməsinin dayandırılması ilə Macarıstanda bir sıra media qurumları indi alternativ maliyyə dəstəyi tapmaqda çətinlik çəkirlər.

USAID-dən maliyyə yardımı alanlar arasında Ukrayna ilk sırada dayanır. Ukrayna mediası həm birbaşa, həm də Medianın İnkişafı Fondu (MDF) kimi vasitəçi fondlar tərəfindən maliyyələşdirilib. Buna nümunə kimi, “Avromaydan” zamanı ortaya çıxan “Hromadske” telekanalı və “Hromadske radio” göstərilir. Həm də “Ukrayna həqiqəti”, “Slidstvo.Info” və bir çox başqaları qurum tərəfindən maliyyələşib. Bəzi məlumatlara görə, ölkə mediasının 90 faizə qədəri USAID və ya onunla əlaqəli strukturlarla bu və ya digər şəkildə əməkdaşlıq edib.

USAID-in məlumatına görə, 24 fevral 2022-ci ildən bəri Ukraynaya humanitar yardım üçün 2,6 milyard dollar, “inkişaf” üçün isə daha 5 milyard dollar vəsait ayırıb. Bu pulların, əslində, hansının Ukraynaya getdiyi şübhə doğurur. Çox hissəsi məmurların cibinə “girib”. Hazırda USAID-in maliyyələşməsi dondurulduğundan xarici




qrantlardan asılı olan Ukrayna media qurumları sağ qalmağa çalışırlar.

O da artıq bəlli həqiqətdir ki, USAID mediaya və söz azadlığına dəstək adı altında Cənubi Qafqazda da öz milli maraqlarına yönəlmiş siyasət yürüdən hökumətlərə qarşı şantaj və təzyiq alətləri yaradıb. Məsələn, burada “JAM-news.net” xəbər portalı, “OC media” (Open Caucasus Media) qismində ələ alınmış regional statuslu media subyektləri ilə yanaşı, həm də oxşar funksiyanın daşıyıcısı olan GIPA (Georgian Institute of Public Affairs) yaradılıb.

Bu media subyektlərinin, QHT, fond və institutların funksiyaları təkcə informasiya yaymaqla məhdudlaşmır. Onlar Cənubi Qafqaz dövlətlərində ABŞ Demokratlar Partiyasının siyasətinə boyun əyən auditoriyanın formalaşdırılmasında, müvafiq kadrların seçilib müəyyənləşdirilməsində, yetişdirilməsində və yönləndirilməsində mühüm rol oynayıblar. Bu kontekstdə GİPA-nın fəaliyyəti xüsusilə diqqət çəkir.

Qafqaz Jurnalistika və Media İdarəetmə Məktəbi (GIPA-nın nəzdində mövcud olan 4 departamentdən biri) USAID-in siyasətinə alət olan yerli kadrların “təlim-tədris” ehtiyaclarını ödəyib. Məktəbdə təhsil almaq istəyən şəxslər yerli müxalifət partiyalarının təqdimatı əsasında əvvəlcə ndə “müsabiqədən keçiblər”. Bu müsabiqələr istisnasız olaraq USAID-in yerli təmsilçisinin iştirakı ilə baş tutub. Daha sonra “seçilmiş şəxslər” GIPA-ya göndəriliblər. Burada pulsuz təhsil və təqaüdlə təmin ediliblər. Bu təhsil üzrə təqaüd agentlik tərəfindən ödənilir.

Azərbaycanda isə USAID müəyyən media qurumları ilə şübhəli əməkdaşlıq qurub. Məsələn, “Toplum TV”, “Abzas Media”, Fakt Yoxla, lll Respublika Platforması və digər bu kimi layihələr Qərb fondlarının birbaşa sifarişi ilə hazırlanıb. Maliyyə təminatı da Qərb fondları tərəfindən müxtəlif üsullarla həyata keçirilib. İşçi təminatı və yerlərdə işin təşkili ilə bağlı məsələlər isə ölkədəki icraçılar tərəfindən təmin olunub. Onlar USAID-in ayırdığı pullarla sifarişlərini icra ediblər.

**Politoloq Aydın Quliyev bu barədə deyir:** “Təcrübə göstərir ki, USAID-in media qrant layihələri müxtəlif ölkələrdə ABŞ-ın dövlət maraqları ilə bərabər, həmin ölkələrin daxili işlərinə müdaxilə üçün müəyyən strukturların və şəbəkələrin yaradılmasına xidmət edib. Ukrayna, Serbiya, Gürcüstan, Moldova və digər ölkələrdə USAID-in əli ilə yaradılan şəbəkələrin nə işlər gördükləri və onların fəaliyyətinin nəyə gətirib çıxartdığı göz qabağındadır. Bu qurum həmin şəbəkələrin köməyi ilə qeyri-stabil vəziyyət yaratmaqla milli hökumətləri təsir altında saxlamağa çalışıb. Ümumiyyətlə, biz USAID-in timsalında



ABŞ-ın böyük dövlət ambisiyasından əmələ gələn bir “mənəm-mənəmlik” ifadəsini görmüşük. ABŞ özünü dünyanın ən hegemon ölkəsi kimi təsdiqləmək üçün bu cür layihələrdən istifadə edib. Agentlik media, QHT sektoru və siyasi partiyaları maliyyələşdirməklə ABŞ-ın əlində həmin ölkələrə təsir göstərmək üçün ən güclü vasitəsi olub. İş burasındadır ki, USAID-in ləğvi ilə yanaşı, ABŞ-ın başqa ölkələrə münasibəti də dəyişməlidir. Əgər Vaşinqton əvvəlki kimi başqa ölkələrin daxili işlərinə müdaxiləni, həmin ölkələrdə xaos yaratmağı prioritet kimi seçəcəksə, ABŞ-ın USAID-ə oxşar yeni-yeni qurumlarının meydana gələcəyinə şübhə yoxdur. Bu siyasət davam edərsə, USAID-in ləğv olunmasına heç bir ehtiyac da yoxdur. Ona görə də bu qurumun ləğv olunması ilə bərabər, ABŞ-ın siyasətində də dəyişikliklərə ehtiyac var.

Əlbəttə, Azərbaycan kimi ölkələrin zamanında qaldırdıqları hay-küy və obyektiv tənqidlərin nəticəsidir ki, Tramp hökuməti USAID-in media qrant layhələri əsasında dünya ölkələrində ziyanlı siyasət apardığına lazımi qiymət verə bildi. Eyni zamanda, USAID-in siyasəti təkcə milli dövlətlərə yox, həm də ABŞ-ın dünyadakı nüfuzuna çox ciddi zərbələr vurdu.

Mahiyyəti bundan ibarətdir ki, USAID-i idarə edən şəxslər ən müxtəlif layihələrdən gizli paylar qoparmaqla korrupsiyaya qurşanıblar. Heç şübhə yoxdur ki USAID xətti ilə müxtəlif ölkələrə ayrılan milyardlarla dollar vəsaitin bir hissəsi bu təşkilatın məmurlarının cibinə “axıb”. Bax, bu, çox ciddi problemdir. Buna görə də USAID-in ləğv olunması zamanın tələbi idi”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Çoxsaylı cinayətlərdə təqsirləndirilənlərin ittiham aktının nəticəvi hissəsinin elanı başa çatıb



**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası fevralın 18-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktlarına dair epizodlar, habelə Azərbaycan Respublikasının hərbi arsenalına və mülki infrastrukturuna vurulmuş maddi ziyanın məbləği elan edilib.

Dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayev təcavüzkar müharibənin gedişində törədilmiş ayrı-ayrı cinayət faktları və iş üzrə təqsirləndirilən şəxslərin həmin cinayətlərdə iştirakına dair ittiham aktının nəticəvi hissəsini elan ediblər.

Bildirilib ki, 1988-2024-cü illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

Sonra dövlət ittihamçısı Təranə Məmmədova təcavüzkar müharibənin gedişində törədilmiş bir sıra konkret cinayət faktlarını sadalayıb.

Qeyd edilib ki, 1988-ci ilin fevralından başlayaraq Xankəndi şəhərində yerləşən Xankəndi Pedaqoji İnstitutunda müəllim işləyən azı 17 pedaqoji işçi, habelə ali təhsil alan azı 17 azərbaycanəsilli tələbə məhz azərbaycanlı olduqları üçün məcburi qaydada kütləvi şəkildə həmin institutdan qovulub.

1988-ci il fevralın 20-də - Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında qərarın çıxarılaraq SSRİ Ali Sovetinə göndərilməsindən cəmi bir gün sonra, yəni, 1988-ci il fevralın 21-də Əsgəran rayonu ərazisində odlu silahlarla aramsız atəşlər açılması nəticəsində Xankəndi şəhərinin dinc mülki sakini Əhmədov Əhməd Bəhmən oğluna güllə yarası xəsarəti yetirilib.

1988-ci il iyulun 9-da milis orqanlarına daxil olmuş məlumat əsasında həmin ilin mart-aprel aylarında Xankəndi şəhərində yerləşən Kondensator zavodunda müxtəlif qurğular vasitəsilə kustar üsulla hazırlanmış silahlar və partlayıcı qurğular, habelə əl qumbaraları aşkar edilərək götürülüb.

1988-ci il sentyabrın 20-də Xocavənd rayonunun Günəşli kəndinə odlu silahlardan və tüfənglərdən istifadə olunmaqla edilmiş hücum nəticəsində həmin kəndin dinc sakini Balakişiyev Məhəmmədəli Qəhrəman oğlu qəsdən öldürülüb.

Qarabağ İpək kombinatının təmir-tikinti sahəsinin rəisi Ayrapetyan Slavik Calaloviç, kombinatın partiya komitəsinin katibi Köçəryan Robert Sedraki, baş mühəndis Simonyan Vladimir Semenoviç, həmkarlar təşkilatının sədri Mesropyan Bella Surenovna və qeyriləri 1988-ci ilin sentyabr ayı ərzində iş yerinə buraxmamaqla və hədə-qorxu gəlməklə Qarabağ İpək kombinatında işləyən azərbaycanəsilli şəxsləri kütləvi şəkildə iş yerindən qovaraq əmək hüquqlarından zorla məhrum ediblər.

Ermənistan Respublikası silahlı qüvvələrinin törətdiyi çoxsaylı cinayətləri videolentə alaraq dünya ictimaiyyətinə çatdırmaq məqsədilə 1992-ci il iyunun 15-də Xocalı rayonunun Naxçıvanlı kəndinə ezam olunmuş Azərbaycan Dövlət Televiziyasının “215 KL” studiyasının rəhbəri, jurnalist Mustafayev Çingiz Fuad oğlu həmin gün saat 11:00 radələrində çəkiliş apararkən yaxınlığına düşüb partlamış minaatan mərmisinin qəlpələrinin bədəninin müxtəlif nahiyələrinə dəyməsi nəticəsində qəsdən öldürülüb.

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və mülki əhaliyə zirehli texnikalardan atəş açılıb, “OQ-9M” markalı 73 millimetr çaplı, qəlpəli qumbaranın Alxanlı kəndinin ərazisinə düşərək partlaması nəticəsində kəndin dinc sakinləri Allahverdiyeva Sahibə İdris qızı və 2016-cı il təvəllüdlü azyaşlı Quliyeva Zəhra Elnur qızı müxtəlif bədən xəsarətləri alaraq qəsdən öldürülüb.





2020-ci il iyulun 14-də Ermənistan Respublikasının Tavuş vilayəti Berd rayonu Movses kəndi ərazisində yerləşən mövqelərdən və ələ keçirilmiş “Ara postu” adlanan döyüş mövqeyindən iriçaplı artilleriyadan Müdafiə Nazirliyinin Tovuz rayonunun Ağdam kəndində yerləşən “N” saylı hərbi hissəsinin müvafiq döyüş postunun yaxınlığında qurulmuş sığınacaq istiqamətində atəşlər açılıb, atılmış mərminin sığınacağa düşərək partlaması nəticəsində general-mayor Həşimov Polad İsrayıl oğlu, polkovnik Mirzəyev İlqar Anzor oğlu, mayor Əhmədov Namiq Hajan oğlu, mayor Novruzov Anar Gülverdi oğlu və gizir Babayev Yaşar Vasif oğlu qəsdən öldürülüb.

2020-ci il oktyabrın 2-də işğal altında saxlanılan Ağdərə, Ağdam rayonları və digər ərazilərdəki mövqelərdən “Qrad” (“BM-21”) reaktiv yaylım atəş sistemlərindən, iriçaplı digər silahlardan Tərtər rayonunun hərbi əməliyyatların aparılmadığı, hərbi obyektlərin yerləşmədiyi, dinc əhalinin sıx yaşadığı yerlərinə açılmış çoxsaylı atəşlərin mərmilərindən birinin Tərtər Rayon Prokurorluğunun inzibati binasının qarşısında avtomobil yolunun üzərinə düşüb partlaması nəticəsində Ermənistan silahlı qüvvələrinin törətdiyi cinayət faktlarına görə başlanmış cinayət işləri üzrə yaradılmış istintaq qruplarının üzvü, Sumqayıt Şəhər Prokurorluğunun Tərtər Rayon Prokurorluğuna ezam olunmuş böyük müstəntiqi Həsənov Ozal Mübariz oğluna sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər yetirilib.

Daha sonra çıxış edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev elan edib ki, 1990-cı illərin əvvəllərindən 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində müxtəlif iri və kiçikçaplı silahlar, sursatlar, artilleriya qurğuları, raketlərdən atəşlər açılmaqla edilmiş silahlı hücumlar nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin müdafiə arsenalına aid 908 milyon manatdan artıq dəyərdə hərbi əmlaklar məhv edilib, yararsız hala salınıb və ya ələ keçirilib.

2001-ci ilin əvvəllərindən 2021-ci il mayın sonlarınadək olan müddət ərzində “İsgəndər-M” əməliyyat-taktiki təyinatlı ballistik raketi, “Toçka-U” taktiki raket kompleksi, “9K33 OSA” özüyeriyən zenit raket kompleksi, “S-8” idarə olunmaz təyyarə raketi, “Smerç”, “TOS-1A Solntsepek” sistemləri, “İqla-S” zenit-raket kompleksləri, tank əleyhinə idarəolunan “Konkurs” və “Kornet” raketləri, “RPQ-26” qumbaraatanları və digər iriçaplı odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular qanunsuz əldə edilərək Rusiya Federasiyasından gizli üsullarla Ermənistan Respublikasına, oradan isə Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində əvvəllər işğal altında olmuş Azərbaycan Respublikasının ərazisində qanunsuz olaraq qurulmuş mühəndis-istehkam mövqelərinə yerləşdirilməklə Azərbaycana qarşı təcavüzkar müharibədə istifadə edilib.

Eyni zamanda, təcavüzkar müharibə nəticəsində mülki infrastruktura Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə, habelə İkinci Qarabağ müharibəsi dövründə ümumilikdə 5,2 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

Təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə Azərbaycan Respublikasına ümumilikdə 100 milyard manatdan artıq maddi ziyan vurulub.

Yekunda Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxslər Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, Harutyunyan Arayik Vladimiri, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi, Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Balayan Levon Romiki, Stepanyan Qurqen Homerosi, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti və Allahverdiyan Davit Nelsoninin ittiham olunduqları Cinayət Məcəlləsinin müvafiq maddələrini elan edib.

Bununla da iş üzrə ittiham aktının nəticəvi hissəsinin elanı başa çatıb.



Daha sonra məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev təqsirləndirilən şəxslər Arayik Harutyunyana və Arkadi Qukasyana qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini, onlara istinad edilən əməllərin hüquqi tövsifini, həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı və təqsirləndirilən şəxslərin malik olduğu hüquqları izah edib, habelə özlərini təqsirli bilib-bilməmələrinə dair suallar ünvanlayıb.

Arayik Harutyunyan və Arkadi Qukasyan məhkəməyə müraciət edərək müdafiəçiləri ilə konfidensial görüş keçirmək istədiklərini, bundan sonra suallara cavab verəcəklərini bildiriblər.

Məhkəmənin növbəti iclası fevralın 20-nə təyin olunub.

Növbəti məhkəmə iclası təqsirləndirilən şəxslərin hər birinə onlara qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyəti, onlara istinad edilən əməllərin hüquqi tövsifi və həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzaların izah olunması, irəli sürülmüş ittihamlar üzrə özlərini təqsirli bilib-bilməmələrinə dair sualların aydınlaşdırılması ilə davam etdiriləcək.

Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Böyük Qayıdış marafonu

## *Azad edilmiş ərazilərdə 40 min insan yaşayıb fəaliyyət göstərir*

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü il üzrə monitorinq prosesini yekunlaşdırıb.**




Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritetdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlət Proqramı çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə davam etdirilir.

Dövlət Proqramının icrasının monitorinq nəticələri barədə məlumat verən İİTKM-in sahəvi proqramların monitorinqi sektorunun müdiri Elşən Yusifli bildirib ki, tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 2024-cü ilin sonuna 62 min hektardan artıq ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Hesabat dövründə 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, eləcə də Xocalı rayonunun Ballıca kəndinə köçürülüb.

2024-cü ildə işğaldan azad edilmiş ərazilərdə 6 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb, 3 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti təmin olunub. Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması istiqamətində də işlər davam etdirilib. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kv-luq, 262 kilometr 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib. 11 ədəd 110 kv-luq, 1 ədəd 330 kv-luq yarımstansiya tikilib.

Mərkəzin sektor müdiri əlavə edib ki, geri qayıdan əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı, ümumilikdə, 6-ya (Laçın, Cəbrayıl, Füzuli, Zəngilan rayonları və Xankəndi şəhəri olmaqla) çatdırılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və Azərpoçt tərəfindən quraşdırılmış POS-terminalların sayı 904 ədəd (Ağdam, Füzuli, Şuşa, Xocavənd, Xocalı, Zəngilan, Laçın, Cəbrayıl, Qubadlı, Kəlbəcər rayonları və Xankəndi şəhəri üzrə) təşkil edib. Bununla yanaşı, əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun təmin edilməsi üzrə tədbirlər həyata keçirilib, ümumilikdə, 40 minə yaxın insanın işğaldan azad edilmiş ərazilərdə yaşayışı və fəaliyyəti gerçəkləşdirilib.

Elşən Yusifli bildirib ki, Dövlət Proqramı çərçivəsində sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Həmçinin Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında, ümumilikdə, 400-dən artıq müəssisənin fəaliyyəti təmin olunub. Ağdam Sənaye Parkındakı müəssisələrdə buraxılan məhsulların ixracına başlanılıb.

Yaşayış məntəqələrində mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası istiqamətində ötən il VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılış mərasimi və Vaqif Poeziya Günləri keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı olub. "Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi"nin inşası başa çatdırılaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə açılış mərasimi reallaşıb.

Dövlət Proqramının hesabat dövrü üzrə monitorinqi Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası" tələblərinə uyğun olaraq, icraçı orqanlar (qurumlar) ilə yaxından müzakirələr aparılmaqla elektron portal vasitəsilə (https://boyukqayidish.gov.az) şəffaflıq, hesabatlılıq və səmərəlilik prinsipləri əsasında həyata keçirilib.

# Horadiz – Ağbənd dəmir yolunda daha bir tunel

**"Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib ki, Horadiz–Ağbənd dəmiryol xəttində həyata keçirilən tikinti işlərinin 62 faizi tamamlanıb. Hazırda ox üzrə uzunluğu 110,4 kilometr olan yolun 104 və 106-cı kilometrlərində dəmiryol tunelləri inşa olunur.**

Tunellərdən biri (104-cü kilometr) müstəqil Azərbaycanın tarixinin ilk, digəri isə (106-cı kilometr) ölkənin ən uzun dəmiryol tunelidir. 106-cı kilometrində uzunluğu 1071 metr olan tuneldə artıq qazma işləri yekunlaşıb və bununla tunel tikintisinin 65 faizi tamamlanıb. Qazma işlərindən sonra tuneldə izolyasiya və üzləmə işləri yerinə yetiriləcək.



Qeyd edək ki, Horadiz – Ağbənd dəmiryol xətti Avrasiya nəqliyyat bağlantısının mühüm komponenti olacaq Zəngəzur dəhlizinin bir hissəsi kimi həm Naxçıvanla birbaşa əlaqəni təmin edəcək, həm də Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsindəki mövqeyini daha da gücləndirəcək.

Xatırladaq ki, 2021-ci ilin fevral ayında ölkə Prezidenti tərəfindən təməli qoyulmuş Horadiz–Ağbənd dəmiryol xəttində tikinti işləri 3 mərhələdə həyata keçirilir. Layihə çərçivəsində 9 stansiyanın (Horadiz (mövcud), Yuxarı Mərcanlı, Şükürbəyli, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 4 ədəd tunel, 40 ədəd körpü, 3 ədəd qalereya (dəmir yollarını qaya parçalarından, qar uçqunlarından qorumaq üçün süni mühəndis qurğusu), 26 ədəd avtomobil keçidi, ümumilikdə isə 500-dən çox süni mühəndis qurğusunun tikintisi planlaşdırılır.

Prezident İlham Əliyev 2021-ci il fevralın 15-də Füzuli rayonuna səfəri çərçivəsində Horadiz – Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısı çıxışında bu infrastrukturun çox böyük strateji əhəmiyyəti olduğunu bildirib: "İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək" .

# "Xızı-Abşeron" bu ilin sonunadək "yaşıl" enerji verəcək

## *240 meqavatlıq KES-də indiyədək 6,5 meqavatlıq 4 turbin quraşdırılıb*

**Azərbaycanın zəngin bərpaolunan enerji potensialı, "yaşıl" enerji sahəsinə olan böyük maraq və ölkəmizdə xarici investisiyalar üçün yaradılmış əlverişli mühit günəş və külək elektrik stansiyaları ilə bağlı layihələrin həyata keçirilməsinə stimul verib. Məhz bunun nəticəsidir ki, 2025-ci ildə ölkəmizdə daha bir "yaşıl" enerji obyekti – "Xızı–Abşeron" Külək Elektrik Stansiyası istifadəyə veriləcək.**



Azərbaycanın ən böyük külək elektrik stansiyasına təşkil edilən mediatur zamanı bu barədə jurnalistlərə ətraflı məlumat verilib. Bildirilib ki, 240 meqavatlıq külək elektrik stansiyasında indiyədək hər birinin gücü 6,5 meqavat təşkli edən 4 turbin quraşdırılıb. İlin sonunadək isə bütün külək qurğularının quraşdırılması tamamlanacaq. Bu da stansiyanın nəzərdə tutulmuş vaxtda istismara buraxılmasına imkan yaradacaq.

Azərbaycanın bərpaolunan enerji sahəsində ikinci ən böyük sytansiyanın istifadəyə verilməsi ilə ölkənin ümumi enerji balansında "yaşıl" enerjinin payı əhəmiyyətli dərəcədə artacaq. Belə ki, ilkin hesablamalara görə, stansiyada il ərzində 1 milyard kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq. Bu isə 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa və 300 min evi elektrik enerjisi ilə təmin etməyə imkan yaradacaq. 25 il müddətinə "tikinti-sahiblik-istismar" (BOO - Build – Own – Operate) prinsipi ilə fəaliyyət göstərəcək stansiya "ACWA Power" şirkəti tərəfindən idarə ediləcək.

Xatırladaq ki, layihə Abşeron və Xızı rayonlarının ərazisində, ümumilikdə, 36 hektar ərazidə həyata keçirilir. 12 külək turbinindən ibarət hissə ümumi gücü 78 meqavat olmaqla Abşeron rayonunun, 25 külək turbinindən ibarət olan 162 meqavatlıq hissə isə Xızı rayonunun ərazisində yerləşəcək. Stansiya istismara verildikdən sonra Abşeronda illik 300 milyon kilovat-saatdan, Xızıda isə 600 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal edəcəyi proqnozlaşdırılır. Mütəxəssislərin dediyinə görə, külək texnologiyasında enerji istehsalının səmərəliliyi məhz küləyin sürətindən asılıdır. Tədqiqatlar göstərir ki, Abşeronda küləyin orta illik sürəti saniyədə 9,35 metr, Xızıda isə 9,63 metr-saat təşkil edir. Külək turbinlərinin səmərəli fəaliyyəti üçün kifayət qədər yüksək olan bu göstərici stansiyanın enerji istehsalında dayanıqlılığın təmin olunmasına imkan yaradacaq.

Bir məqamı da qeyd edək ki, Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetinə uyğun olaraq həyata keçirilən 240 meqavat gücündə "Xızı–Abşeron" Külək Elektrik Stansiyası ölkəmizin bərpaolunan enerji sahəsində xarici sərmayə cəlb edilməklə həyata keçirilən irimiqyaslı layihələrindən biridir. Eyni zamanda, stansiya Azərbaycanın ilk, Cənubi Qafqaz regionunun isə ən böyük külək enerjisi istehsal edən qurğusu olacaq. Müqayisə üçün qeyd edək ki, hazırda ölkəmizdə ən böyük külək elektrik stansiyası Xızı rayonunun ərazisində yerləşən 50 meqavat gücündə olan "Yeni Yaşma" stansiyasıdır. Burada hər birinin gücü 2,5 meqavat təşkil edən 20 külək turbini quraşdırıldığı halda, "Xızı-Abşeron"da isə hər birinin gücü 6,5 meqavat olan 37 ədəd külək turbini fəaliyyət göstərəcək.

Qeyd edək ki, "Xızı–Abşeron" layihəsi Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında külək enerjisi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə həyata vəsiqə qazanıb. Sözügedən sənədə əsasən, 240 meqavatlıq külək qurğusunun tikintisi Səudiyyə Ərəbistanı şirkətinə həvalə olunub. Stansiyanın təməli isə 2022-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun iştirakı ilə qoyulub.

"Xızı–Abşeron" layihəsinin ümumi investisiya dəyəri, təqribən, 340 milyon ABŞ dolları təşkil edir. Layihə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən tamamilə xarici investisiya hesabına həyata keçirilir. Yeri gəlmişkən, bu, şirkətin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır. Layihə enerji mənbələrinin şaxələndirilməsi ilə Azərbaycanın enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, "yaşıl" enerji istehsalının artırılması və ekoloji dayanıqlılığın təmin olunması baxımından böyük əhəmiyyət daşıyır.

# Elektrik enerjisi istehsalı çoxalır

**Bu ilin yanvar ayında operativ məlumatlara görə, Azərbaycanda 2 milyard 493,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, ümumi istehsalın 2 milyard 224,9 milyon kilovat-saatı istilik elektrik stansiyalarının, 218,3 milyon kilovat-saatı isə su elektrik stansiyalarının payına düşüb. Bundan əlavə, ay ərzində digər mənbələr üzrə 50,2 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Hesabat dövründə külək və günəş elektrik stansiyalarında, eləcə də Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda elektrik enerjisi istehsalı müvafiq olaraq 2,9 milyon kilovat-saat, 26,4 milyon kilovat-saat və 20,9 milyon kilovat-saat təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalında 96,4 milyon kilovat-saat artım qeydə alınıb.



İlin ilk ayında "Azərenerji" ASC üzrə 2 milyard 232,6 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bunun da 2 milyard 21,6 milyon kilovat-saatı istilik, 211 milyon kilovat-saatı isə su elektrik stansiyalarının payına düşüb. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin balansında olan istilik, su və günəş elektrik stansiyaları üzrə 32 milyon kilovat-saat enerji istehsal edilib. Yanvar ayında "Azərişıq" ASC üzrə enerji istehsalı külək elektrik stansiyalarında 2 milyon kilovat-saat, müstəqil elektrik stansiyalarında isə 226,8 milyon kilovat-saat təşkil edib.

Bu ilin yanvar ayında Azərbaycandan elektrik enerjisi ixracı 157,4 milyon kilovat-saat, idxalı isə 11,2 milyon kilovat-saat təşkil edib.

# Sumqayıtda elektrobus buraxılacaq



**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında bu il Çinin BYD şirkəti tərəfindən elektrik mühərrikli avtobusların istehsalı müəssisəsinin fəaliyyətə başlaması nəzərdə tutulur.**

Agentliyin məlumatına əsasən, artıq şirkətin istehsalı üçün lazımi infrastruktur qurulub, yaxın günlərdə isə istehsal xəttinin quraşdırılmasına start veriləcək, işlərin aprel ayında yekunlaşdırılması planlaşdırılır. May ayından etibarən isə ilk elektrikli avtobusların sənaye üsulu ilə yığımına başlanılacaq.

İllik istehsal gücü 500 ədəd elektrik avtobusu təşkil edəcək müəssisədə ilkin mərhələdə bir istehsal xəttində 5 ədəd avtobusun yığımı həyata keçiriləcək. Növbəti ildən etibarən lokallaşdırma işlərinin daha da dərinləşdirilməsi və 2030-cu ilə qədər BYD markalı elektrik avtobuslara olan tələbatın 40 faizinin lokallaşdırılma hesabına ödənilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri 29 milyon manat təşkil edən layihə çərçivəsində 600 nəfər işlə təmin olunacaq.

# Əhalinin gəlirləri 6 faiz artıb



**Bu ilin yanvar ayında Azərbaycan əhalisinin nominal gəlirləri 5 milyard 968 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 6,2 faiz çox) təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilib ki, son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir 5,7 faiz artaraq 584 manata çatıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*



# Vətən andının Zəfər zirvəsi

## *Müsahibimiz Vətən Müharibəsi Qəhrəmanı Nizami Mövlanovdur*

**Dünyanı qana çalxalayan müharibələr, işğalçı ordular zaman-zaman insanlara faciələr yaşadıb. XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycan xalqı da qanlı-qadalı tale yaşadı, 1-ci və 2-ci Qarabağ müharibəsində on minlərlə soydaşımız şəhid oldu, yaralandı, əlilə çevrildi.**

**...30 illik bu Vətən savaşı zamanı xalqımızın içindəki nisgil, ağrı düşmənə qarşı qisas andına çevrilmişdi. Müqəddəs Qarabağ torpaqlarımız sahiblərini gözləyirdi. Vətən müharibəsində Qarabağımız azad oldu. Xarıbülbüllü torpaqlarımız rahat nəfəs almağa başladı. Müzəffər Ordumuzun yenilməzliyi cahana səs saldı. Şəhidlərimizin qəhrəmanlığı, igidlərimizin cəngavərliyi ilə öyündük.**

**44 günlük Vətən müharibəsinin qəhrəmanlarından biri, Azərbaycan Ordusunun Təlim Tədris Mərkəzinin rəisi, polkovnik Nizami Mövlanovla söhbətimiz bütün bunlar barədədir.**

**– Təəssüf ki, Qarabağ savaşı qəhrəmanlarının bir çoxu əbədiyyətə qovuşub. Allah onlara rəhmət eləsin. Yaşayan qəhrəmanımızla həmsöhbət olmaq qəhrəmanlıqla canlı təmas deməkdir. Vətən Müharibəsi Qəhrəmanı kimi özünüzü necə hiss edirsiniz?**

– Şükürlər olsun. Bundan da gözəl gün ola bilərmi? Qələbə ruhu hər birimizin çöhrəsinə xoşbəxtlik əhvalı gətirib. Xüsusilə, fəxr edirəm ki, mən Zəfər qazanmış bir ordunun zabitiyəm.

***– Gəlin sizi qəhrəmanlıq zirvəsinə ucaltmış yola nəzər salaq.***







– Mən 1976-cı il 16 oktyabr tarixində Quba rayonunun Utuq kəndində doğulmuşam.Valideynlərim müəllim olub. Məni hərbçi olmağa atam istiqamətləndirib. Böyük qardaşım Tərlan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuyanda yaxşı mənada onun geydiyi kursant paltarına həsədlə baxırdım. Hətta o, tətillərdə evimizə gələndə qardaşımın paltarını geyinirdim. Elə bu marağın təsiri olaraq, 1991-ci ildə qardaşım liseyi qurtaranda, onun davamçısı mən oldum. Fəxr edirəm ki, Azərbaycan Ordusunda ailəlikcə xidmət edirik. Qardaşım polkovnikdir. Birinci Qarabağ müharibəsində iştirak edib. 2016-cı ildə Aprel döyüşlərində və Vətən müharibəsində də döyüşüb, 2022-ci ildə Anti-terror əməliyyatlarında Vətənə borcunu ləyaqətlə yerinə yetirib. Qardaşım oğlu zabitdir. Digər bir qardaşım da zabit olmağa hazırlaşır. Ailəmizdə hərbçilərin sayı ildən-ilə çoxalır və mən bununla fəxr edirəm.

***– Siz Cəmşid Naxçıvanski yolunun davamçılarından birisiniz. O, Azərbaycanın məşhur hərbi xadimi, diviziya komandiri olub. Kəngərlilər nəslinin sonuncu generalıdır. Çox təəssüf ki, belə bir hərbçimiz Stalin repressiyasının qurbanı olub. Cəmşid bəy 1938-ci ildə Lefortovo həbsxanasında güllələnib. Onun adını daşıyan Hərbi Liseydə təhsil almaq, şübhəsiz, sizi Vətənə onun kimi xidmətə hazırlayıb.***

– Əlbəttə, Cəmşid Naxçıvanski adı mənim üçün örnək olub. Tək bir faktı deyim ki, o, Bakının daşnak ermənilərindən təmizlənməsində türk qoşunları ilə birgə iştirak etmiş və ingilislərə arxalanan “Sentrokaspi Diktaturası” qüvvələrinə qarşı qəhrəmanlıqla döyüşmüşdür. Cəmşid Naxçıvanski 1920-ci ilin martında isə Şuşada daşnaklara qarşı hərbi əməliyyatlarda iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, artilleriya generalı Səməd bəy Mehmandarov Cəmşid Naxçıvanskini 2-ci Qarabağ süvari alayının komandiri təyin etmişdi. Sovet hakimiyyəti illərində də məşhur hərbçi xidmətini davam etdirmişdir. Çox təəssüf ki, XX əsrin 30-cu illərinin ortalarında repressiyanın qara kabusu ermənilərin fitvası ilə onun da taleyinə amansızlıqla ölüm hökmü oxumuşdur.  Biz hərbçilər həyatını Azərbaycanın varlığı naminə qurban verən vətənpərvər insanların ömür kitabını oxuyub qeyrət, hünər dərsi alırıq.

Ümummilli lider Heydər Əliyev həyatdan nakam getmiş görkəmli hərbçimizin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı tarixi qərar verib və bu məktəbi azərbaycanlı balalarına hədiyyə edib. Sovet zamanında belə bir statusda hərbi lisey açmaq müstəsna nüfuz və cəsarət tələb edirdi. Təsəvvür edin, o illərdən başlayaraq həmin məktəbin məzunlarının sayı ildən-ilə çoxalırdı. İndi bu hərbçilərin bir çoxu “Azərbaycanın Milli Qəhrəmanı” və “Vətən Müharibəsi Qəhrəmanı” adlarını şərəflə daşıyırlar. Əlbəttə, onların içərisində şəhid qəhrəmanlarımız da çoxdur. Bu şanlı tarixi balalarımıza öyrətməliyik ki, onlar vətənpərvərlik ruhunda böyüsünlər.

***– Bəli, bu məktəbin məzunlarından 11 nəfəri “Azərbaycanın Milli Qəhrəmanı”, 19 nəfəri isə “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adlarına layiq görülmüşlər. Hərbi liseydə “Şəhidlər” muzeyi də yaradılıb.***

– Azərbaycan Ordusunun zabit korpusunun əsası – bünövrəsi bizim Hərbi Liseyin bazası əsasında yaradılıb. Mən həmişə bu məktəbə müqəddəs ocaq kimi baxmışam. Çünki 1971-ci ildən başlayaraq orada Azərbaycanın milli kadr potensialı formalaşmağa başlayıb. Sovet dövründə bu məktəbi qurtaran məzunlar keçmiş ittifaqın ən nüfuzlu ali hərbi təhsil ocaqlarına göndərilirdilər. Mənim qardaşım Tbilisidə Ali Artilleriya Məktəbində təhsil alıb. Bütün bunlar Heydər Əliyevin siyasi uzaqgörənliyi və milli iradəsi sayəsində həyata keçirilirdi. O illərdən başlayaraq, Naxçıvanski adına Hərbi Liseydə gələcək Azərbaycan Ordusunun təməl daşları hörülürdü. Ona görə də, Azərbaycan Ordusu yenilməzdir, məğlubedilməzdir.

Mən fəxr edirəm ki, o məktəbin yetirməsiyəm. Liseyi bitirəndən sonra Bakı Ali Ümumqoşun Məktəbinə (Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi) daxil oldum. 4 il tankçı ixtisasına yiyələndim. Təhsil aldıqdan sonra müxtəlif yerlərdə hərbi xidmətimi yerinə yetirmişəm.

***– Deyirlər ki, ordu illərlə təlim keçir - bir gün imtahan vermək üçün. Bu mənada 2020-ci ilin 27 sentyuabr tarixini xatırlayaq.***

– İnanın, bu tarixi günü biz səbrsizliklə gözləyirdik... Ordu və cəmiyyət olaraq, hamımız Vətən üçün döyüşə hazır idik. Elə bil, su üçün susamışdıq. 27 sentyabrda rəhbərlik etdiyim hərbi hissə ilə Horadiz, Lələtəpə istiqamətindən əks hücuma keçdik. Düşmənin illərlə bərkidilmiş müdafiə xəttini yararaq hücumu davam etdirdik. Bir anlıq əsgərlərin, zabitlərin üzünə baxdım. Gözlərinə heç nə görünmürdü, ancaq “İrəli!” kəlməsini eşidirdim.Vətən torpağını azad etmək üçün ölüm-dirim savaşı kimsəni qorxutmurdu. Döyüş ruhu son dərəcə yüksək idi. Ali Baş Komandanın təbrikləri oxunduqca, ordu, sanki lərzəyə gəlirdi. Ölümün xofunu qıran döyüşçülərimiz yaralı halda vuruşurdular. Hər bir ərazi boşaldıqca hamı bir ağızdan zəfər təntənəsi ilə deyirdi: “Qarabağ Azərbaycandır!”

Qələbəmizin hər günü, hər saatı canlı qəhrəmanlıq dastanı idi. Bu necə döyüş ruhu, ölməzlik coşqusu idi, İlahi?! Vətən, sənin adına, suyuna, torpağına qurban olum. Bu meydanda ölüm nədir, bilməz olduq. Dağlarımız, çaylarımız, meşələrimiz pişvazımıza çıxmışdı. Sevincdən ağlayanlar da vardı. Elə bir döyüş olmadı ki, biz bir addım geri çəkilək.Yaralı halda vuruşan oğullar qəhrəmanlıq tariximizin canlı əfsanələridir. Bir əsgərimizin ayağı sınmışdı, ağlayırdı ki, mən geri çəkilə bilmərəm. Bax belə, düşmənin bağrını yarırdılar. Yenilməz döyüşçülərlə keçilməz sədləri, mövqeləri yarırdıq, düşmənin müqaviməti boşa çıxırdı.

***– Döyüş yolunuz Cəbrayıl, Füzuli, Xocavənd, Şuşadan keçib. O günləri necə xatırlayırsınız?***

– Xatirələr çoxdur. Məni ən çox mütəəsir edən bilirsiniz nə idi? Əsgər sonuncu tikəsini, suyunu mənə vermək istəyirdi. Nə vaxtdır heç nə yemirdim, deyə. Əlbəttə ki, mən özümü tox tutub əsgərimi inandırmalıydım. Dedim ki,oğul, narahat olma, mən acmamışam. İçimdə sanki təlatüm qopurdu, İlahi, mənim tabeliyimdə olan döyüşçü özünü yox, məni düşünürdü. Başqa bir hadisə danışım.Yağışlar ara vermədən yağırdı, paltarlarımız suyun içində idi. Atəş altında nəsə yemək, dincini almaq mümkün olmurdu, bütün bunlara dözmək lazım idi. Bax belə anlarda insan xarakteri üzə çıxır, bir də gördüm ki, zabit yoldaşım çantasındakı bir cüt corabı çıxarıb dedi: -komandir, al geyin, ayaqların isti olsa, xəstələnməyəcəksən. İnanın, indi bunu danışanda, o hissləri yaşayanda gözlərim dolur.

Bütün şəxsi heyət biri-birinə qardaş idi. Əsgərdən tutmuş zabitə qədər. Xüsusilə hamı komandiri qoruyurdu. Bu məhəbbətin, izzətin fövqündə Vətən,Torpaq sevgisi dayanırdı. Belə humanizm ilə cəsarəti, peşəkarlığı, intizamı vəhdətdə olan ordular çox az olub. Zabit heyətinin şəxsi nümunəsi əsgərlərimizə örnək idi. Biz işğalçı orduya qarşı döyüşürdük. Öz torpağımızda qanımız tökülürdü. Şəxsi heyətin inam hissi o qədər güclü idi ki, ancaq irəliyə doğru gedirdik. Əsgərlərimin də, zabitlərimin də hər biri qəhrəmandırlar. Elə buna görə də Vətən müharibəsinin hər günü, hər saatı yazılmalıdır ki, gələcək nəsillər oxuyub ağah olsunlar, bu torpaqlarda necə qəhrəmanlıqlar yaşanıb. Qoy, xalqımızın və dövlətimizin gücü ilə fəxr etsinlər.

***– İlk şəhidiniz harada oldu?***

– Ön xəttin yarılmasında, Lələtəpə istiqamətində şəhidlərimiz oldu. Cəbrayılın Ruzgar kəndi istiqamətində ön xətti yarmalı idik. Düşmən dəfələrlə əks hücum keçirsə də, bizi mövqelərimizdən çıxara bilmədi. Hər şəhid verdikcə, ürəyimiz dağlanırdı. Biz döyüşə başlayanda bilirdik ki, bu yolda qurbanlarımız olacaq. Sevdiklərimizi itirirdik, canlar verirdik, amma yolumuzdan dönmürdük. Bu, Vətən Müharibəsi idi!

***– Bəs ən ağır döyüşünüz necə baş verib?***

– Döyüşlər başlayanda, ön xəttin yarılmasında çətinliyimiz oldu. Şuşakənddə, Muxtarkənd istiqamətində ağır döyüşlərdən keçdik. Hadrut, Xocavənddə Şişdağ yüksəkliyinin alınmasında, Edilli, Axullu, Çıraquz kəndlərinin, yaşayış məntəqələrinin azad olunmasında şəxsi heyətimizin şücaəti gözlərimdən gemir.



***– Şuşa zəfərini harada qarşıladınız?***

– Şuşakənd və Muxtarkənd istiqamətində, Xankəndiyə gedən yolda eşitdik bu zəfəri. Gecə idi. Dedilər cənab Prezident xalqımızı qələbə münasibətilə təbrik edib. Sevincdən hamının gözləri yaşarmışdı. Həyatım boyu belə mənzərə görməmişdim. Ağlayan kim, gülən kim, qucaqlaşan kim. Bu sevinc bütün ömrümə bəs edər. Bu günü də görə bildik. Zəfərimiz mübarək! Ali Baş Komandanımız sağ olsun ki, biz hərbçilərə qələbə qazanmaq şansı verdi. Elə bu vaxt bizə atəşkəs komandası verildi. Dünya, sanki bizim idi. Səhəri yuxusuz açdıq. Onsuz da müharibə yuxularımızı bizdən almışdı. Qarabağdakı, xüsusilə Şuşadakı Zəfərimizi qazanan Azərbaycan Ordusu dünya qəzetlərinin manşetlərinə Azərbaycanın Zəfərini həkk etdi. Cahana sığmayan qəhrəman oğullar yetişdirən Ana Vətən 30 ilə yaxın torpaq, yurd həsrəti ilə yaşayan həmvətənlərimizi bağrına basdı. Bir hərbiçi kimi deyərdim ki, Qələbəmiz bütün yaralılara, şəhid ailələrinə məlhəm oldu.

***– Qarabağda dəfələrlə ölümlə üz-üzə gəlmişsiniz, yaralanmısınız...***

– Mən bu döyüşlərdə qəlpə yarası, partlayış travmaları almışam. Ağır yaralanmağım isə 2014-cü ildə Ağdamda olub. Atəşkəs olsa da, ermənilər tez-tez hucumlar edirdilər. Həmin ilin iyun ayında Ağdamda döyüşlər oldu. Hətta bu barədə Ermənistana irad da tutuldu.

Müzəffər Ordumuzun peşəkarlığı sayəsində 2023-cü ilin anti-terror əməliyyatlarında 23 saata düşmən tam tərksilah oldu. Torpaqlarımızın suverenliyi tam bərpa olundu. Ali Baş Komandanın Xankəndində Azərbaycan Bayrağını qaldırmağı tarixi Qələbəmizin göstəricisidir. Biz hərbçilər sonsuz qürur hissi keçiririk ki, bu Zəfərdə biz xalqın və dövlətin etimadını doğrultduq, çünki bütün Azərbaycan, dünyadakı azərbaycanlılar ümidlərini bizə bağlamışdılar. Nisgilli Qarabağ sahiblərini həsrətlə gözləyirdi. Mülki əhalidə də elə bir birlik gördük ki, bu xalq o qalibiyyətə, o Qələbəyə layiqdir! Məni Vətən Müharibəsi qəhrəmanı adına layiq görən komandanlığıma, Ali Baş Komandana minnətdarlığımı bildirirəm. Rəhbərlik etdiyim şəxsi heyətə demişəm, bu gün də təkrar edirəm ki, hər bir əsgərimlə, zabitimlə birlikdə bu adı qazanmışam.

***– Şuşa azad olandan sonra, qələbəmizin birinci ildönümü şərəfinə Zəfər günümüz Cıdır düzündə keçirildi, Qəhrəmanlar, Zəfər, Qarabağ ordenli hərbçilərimiz ilə bir yerdə siz də orada idiniz.***

– Gözəl anları yada saldınız. Cıdır düzündə Ali Baş Komandanla, Birinci vitse-prezident Mehriban xanımla Qələbəmizin şanlı tarixini qeyd etmək qürurverici idi. Həmin günü çoxlu şəkillər çəkdirdik. Cənab Prezident bir daha bizə öz ürək sözlərini, arzularını çatdırdı.

***– Bu gün siz Azərbaycan Ordusunun Təlim Tədris Mərkəzinə rəhbərlik edirsiniz. Vətən Müharibədi Qəhrəmanı kimi məsuliyyətiniz ikiqat böyükdür.***

– Layiq görüldüyüm şərəfli adın öhdəliyi çoxdur. Mən xidmətim boyu çalışmışam ki, tapşırığı layiqincə yerinə yetirim. Məsuliyyət insanın özünün-özünə tapşırığıdır. Bu mərkəzə rəis təyin olunmamışdan əvvəl Heydər Əliyev adına Hərbi İnstitutda rəis müavini işləyirdim. Gələcəyimiz olan zabitlərin təlim - tərbiyəsi və tədrisi ilə məşğul olurduq.Müasir Azərbaycan Ordusunun zabitlərini peşəkar hazırlamaq üçün bütün imkanlardan yararlanırdıq.

Hazırda burada ehtiyat zabitləri yetişdiririk. Onlara ixtisas kursları keçirik. Gizirlər üçün də kurslar fəaliyyət göstərir. Hərbi qulluqçuları digər ixtisaslar üzrə də hazırlayırıq. Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülovun rəhbərliyi altında təhsil istiqamətində işlərimizi daha da təkmilləşdiririk. Müddətdən artıq hərbi xidmət keçənlər üçün də kurslarımız var.

Vaxtılə Təlim-Tədris Mərkəzində dərs deyirdim. Hazırda işlərin çox olmasına baxmayaraq, bəzi dərslərdə iştirak edirəm. Bütün növ silahlarla bağlı məşğələlərə də nəzarət edirəm. Bildiklərimi öyrətmək istəyirəm ki, bizim davamçılarımız peşəkar hərbçi olsunlar. Çalışıram ki, Azərbaycan Ordusunun milli kadr bazasının daha da gücləndirilməsində bu mərkəzin rolu artsın. Sonda bir daha şəhidlərimizin ruhu və onların ailələri qarşısında baş əyirəm. Mən bu Vətənin, şair demiş “müsəlləh” əsgəriyəm.

***– Sizə Vətənimiz və dövlətimizin əmin-amanlığı naminə xidməti işinizdə uğurlar arzulayırıq.***

***Kəmalə ABDİNOVA***
***XQ***

## Qədim yurd yerlərimiz

# ...Yol gedir Ordubada

## Burda tarixlərin çox nişanı var

**Ordubad əsrlərdən üzü bəri maraqlı yurd yeri olub. Tarixi çox qədimlərə gedib çıxır. Dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən bu şəhərin bol sulu çeşmələri, barlı-bərəkətli meyvə bağları, mehriban insanları həmişə bura gələn səyyahlar üçün əməlli-başlı mövzu olub.**

Ötən əsrin məşhur səyyahı Hacı Zeynalabdin Şirvani "Bustanüs-səyahə" kitabında yazır: "Ordubad ürəkaçan gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir".

Başı göylərə çatan çinarlar bu qədim şəhərin tarixinə əsrlərdir, şahidlik edir. XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefodov adlı səyyah yazıb: "Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir".

XIX əsrdə polyak tədqiqatçısı A.Petzold, fransız yazıçısı A.Düma və başqaları öz yazılarında bu gözəlliyi vəsf edib, Ordubad çinarlarının möhtəşəm vüqarına heyran qaldıqlarını bildiriblər. Arxeoloji qazıntılar zamanı əldə olunmuş abidələr Ordubadın tarixinin 7 min il əvvələ söykəndiyini göstərir. Müxtəlif dövrlərdə burada aparılmış tədqiqatlar şəhərin zəngin mədəniyyətə malik olduğundan xəbər verir.

Bu yurd yeri məşhur ipəyinə və burada yetişdirilən meyvələrinə görə də tanınıb. Belə ki, Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısından etibarən avropalıların məişətində əvəzedilməz parça kimi tanınıb. 1875-ci ildə şəhərdə buxar mühərriki ilə işləyən ipəksarıma fabriki olub. 1886-cı ildə ipək istehsal edən 4 iri ipəksarıma müəssisəsi fəaliyyət göstərib.

Ordubad şəhəri XIX əsrin ikinci yarısı, 1920-ci illərin əvvəllərində Rusiya bazarlarını da yüksəkkeyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə ilə təchiz edən mühüm mərkəzlərdən olub. Avropatipli baramaaçan fabriklərin tikilməsinə burada 1870-ci ildə başlanılıb. Nəhayət, 1928-1929-cu illərdə 12 kiçik ipək fabriki birləşdirilərək Ordubad İpək Kombinatı yaradılıb. Əsrlər boyu Ordubad ipəyi gözəlliyi və keyfiyyəti ilə ad qazanaraq beynəlxalq festivallarda mükafatlara layiq görülüb.

Qoca Şərqin ənənəvi şəhərlərindən fərqli olaraq, Ordubad həm də şəhər infrastrukturu baxımından cəlbedicidir. Aydın məsələdir ki, su olmayan yerdə həyat da olmaz. Ancaq su olan yerdə həyatın daha gözəl olmasını bu şəhərin sakinləri hələ qədimdən anlayıblar. Tarixçilərə görə, qədimlərdə Ordubad şəhərində yüzdən çox çeşmə olub. Elə təkcə XVII əsrdə yaşamış tarixçi Məhəmməd Müfid Mustafa Ordubad şəhərində 70-dən çox çeşmənin olduğunu bildirir.

Bu kəhrizlərin inşası zamanı mühəndislik prinsiplərinə düzgün əməl olunub. Kəhrizlərin həm qidalanma zonalarında, həm də sudan istifadə yerlərində yüksək



sanitariya mədəniyyəti normalarına riayət edilib. Kəhriz quyuları elə etibarlı yerlərdə mühafizə olunub ki, oraya heç bir yerüstü lil və ya çöküntülər daxil ola bilmir. Kəhrizlərin yer səthindən 3-10 metr dərinlikdə



yerləşdirilməsi, şəhərdə kanalizasiya qurğularının mövcudluğu, hamamlar burada qədim şəhər mədəniyyətini təsdiq edən faktlardır.

Son dövrlərdə onlarla belə kəhriz yenidən bərpa olunaraq əhalinin istifadəsinə verilib. Keçmişdə yeraltı suların çəkilişi zamanı, əsasən, saxsı borulardan istifadə olunub ki, bu da suyun həm ekoloji baxımdan təmizliyinin saxlanılmasına, həm də sərin olmasına imkan verib. Eyni zamanda, hər kəhrizin suyu əhalinin təsərrüfat sayına görə bölünüb. Beləliklə, saxsı borular şəhərin alt hissəsində labirint kimi dolanaraq əhalinin suya olan tələbatını ödəyib.

Ordubad sirli bir aləmdir. Bu aləmdə tarix də var, mədəniyyət də, milli köklərə bağlı özünəməxsusluq da. Şəhərdə keçmişin xatirələrini özündə yaşadan "Cümə" məscidi, "Qeysəriyyə" tarixi abidəsi, Buzxana binası, XVIII-XIX əsrlərə aid məscidlər var. Şəhərin mərkəzində yerləşən "Cümə" məscidi qədim memarlıq abidəsi kimi indi də bura gələnləri heyrətə salır. Onun 1275-ci ildə tikildiyi qeyd olunub. Lakin 1903-cü ildə məscid təmir edilərkən tapılmış bir kərpicin üzərində "III tarixi-hicri Ər-Rəşid" sözləri onun yaşını 500 il də artırır.

Məscidin giriş qapısına vurulmuş lövhədə 1607-ci ildə Şah Abbasın verdiyi xüsusi fərmanın mətni yazılıb: "Ordubadlılar əməksevər, qoçaq və işgüzar adamlardır. Nəsiri Tusinin yüksək nəslinin burada davamı üçün adıçəkilən qəsəbənin əhalisi bütün vergilərdən azad edilir". Yeri gəlmişkən, "Cümə" məscidinin qarşısındakı qəbirlərdən biri Tusinin nəvələrindən olan Mirzə Ünayət Nəsiri Tusinin qızı Şərəf xanımın qəbridir.

XVI-XVII əsrlərə aid ikimərtəbəli mədrəsə binası isə orta əsrlərdə dinin, elmin inkişafında mühüm rol oynayıb. Bu mədrəsədə vaxtilə təkcə dini deyil, dünyəvi elmlər də tədris olunub. Nadir şahın dövründə mədrəsədə zamanın tələbinə uyğun olaraq memarlar, hərbçi mütəxəssislər yetişdirilib. Hətta bu hərbçi mütəxəssislərdən bir çoxu sonralar Nadir şahın qoşununda xidmətə cəlb edilərək şahın 1739-cu ildə Hindistana yürüşündə də iştirak ediblər.

Ordubad həm də maraqlı şəhər infrastrukturuna malikdir. Bu şəhər, əsasən, 5 böyük məhəllədən ibarətdir. Bu məhəllələr "Ambaras", "Kürdatal", "Üçtürləngə", "Mingis" ("Minkəs") və "Sərşəhər" ("Şəşəri") adlanır. Bundan başqa, həmin məhəllələrə nisbətən kiçik məhəllələr də var ki, bu məhəllələrə "Bəylər", "Qoşqar", "Qaraçanaq", "Dilbər", "Əngəş", "Əsgərxan", "Varsan", "Körpübaşı", "Düz", "Musa təngi" və sairi misal göstərmək olar.

Əsas məhəllələrin hər birinin öz böyük məscidi var ki, bu məscidlərin də ümumi sayı beşdir. Sonralar məhəllədaxili kiçik məscidlər də tikilib. Ancaq məscidlərin heç birinin minarəsi yoxdur. Minarəni məscidin damında yerləşən səki əvəz edir. Oraya isə kiçik pilləkənlərlə qalxmaq mümkündür. O ki qaldı məscidlərdə minarələrin olmamasına, bunun da səbəbi ondan ibarətdir ki, Ordubad şəhərinin yerləşdiyi coğrafi ərazi düzənlik deyil.

Şəhər yuxarıdan aşağıya doğru maili şəkildə yerləşib. Bu isə səsin yuxarıdan



aşağıya doğru maneəsiz yayılmasına imkan verir. Buna görə də Ordubaddakı məscidlərdə minarələrin tikilməsinə ehtiyac olmayıb. Ənənəvi olaraq, əsas məhəllələrdəki hər məscidin qarşısında çeşmə və çinar ağaclarının olmasına da xüsusi diqqət yetirilib. Şəhərin əsas böyük meydanında (həm keçmişdə, həm də indi şəhər sakinlərinin ən çox toplaşdığı meydanda) yaşı yüzillərə dayanan 5 böyük çinar ağacının olması da təsadüfi deyil.

Eyni zamanda nəzərə alaq ki, şəhərin planında da beş istiqamət nəzərə çarpır. Belə ki, şimaldan Yuxarı Əylis kəndinə, şimal-şərqdən Gənzə kəndinə (Gənzə çayından keçməklə), şərqdən qədim qəbiristanlığa, cənubdan Təbriz şəhərinə, cənub-qərbdən Naxçıvan şəhərinə uzanan istiqamətlər aydın seçilir. Ordubadlı şərqşünas Cabir Cabbarovun dediyinə görə, türk-islam mədəniyyətinin inkişafına böyük töhfələr vermiş Ordubadda beş əsas böyük məhəllə, beş böyük məscid, əsas meydandakı beş uca çinar və beş istiqamət böyük İslam Peyğəmbəri və dörd xəlifənin timsalında rəmzi sayı əks etdirir.

Ordubadın qədim küçələrində diqqətçəkən elementlərdən biri də keçmişdə şəhərdə tikilmiş evlərin bir çoxunun divarlarında ağac dirəklərindən istifadə olunmasıdır. Həmsöhbətimiz bildirir ki, evin və ya hər hansı bir tikilinin hörgüsü zamanı istifadə olunmuş bu ağacın adına "qətlə" deyirlər.

Sərt qələmə dirəklərindən bölünərək hazırlanmış bu qətlələri evin həm eninə, həm də uzununa olan divarlarında istifadə ediblər. Belə ki, yerdən, təxminən, bir metr hündürlükdə, daha sonra isə iki metr və ya daha çox hündürlüklərdə qətlələr divar boyu uzadılmış şəkildə qoyulub. Ordubad şəhəri aktiv seysmik zonada yerləşdiyinə görə buradakı evlərin zəlzələyə qarşı davamlı-lığı qətlələrlə təmin olunub ki, bu da güclü titrəyişlər zamanı tikilinin ağırlığını sabit şəkildə saxlamağa öz mühəndislik töhfəsini verib.

Qədim Ordubad maraqlı, eyni zamanda, sirli aurası ilə bu gün də bura yolu düşən hər kəsi heyrətləndirir. Şəhər o qədər ecazkardır ki, hər dəfə burada olanda yeni bir aləmlə qarşılaşırsan. Elə buna görə də Ordubad 1977-ci ildə qoruq şəhər elan olunub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev buranı "Azərbaycanın incisi" adlandırıb.

Təsadüfi deyil ki, "…Azərbaycanın tarixi və mədəni irsinin nadir nümunələrindən olan Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə…" ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə ötən il Ordubad Tarix-Memarlıq Qoruğunun ərazisi "Ordubad" dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib. Artıq bu istiqamətdə lazımi işlərin görülməsinə başlanılıb.

Düşünürük ki, qədimlik və müasirliyin simasını bizə eyni güzgüdə göstərməyi bacaran Ordubad təkcə muxtar respublikanın və ya ölkəmizin deyil, ümumilikdə, qədim Şərqin möhtəşəm şəhərlərindən biridir. Bütün bu parametrlərinə görə Ordubad, həm də ölkəmizin turizm potensialının təbliğində böyük rola malikdir.

---



## Vergi ödəyicilərinə xidmət yüksəlir

**Bu ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət mərkəzlərində, ümumilikdə, 5 min 550 şəxs qəbul edilib.**

Adı çəkilən qurumun məlumatıan görə, mərkəzlərdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələrin təqdim olunması, cari vergi ödəmələri və s. məsələlərlə bağlı 8 min 228 (ötən ilin eyni dövrü ilə müqayisədə 78,1 faiz çox) xidmət göstərilib. Ümumi xidmətlərin 95 faizini 10 xidmət növü (şifahi və hazır sənədlərin verilməsi ilə bağlı xidmətlər istisna olmaqla) təşkil edib.

Yanvar ayında vergi ödəyicilərinə 177 min 774 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Ay ərzində vergi ödəyiciləri ilə 6 görüş keçirilib, 43 sayda ünvanlı xidmət göstərilib.

## Özəl bölmə genişlənir

**Muxtar respublikada biznes mühiti sürətlə inkişaf edir. Bu, yeni vergi ödəyicilərinin sayında da özünü göstərir. Belə ki, 2023-cü ildə muxtar respublikada 6263 yeni Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi qeydiyyata alınıbsa, 2024-cü ildə həmin göstərici 6 min 682-yə çatıb. Bu isə əvvəlki illə müqayisədə 419 yeni VÖEN və ya 6,7 faiz artım deməkdir.**



Vergi ödəyicilərinin sayının artması Naxçıvanda iqtisadi fəallığın yüksəldiyini göstərir. Xüsusilə kiçik və orta biznesin inkişafına yönələn tədbirlər, sahibkarlara verilən güzəştlər və dövlət dəstəyi bu artımda mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, muxtar respublikada ticarət, kənd təsərrüfatı, xidmət və istehsalat sahələrində yeni sahibkarlıq subyektlərinin yaranması ümumi iqtisadi inkişafın göstəricilərindən biridir. Bunun nəticəsi olaraq qeyri–dövlət sektorunda bağlanmış əmək müqavilələrinin sayında 1 yanvar 2025-ci il tarıxinə əvvəlki dövrlə müqaisədə 72,8 faiz artım qeydə alınıb ki, bu da əvvəlki ilə nisbətən yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyət kəsb edir.

2023-cü illə müqayisədə qeydiyyatda olan VÖEN-lərin sayı 32,3 faiz, fəal VÖEN-lərin sayı 71,4 faiz, fəal obyektlərin sayı isə 19,7 faiz artıb.

Bu dinamika Naxçıvanda biznes mühitinin yaxşılaşdığını və sahibkarlıq fəaliyyətinin genişləndiyini göstərir. Yeni açılan müəssisələr və artan vergi ödəyiciləri həm məşğulluğun artmasına, həm də əhalinin rifah halının yüksəlməsinə öz təsirini göstərir.

## Sənaye istehsalı artıb

**Ötən dövrdə aparılmış məqsədyönlü tədbirlərin nəticəsində muxtar respublikada müxtəlif sənaye müəssisələri yaradılıb, yerli xammaldan istefadə nəzərə alınmaqla yeni istehsal müəssisələrinin fəaliyyəti təşviq olunub. Əsasən mövcud sənaye imkanlarından yararlanmaqla həyata keçirilən istehsal prosesi bu sahədə məhsul istehsalının həcminin artımına da öz müsbət təsir göstərib.**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bu ilin yanvar ayında muxtar respublikada 37 milyon 797 min 400 manatlıq sənaye məhsulu istehsal edilib. Bu, 2024-cü ilin müvafiq dövründəki göstəricidən 4,5 faiz çoxdur. Sənaye məhsulunun 29 milyon 62 min 600 manatı və ya 76,9 faizi malların, 8 milyon 734 min 800 manatı və ya 23,1 faizi isə xidmətlərin payına düşüb. Sənaye məhsulunun 0,2 faizi mədənçıxarma, 73,2 faizi emal, 25,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bö-



lüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşür.

Muxtar respublikanın ümumi daxili məhsul istehsalında sənayenin mühüm payı malik olduğunu nəzərə alsaq, burada da artımı müşahidə etmək mümkündür. Belə ki, komitənin verdiyi məlumata görə, 2025-ci ilin yanvar ayında muxtar respublikada ÜDM istehsalı 105 milyon 857 min 700 manat olub. Bu isə 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Hesabat ayında əhalinin hər nəfərinə düşən ÜDM istehsalı isə 1,7 faiz artaraq 224,8 manat olub.

Onu da qeyd edək ki, bu gün muxtar respublika iqtisadiyyatının şaxələndirilməsində sənaye sektoru əhəmiyyətli rol oynayır və müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması bu sahənin gələcəkdə daha da inkişaf etdirilməsinə təkan verəcək.

*Səhifəni hazırladı:*
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

Azərbaycan milli mətbuatı – 150

# Milli radionun təşəkkülü və inkişaf mərhələləri



I MƏQALƏ

**Azərbaycanda radio verilişləri rəsmi şəkildə 1926-cı il noyabr ayının 6-da başlayıb və bu tarix milli radiomuzun təşəkkül günü sayılır. Lakin ölkəmizdə radio texnikasından ilk istifadə 1918-ci ilin yayında Gəncə şəhərində olub.**

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də Tiflisdə elan ediləndən az sonra milli hökumət Gəncəyə köçüb. Həmin dövrdə Bakı daşnak, bolşevik, sentrokaspi quldurlarının və ingilis işğalçılarının əlində idi. 1918-ci il sentyabr ayının 15-də Türk islam ordusunun köməkliyi ilə Bakı düşmənlərdən azad edildi. Bununla AXC rəhbərliyi Bakıya köçürüldü. Cümhuriyyətin qurucuları AXC elan ediləndən sonra Gəncədə radiostansiya yaradıblar. Bu radiostansiya rabitə məqsədilə işləyirdi və milli dövlətimizin çətin siyasi proseslərini istiqamətləndirmək üçün çox səmərəli texniki vasitə idi.

Milli dövlətimizin qurucu liderləri kövrək addımlarını atan AXC-nin qabaqcıl Avropa ölkələri ilə ciddi siyasi, iqtisadi, mədəni, müxtəlif kommunikasıyalarla bağlı əlaqələr yaratmağa can atırdılar. Xüsusilə özünün iqtisadi yüksəlişi və beynəlxalq aləmdəki nüfuzuna görə öndə olan Fransa hökuməti ilə əlaqələr qurmağa inamla və fədakarlıqla cəhd göstərirdilər. Nəhayət, ciddi cəhdlərdən sonra 1919-cu ilin payızında (oktyabr ayının ortalarında) Fransa hərbi missiyasının nümayəndələri müstəqil Azərbaycana gəldilər. Onlarla birlikdə Fransa Respublikasının sənaye və ticarət nazirliklərinin nümayəndələri də Bakıya təşrif buyurmuşdular.

Qonaqların arasında teleofon və teleqraf kompaniyasının məsul rəhbərləri də var idi. Fransalı peşəkarlar Azərbaycan Respublikasını Avropa radiostansiyasına qoşmaq üçün fəaliyyətə başladılar. Həmin dövrdə Avropa radiostansiyası Parisin mərkəzində ucalan, hündürlüyü 300 metr olan əzəmətli Eyfel qülləsində qurulmuşdu. Mühəndis və memarları Qustav Eyfel, Stefan Sovestr, Emil Nuqye, Moris Köxlendir idi.

1919-cu ildə AXC-nin rəsmi nümayəndələri, başda Əlimərdan bəy Topçubaşov olmaqla, Parisdə işgüzar səfərdə idilər. Fransız firması və mütəxəssisləri onlarla rəsmi danışıqlardan sonra Bakıya ilk mərhələ üçün vacib olan avadanlıq göndərmişdilər, quraşdırma işlərini də fransızlar özləri görürdülər. Həmin ilin noyabr ayında Topçubaşov Eyfel qülləsindəki radiostansiyadan AXC hökumətinin rəhbəri Fətəli xan Xoyskiyə Gəncədəki radiostansiyaya birbaşa xətlə teleqram göndərmişdi. O, teleqramda həm hökuməti, həm də bütün Azərbaycan xalqını radiostansiyanın fəaliyyətə başlaması münasibətlə təbrik edir, xoş arzularını bildirirdi.

1919-cu ildə Topçubaşov Ümumdünya Poçt İttifaqına üzv olmaq üçün cəhd göstərdi. O, iqamətgahı İsveçrənin Bern şəhərində yerləşən Beynəlxaq Büroya diləkcə məktubu vasitəsilə müraciət etmişdi. Təəssüflər olsun ki, Qafqazda, bütün Rusiyada, eləcə də Azərbaycana havadarlıq etmək istəyən Türkiyədə yaranan mürəkkəb hərbi-siyasi gərginlik şəraitində bolşeviklərin qırmızı ordusunun Azərbaycanı ilhaq etməsi fəaliyyət prosesini dayandırdı və 28 aprel 1920-ci ildə AXC süquta uğradı.

Siyasi hakimiyyət dəyişdiyi üçün radio sistemini qurmaq sahəsində başlanmış və görülən uğurlu işlər dayandırıldı. 3 ildən sonra, 1923-cü ilin noyabr ayında SSRİ Xalq Komissarları Soveti "Xüsusi təyinatlı radiostansiyalar" haqqında qərar qəbul etdi. Azərbaycanda da bu istiqamətdə geniş tədbirlər planı hazırlanıb işlər görülməyə başlanıldı. Bu məqsədlə Bakıda AHİŞ-in nəzdində Radio bürosu yaradıldı və bu qurum ölkə ziyalılarının köməkliyi ilə kiçik sınaq verilişləri hazırlamaqla, müəyyən mənada milli radionun ilk kərpiclərini qoydular.

1924-cü il noyabr ayının 22-də Bakıda Radionun Dostları Cəmiyyəti yaradıldı. Bununla da Azərbaycanda radio yayımını təşkil etmək istiqamətində fəal işlər görülməyə başlandı. Bu işin icrası Azərbaycan Həmkarlar İttifaqı Şurasına həvalə edildi. Radio həvəskarları işini planlaşdırmaq, radio həvəskarları dərnəklərini yaratmaq, onların fəaliyyətlərini əlaqələndirmək üçün Radio bürosu ciddi işlər görürdüı.

Dövrün tələblərinə cavab verən radiostansiya qurulmasını həyata keçirmək üçün vaxtilə Gəncədə qurulmuş radiostansiya texnikasına müraciət olundu. Həmin texniki qurğu AXC-nin hərbi naziri olmuş, general Səməd bəy Mehmandarovun sayəsində Bakıya gətirilmişdi və onu özü hər cür şər qüvvələrin xəyanətindən qoruyub saxlamışdı. Xəzər Hərbi Dəniz Donanmasının Bayılda qurduğu kiçik radiostansiya ilə müəyyən vaxtlarda Moskva radiosunun verilişlərini dinləmək imkanı yaratdı.

Xalq Komissarları Sovetinin 1925-ci il aprelini 22-də keçirilən iclasında Bakıda Respublika ərazisinə xidmət göstərmək məqsədi ilə radio verilişləri stansiyası tikmək qərara alındı. Onun yayım dairəsi 600 kilometri əhatə etməli idi. Bu stansiya vasitəsi ilə bütün Respublikanı əhatə etmək qarşıya məqsəd qoyulmuşdu. Görüləcək işlərə nəzarət üçün xüsusi komissiya yaradılmışdı.

Dekabrın 16-da Xalq Komissarları Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin birgə iclasında Azərbaycanda radio verilişləri istiqamətində görülən işlərin vəziyyəti geniş və ciddi şəkildə müzakirə olundu. Bununla da konkret əməli tədbirlər görülməsinə rəvac verildi. Yeni tikilən stansiyanın tam istifadəyə verilməsi ərəfəsində bir neçə sınaq verilişi səsləndi. Komissiya səslənməni qənaətbəxş qiymətləndirdi.

Azərbaycan radiosu 1926-cı il noyabrın 6-da "Danışır Bakı" sözləri ilə bugünkü İstiqlaliyyət küçəsi, 10 ünvanda yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının binasından (milyonçu Ağa Musa Nağıyevin tikdirdiyi "İsmailiyyə" binası) ilk dəfə efirə çıxdı. İlk günlər Bakı studiyası öz verilişlərini 1 saat ərzində yayımlayırdı. Bir neçə aydan sonra efir yayımı 3 saata çatdırıldı. Paytaxtın əhalisinin gur olduğu bir neçə məkanda radio reproduktorları quraşdırılmışdı. Onlardan biri də Bakı Sovetinin binası ilə üzbəüz tikilinin divarından asılmışdı.

Qısa müddətdə Bakı əhalisi verilişlərin səslənmə saatlarını bildikləri üçün kütləvi şəkildə radio reproduktorlarının qarşısına toplaşırdılar. Bakı Sovetinin qarşısında camaatın gurluğu daha çox hiss olunurdu. Xüsusilə canlı konsertlərin verildiyi günorta saatlarında, nahar fasiləsi vaxtı dinləyicilərin sayı qat-qat artırdı. Bu dinləmələr həmişə bayram ovqatında olurdu və sakitliyə yüksək dərəcədə əməl edilirdi.

Proqramlar zəif sayılan RV-47 stansiyası vasitəsi ilə yayımlanırdı. Studiyadan kənar 1 saatlıq veriliş yaymaq üçün 3 gün hazırlıq görülürdü. Studiyada rəsmi partiya qəzetlərinin baş məqalələri Azərbaycan türkcəsində və rus dilində diktorlar tərəfindən oxunurdu. Siyasi, ictimai xəbərlər səslənir, xanəndələr oxuyur, şairlər siyasi həyatı, yeni quruluşu vəsf edən, həmçinin təbiət, vətən mövzularında öz şeirlərini oxuyurdular.

Ədəbiyyat və incəsənət yenilikləri də radioda öz əksini tapırdı. Xalqımızın ədəbi dilinin qorunması, inkişaf etdirilməsi, təhsil probleminin diqqətdə saxlanması radionun ali məqsədlərindən biri idi. Həftədə bir dəfə, axşam saat 9-da ölkəmizin şair və nasirləri mikrafon qarşısında xalqa müraciət edir, şeirlər oxuyur, müəyyən siyasi-ədəbi hadisələrə qısaca fikir bildirirdilər. Dinləyicilər bu verilişə böyük maraq göstərir, hətta küçələrdə quraşdırılmış səsgücləndiricilər qarşısında onların çıxışlarına alovlu alqışlarla özlərinin minnətdarlıq hisslərini bəyan edirdilər.

Bakı studiyasının ilk diktoru Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov olub. O özü vaxtilə yazdığı xatirələdində bunu belə qeyd edib: "Heç mənim yuxuma da girməzdi ki, doğulduğum Ağdaş rayonundan Bakıya gəlib Politexnik İnstitutunda oxuyanda radio ilə də əməkdaşlıq edəcəm. Amma Tanrının köməyi ilə mənə belə bir xoşbəxtlik nəsib oldu. Günlərin bir günü institut komsomol təşkilatının katibi Məmmədismayıl Axundov məni yanına çağırıb yeni radio idarəsi yaradıldığını və ora bir nəfər savadlı adam lazım olduğunu xəbər verdi. "Orada axşam işləyərsən, gündüz də oxuyarsan", – dedi.

O gün çox düşündüm, çox götür-qoy etdim. Savadıma güvənirdim. Amma radio haqqında orta məktəbdə fizika dərslərində keçdiyimiz ibtidai məlumatdan başqa heç bir şey bilmirdim. Ona görə də bu idarədə işin öhdəsindən gələ biləcəyim barədə tərəddüd edirdim. Nəhayət, qəti qərara gəldim. Sabahı günü gedib bu idarəni tapdım. Bura Kommunist küçəsində, indiki Azərbaycan Elmlər Akademiyasının əsas binasının üçüncü mərtəbəsində, sol guşədə yerləşən üç otaqdan ibarət kiçik bir idarə idi".

İsmayıl Əlibəyovun xatirələrindən məlum olur ki, birinci otaqda bütün divar boyu böyük lampalarla təchiz olunmuş aparatlar qoyulmuşdu. Bu, şəhər translyasiya şəbəkəsinin mərkəzi məntəqəsi idi. Aparatları bir nəfər növbətçi texnik idarə edirdi. İkinci otaq studiyaya giriş otağı idi. Efirə çıxmaq üçün dəvət olunanlar studiyaya keçməzdən əvvəl öz növbələrini gözləyirdilər. Bundan sol tərəfdə kiçik bir kabinə var idi. Bu kabinədən studiyanın içərisini görmək və nəzarət etmək üçün bir pəncərə açılmışdı.

Pəncərənin qarşısında adi bir çemodanın içində qurulan aparat bir tərəfdən studiyanın mikrofonunu, digər tərəfdən isə nəqledici xətti birləşdirirdi. Bu aparatı bir nəfər texnik idarə edirdi. Onun adı İzrail Qotlib idi. Beləliklə, studiyanın mikrofon səsi bu aparatda təsvir edilir və nəqledici xəttin vasitəsilə indiki Respublika stadionunun yaxınlığındakı radio stansiyasına verilir və oradan da efirə yayılırdı.

**(ardı var)**

***İlham RƏHİMLİ,***
***sənətşünaslıq doktoru, professor,***
***Əməkdar incəsənət xadimi***

Gəlimli-gedimli dünya

# Əlvan rənglərin əbədiyyəti

**Məryəm Ələkbərli Azərbaycanda və xaricdə gənc rəssam kimi məşhurlaşmışdı. Ötən həftə 33 yaşında dünyadan köçən qeyri-adi istedadlı bu xanımın əsərləri dünyanın bir çox ölkəsində nümayiş etdirilib.**



Məndən 1 yaş yarım böyük olan bacım vardı, adı Məryəm idi. O da 33 yaşında dünyasını dəyişib, özü də, təxminən, 33 il əvvəl… İstər-istəməz numerologiya ilə maraqlananda gördüm ki, 33 rəqəminin öz mənəvi və enerjili önəmi var, xüsusi diqqət və anlayış tələb edən mənəvi vibrasiya nömrəsidir. Bu rəqəm yüksək yaradıcılıq səviyyəsini, harmoniya və tarazlıq qabiliyyətini, mənəvi iman və maarifləndirmə gücünü simvollaşdıra bilər. Yüksək mənəvi şüur və ilham sayı kimi də qəbul edilir. Adına 33 nömrəli mələk də deyirlər. Düşünürəm ki, bəlkə, buna görə mələklər Məryəmləri qanadlarına alıb aparıblar…

Məryəm Ələkbərlinin kiçik yaşlarından musiqi və rəssamlıqla maraqlanıb. Bakıda incəsənət sahəsində ilk addımlarını atıb, təhsilini Moskvada davam etdirib. İstedadlı, gənc rəssam Paris Dekorativ ali məktəbinə, sonra İncəsənət ali məktəbinə üz tutub. Onun əsərlərində Matis, Qogen, Sezan kimi böyük rəssamların da təsiri vardı, amma bundan yaradıcı şəkildə bəhrələnə bilirdi.

Təsadüfi deyil ki, incəsənət tarixçiləri Məryəmin Parisdə təhsil alsa da, əsərlərində hiss olunan ekspressionizm və ruhun doğma vətənindən gəldiyini vurğulayıblar.

Təxminən 10 il əvvəl "Azərbaycanfilm" kinostudiyasında onun haqqında Xalq yazıçısı Elçinin ssenarisi əsasında "Məryəm" bədii-sənədli filmi çəkilib. Maraqlıdır ki, Məryəm Ələkbərli özü həmin filmin quruluşçu rəssamı olub.



Dünən Elçin müəllimə zəng edib Məryəm haqqında fikrini soruşduq.

– Təbiət Məryəmi elə yaratmışdı ki, onun ömrü adi insanların ömrü kimi uzun olmayacaqdı, – dedi. – Çünki Məryəm adi insan deyildi, o adi insanlardan uzaqlıqda və ucalıqda idi… Məryəm orada, o ucalıqda gördüklərini çəkirdi, oradakı sevincini bizlə bölüşürdü, arzularını bildirirdi və onun çəkdiyi güllər də, ağaclar da, dağlar, dalğalar da adi deyildi…

Artıq Novruz bayramına az qalıb və Məryəm bu növbəti Novruzu görməyəcək, ancaq onun çəkdiyi "Novruz" həmişə bizimlə qalacaq… Məryəm bir meteor sürəti ilə, Azərbaycan rəngkarlıq sənətinə daxil oldu və o zaman mən onun əsərlərinin sirli-sehirli təəssüratı altında 2006-cı və 2011-ci ildə "Məryəmin missiyası" adlı iki esse yazmışdım… Məryəm bu dünyadakı missiyasını yerinə yetirdi və birdən-birə də uçub getdi…

Nakam rəssamın "Yallı", "Qobustan", "Azərbaycan muğamı" silsilə tabloları onun necə nusiqi duyumlu rəssam olduğunu göstərir. Onun hələ 10 il əvvəl Bakıda açılmış fərdi sərgisində sənət adamları heyranlıqla iştirak edib, ürək sözlərini söyləyiblər.

Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarov: "Məryəmin rəsmləri heyrət doğurur. Bu gənc rəssamda sərbəstlik, müstəqillik və sənətkarlıq xüsusiyyətləri cəmləşmişdir. Bu, çox mürəkkəb məsələdir. İstedadlı gənc rəssam olmaq, hissləri, emosiyaları yetkin sənətkar səviyyəsində ifadə etmək mənim üçün, həqiqətən, çox gözlənilməzdir".

Xalq artisti, kinorejissor, mərhum Eldar Quliyev: "Məryəm Ələkbərli istedadlı gənc rəssamdır. Onun əsərləri, demək olar ki, bütün Avropanı gəzmişdir. Mən onun əsərlərinə həm peşəkarların, həm də adi tamaşaçıların münasibətinin şahidi olmuşam. Bu heyrətamiz insan öz xeyirxah daxili dünyasını əlvan rənglərin dili ilə ifadə edir".

"YARAT!" Müasir İncəsənət Məkanının rəhbəri, tanınmış rəssam Aida Mahmudova: "Bizim açdığımız sərgidə Məryəm Ələkbərlinin əsərlərinin Müasir İncəsənət Muzeyi tərəfindən nəşr olunmuş yeni kataloqu da təqdim edilmişdir. Məryəmin əsərlərində çox güclü müsbət enerji var. Çoxsaylı elementləri özündə cəmləşdirən bu işlər güclü emosiyalar doğurur".

Məryəm Ekzüperinin "Kiçik şahzadə"sinə həsr olunmuş bir sıra rəsmlər çəkib və bu əsasda musiqili cizgi filmi də ərsəyə gətirilib. Parlaq rənglərlə canlı modelləri və ya natürmortları kətan üzərinə köçürən gənc rəssam naturanı təfsirlə əsərinin ruhuna tabe edirdi. Bununla da rəssamlıqda öz dəst-xəttini yazırdı. Tonların harmoniyasını incəliklə yaradır və bu da onun rəng seçimindəki yüksək duyumundan və peşəkarlığından xəbər verirdi. Rəssamlar özləri bəzən onun rəng seçiminin ilahi vergi olduğunu söyləyiblər.

Məşhur rus sənətşünası Olqa Sviblova onun haqqında yazmışdı: "Məryəm sənətdə yaşayır, özünü onun vasitəsi ilə kəşf edir və dünya ilə ünsiyyət qurmağın əsas yoluna çevirir. Bəlkə də, buna görə onun bədii mesajı çox güclü və heyrətamizdir".

Böyük fırça ustası Tahir Salahov Məryəmin heç kimə bənzəmədən unikal rəssam kimi xarakterizə edib. Onun Qobustana həsr olunmuş əsərlərinə heyran qaldığını bildirmişdi.

Həftəlik "France Dimanche" jurnalında Məryəm Ələkbərlinin haqqında məqalə dərc edilib və incəsənət tarixçisi Janet Zvinjenberjer onun sərgilərinin dünyanın bir çox ölkələrində təşkil olunduğundan, əsərlərinin məziyyətlərindən söhbət açıb. O, azərbaycanlı gənc rəssamın öz daxili aləmini və hisslərinin dialoqunu rənglərin dili ilə gözəl ifadə etdiyini vurğulayıb, kompozisiya istedadına heyran qaldığını bildirib.

...Təəssüf ki, rəngləri incəliklə seçən, seyrçiləri ağ kətan üzərində sehrli aləmə qovuşduran Məryəmin özünü axırda bir rəng seçdi – qara. Həm də çox tez seçdi.

Rəssam dünyanı erkən tərk etdi. Onun əsərləri qaldı və sənətsevərlər o rəsmlərdən güc alırlar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Zəlimxan Yaqub poeziyası "Ulduzlar" aləmində



**65 ildən bəri fəaliyyət göstərən Murad Qudyalçaylı adına "Ulduzlar" ədəbi məclisinin budəfəki toplantısı mərhum Xalq şairi Zəlimxan Yaqubun xatirəsinə həsr edilmişdi. Məclisin sədri Fərzalı Ziyanurun aparıcılığı ilə keçirilən tədbirdə "Ulduzlar"ın üzvləri ilə yanaşı, rayonun tanınmış ziyalısı, ictimai xadim, Zəlimxan Yaqubun ailə dostu olmuş Abdulla Didarov da iştirak edirdi.**

A.Didarov Azərbaycanın və türk dünyasının dəyərli söz ustadı, böyük Turançı Zəlimxan Yaqubla bağlı xatirələrini bölüşdü. O, şairin zəngin ədəbi irsindən söz açdı, onun şeirlərindən parçalar səsləndirdi. A.Didarovun Zəlimxan Yaqubla şəxsi görüşləri, onun şirin zarafatları, hətta xəstə yatağında olduğu zaman qıvraqlığını qoruyub saxladığı barədə isti xatirələri xoş təəssürat buraxdı.

Sonra tanınmış şair, fəlsəfə doktoru Gülümbala Nəsirli həm Zəlimxan Yaqubla bağlı ürək sözlərini bölüşdü və yeni şeirlərini oxudu. "Ulduzlar"ın üzvləri – filoloq Tahir Musayev, Mehparə Sadıqova, Rübabə Mustafayeva, Pakizə Zalova və Gözəl Azayeva, şair-rəssam Qərib Aşkari və qəzəlxan Mövlan Şahid, eləcə də Cümşud Aydəmir, Səxavət Ənvəroğlu, Firudin Həvəskar, İbrahim Ağçaylı çıxış etdilər.

"Ulduzlar"ın toplantısında "BAYRAQDAR MEDİA"-nın baş redaktoru, Əməkdar jurnalist Azər Həsrət çıxış edərək Zəlimxan Yaqubla bağlı xatirə və fikirlərini söylədi, səslənən şeirlərə münasibətini bildirdi.

***XQ***

# 100 tələbə adlı təqaüd alıb



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi təhsildə və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 100 tələbəyə adlı təqaüd təqdim edib.**

Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclərin vətənpərvər ruhda böyüməsi, yüksək ixtisaslı kadr kimi formalaşması istiqamətində görülən işləri qeyd edib. Heydər Əliyev Fondunun Azərbaycan gəncliyinin inkişafında xidmətlərini vurğulayan AHİK sədri Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə, idman sahələrində uğurlu layihələrin həyata keçirildiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, Konfederasiya dövlətin gənclər siyasətinə fəal dəstək verir, bu istiqamətdə müxtəlif tədbirlər və layihələr həyata keçirir. Belə layihələrdən olan "Adlı təqaüd"ün tələbə gənclərin elm və təhsilə marağının artmasına əhəmiyyətli töhfə verir.

Sonda "Adlı təqaüd"ə layiq görülən tələbələrə hədiyyələr təqdim olunub.

***XQ***

Beynəlxalq həyat

# Ukrayna Şərqi Avropanın “Qordi düyünü”nə çevrilib



**Rusiya –Ukrayna müharibəsi ilə bağlı Münxendə keçirilən Avropa Təhlükəsilzik Konfransında 3 gün ərzində cərəyan edən olaylar, iddia və ittihamlar siyasi toplantıdan daha çox kəskin bir film süjetinə bənzəyirdi. Lakin bu, heç də Hollivud ssenarisi deyil, əksinə, planetimizin taleyini həll edən sərt reallıqdır.**

Hadisələr o qədər sürətlə və gözlənilməz tərzdə inkişaf edir ki, təəccüblənməyə və nəyəsə etiraz etməyə belə macal yoxdur. Hətta ən nüfuzlu politoloqlar belə münaqişənin hansı sonluqla bitəcəyi barədə proqnozlar verməyə cəsarət etmirlər. Acı həqiqət budur ki, qlobal səhnədə yeni siyasi tragikomediyalar oynanılır.

Ağ evin yeni sahibi Rusiya ilə birbaşa, yəni Ukrayna və Avropa İttifaqının (Aİ) iştirakı olmadan danışıqlar aparmaqla, faktiki olaraq Vaşinqtonun əvvəlki müttəfiqlərini oyundan kənar vəziyyətdə qoyub. Bununla da “Sem dayı” ərazisinin 21 faizi işğal olunan Ukraynanın suveren hüquqlarını təkcə gözardı etmir, eyni zamanda, Avroatlantik ittifaqın bel sütunu sayılan NATO-nu da hörmətdən salır.

Qeyd etmək lazımdır ki, planetimizdə siyasi xaos və hərbi avantürizmin kökü hələ 2008-ci ildə Rusiya Federasiyasının (RF) Gürcüstanın 2 vilayətini, 6 ildən sonra, yəni 2014-cü ildə isə Krımı özünə ilhaq etməklə qoyulub. Qısa müddət sonra isə Rusiya Ukraynanın şərqində, rusların sayca üstünlük təşkil etdikləri Donbasda separatçılıq hərakatına rəvac verib. Kremlin qəzəbi bununla da soyumayıb. 2022-ci ilin 24 fevralında Ukraynaya qarşı geniş miqyaslı hərbi əməliyyata start verilib.

Gözləmək olardı ki, Qərb toparlanıb təcavüzkarı layiqincə cəzalandıracaq. Bu, təəssüf ki, baş vermədi. Düzdür, Bayden administrasiyası Rusiyaya qarşı mərhələli şəkildə sanksiyalar tətbiq etdi, lakin Vətənin müdafiəsinə qalxan Ukraynaya kifayət qədər müasir silahlar vermədi. Ukrayna İkinci Dünya müharibəsi ərəfəsində Almaniyaya qurban verilən Polşanın acı taleyini yaşaya bilər.

Ukrayna problemini “Qordi düyünü”nə bənzətmək olar. Vaxtilə Makedoniyalı İsgəndər onu bir qılınc zərbəsi ilə kəsib atmışdı. Tramp özünün seçkiqabağı kampaniyası zamanı bəlkə də məhz o statusda təsəvvür edirdi. Deyirdi ki, bu problemi cəmi 1 sutkaya həll edəcək?! Amma hələlik vədini yerinə yetirə bilməyib. Bundan sonra nə olacaq, heç kim bilmir. Ukrayna ayrı-ayrı hissələrə parçalanaraq dövlətçiliyini itirə bilərmi? Bu və buna bənzər suallar indi bəşəriyyəti çox narahat edir!

Təəssüf ki, bu gün dünyamız cəngəllik qanunları ilə idarə olunur. Kim güclüdür, o da haqlı sayılır. Adətən, savaşda bir-birini tam yenə bilməyən tərəflər arasında sülh sazişləri nisbətən zəif bəndin güzəştə vadar edilməsi hesabına imzalanır. Ukrayna tərəfi hazırda Rusiya ilə müqayisədə daha zəif görünür. Deməli, ABŞ daha çox Kiyevə təsir göstərməyə çalışacaq.

Ukrayna böhranının Rusiyanın lehinə həlli nə Ukraynanı, nə də onun Avropadakı tərəfdaşlarını təmin edir. Kiyevin Moskva qarşısında geri çəkilməsi açıq-aşkar kapitulyasiya aktı kimi qəbul oluna bilər. Kim zəmanət verə bilər ki, Ukraynanı yenən Rusiya sabah Polşanı, yaxud Baltikyanı dövlətləri öz tərkibinə qatmaq istəməyəcək? Axı, iştaha, necə deyərlər, diş altındadır. Böyük imperiyaların iştahası isə heç vaxt bitib tükənmir.

Trampın Ağ evə 47-ci prezident kimi qayıtması, Kanadanı ölkəsinin 51-ci ştatına çevrilməsi ilə bağlı təklifi, Qrenlandiya adasına iddiası və onun digər ağlasığmaz planları dünyanı şoka salıb. Pekində düşünürlər ki, ABŞ Kanada boyda dövləti göz görə-görə udmaq iddiasına düşürsə, niyə Pekin Tayvanı özünə birləşdirməsin?! O zaman nə üçün qardaş Türkiyə Osmanlı imperiyasını bərpa etməyə çalışmasın? Belə çıxır ki, planetdə keçmiş və yeni imperiyaların paradı başlayır?!

Fevralın 18-də Türkiyəyə səfər edən Volodimir Zelenski Prezident Rəcəb Tayyib Ərdoğanla görüşərək, onunla bir çox mühüm məsələləri müzakirə edib. Zelenskinin Ankaraya səfərinin reallaşdığı bir vaxtda, Trampın keçən həftə Rusiya prezidenti Vladimir Putinlə 1,5 saatlıq telefon danışığından sonra Rusiya və Ukrayna arasında müharibənin dayandırılmasına nail olmaq üçün bu iki ölkənin rəsmiləri Səudiyyə Ərəbistanında görüşüblər.

Müzakirələrə Birləşmiş Ştatlar tərəfindən Dövlət katibi Marko Rubio, eləcə də ABŞ-ın milli təhlükəsizlik müşaviri Mayk Valz və Tramp administrasiyasının Yaxın Şərq üzrə nümayəndəsi Stiv Vitkoff daxildir. Kremli isə müzakirələrdə Rusiya tərəfdən xarici işlər naziri Sergey Lavrov və xarici işlər müşaviri Yuri Uşakov təmsil edir. Narışkin də oradadır. Bir daha bildirək ki, Səudiyyə Ərəbistanında aparılan müzakirələrdə təcavüzə məruz qalan Ukrayna iştirak etmir.



***EKSPERT RƏYİ***



**Şahbaz ŞAMIOĞLU,**
**Bakı Slavyan Universitetinin professoru**

– Bu il fevralın 14-də Münxendə keçirilən məlum konfras çərçivəsində ABŞ-ın vitse-prezidenti Vensin “Köhnə qitə”ni üzləşdiyi problemlərə görə aşağılayıcı tərzdə kəskin qınamasından sonra Avropa sanki qəflət yuxusundan ayılıb. Uzun onillər boyu Pentaqonun təhlükəsizlik çətiri altında “xumarlanan” Avropa ABŞ-ın himayəsi olmadan Rusiya tərəfindən öz mövcudluğu üçün real təhlükə ilə üz-üzə qaldığının fərqindədir.

Fevralın 17-də Fransa prezidenti Makron Ukraynada vəziyyətlə bağlı müzakirələr aparmaq üçün İngiltərə, Almaniya, İtaliya, Polşa, İspaniya, Hollandiya və Danimarka liderləri ilə görüşlər keçirib. NATO-nun baş katibi Mark Rutte, Avropa Şurasının sədri Antonio Kosta və Avropa Komissiyasının sədri Ursula fon der Lyayen də görüşdə iştirak ediblər.

ABŞ-ın münaqişəyə yanaşmasının dəyişməsi və ABŞ rəsmilərinin Avropanın sülh danışıqlarında rolunun olmayacağına dair təklifləri fonunda Avropa liderləri Ukraynaya davamlı dəstək vəd ediblər. Böyük Britaniyanın baş naziri Kir Starmer hətta onun hökumətinin müharibədən sonrakı istənilən sülhməramlı qüvvələrin bir hissəsi kimi Ukraynaya hərbi qüvvələr göndərməyə hazır olduğunu bildirib.

Xatırladaq ki, İkinci Dünya müharibəsi başlanan dövrdə də məhz Böyük Britaniya o zaman ən qətiyyətli və prinsipial mövqe sərgiləmişdi. Belə ki, Britaniyanın ovaxtkı baş naziri Uinston Çörçil Avropanın Hitler Almaniyasından gələn təhlükə qarşısında geniş koalisiyanın yaradılmasına nail olmuşdu. O zaman Çörçil ABŞ lideri Ruzvelti bu koalisiyaya qoşulmağa razı sala bilmişdi.

İndi Avropada hadisələrin məhz hansı istiqamətdə cərəyan edəcəyini demək çətindir. Burada hamı başa düşür ki, Ukraynanı nəyin bahasına olursa-olsun müdafiə etmək lazımdır. Bu, təkcə imic problemi deyil, həm də mövcudluq məsələsidir. Sadəcə, Avropanın birləşib vahid ordu yaratmaqdan başqa yolu yoxdur. Axı, adətən qonşu şamına ümid edənlər çox vaxt işıqsız qalırlar.

***Məsaim ABDULLAYEV***
***XQ***

Araşdırma

# Xan Şuşinskinin ata evi

## *Ballıcadakı bu mülkü də erməni vandalları bərbad hala salıblar*

**Bir müddət əvvəl Azərbaycan mətbuatında ermənilərin mədəni irsimizə qarşı törətdikləri daha bir vandallıq aktı ilə bağlı xəbərlər yayıldı. Məlumatda Xocalı sakini, 75 yaşlı Kərim Əkbərov mənfur düşmən tərəfindən rayonun Ballıca kəndində 150 ildən çox yaşı olan tarixi binanın görkəminin məqsədli şəkildə dəyişdirildiyini, dağıdıldığını iddia edirdi. Maraq doğuran isə odur ki, bu evin Azərbaycanın Xalq artisti, məşhur xanəndə Xan Şuşinskinin (İsfəndiyar Aslan oğlu Cavanşir – M.R.) ata mülkü olduğu bildirilirdi. Yeri gəlmişkən, Aslan ağanın İsfəndiyardan başqa Allahyar adlı oğlu, Rüxsarə adlı qızı da olub. Tanınmış tarzən Allahyar Cavanşirov uzun illər qardaşı Xan Şuşinskini müşayiət edib.**

Bəs bina ilə bağlı deyilənlər, yazılanlar nə dərəcədə reallığı əks etdirir? Çoxsaylı faktların mövcudluğu səbəbindən ermənilərin tarixi irs nümunələrimizə qarşı düşmən münasibəti şübhə doğurmasa da, “Xalq qəzeti”nin Qarabağ bürosu olaraq məsələni daha dərindən araşdırmaq, yoxlamaq qərarına gəldik. Bu məqsədlə də ilk olaraq K.Əkbərovla görüşüb, birlikdə Ballıca kəndindəki tarixi binaya yollandıq. İki mərtəbəli, ona qədər otağı olan ev kəndin ən gözəl yerlərindən birində yerləşir, eyvanı və pəncərələri Ballıca çayına və qarşıdakı ecazkar təbiət mənzərəsinə açılır. Elə ilk vizual tanışlıqdan aydın olur ki, binanın ilkin görkəmi dəyişdirilib, fasad hissəsində əlavə tikinti aparılıb. Bu tikinti Şərq-müsəlman üslubuna uyğun əvvəlki fasadı görünməz edib. Evin vaxtilə geniş olan həyəti də kiçilib, burada yardımçı tikililər inşa edilib. Bir sözlə, bina məqsədli şəkildə “düşmən mühasirəsinə” alınıb.

Kərim kişi bizimlə söhbətində bildirdi ki, 1958-ci ildə bu evdə birinci sinfə gedib:

– Müəllimimiz Məşədi adında azərbaycanlı idi. Xocalıda yaşayırdı, oradan gəlib-gedirdi. Bizə dəfələrlə bu evin Xan əminin atasının olduğunu deyib. O vaxt evin eyvanı yox idi, yanında da heç bir tikili olmayıb. Ermənilər evin giriş qapısının üstünə erməni dilində yazılmış daş lövhə əlavə etmişdilər ki, guya bu tarixi bina onlara aiddir. Ermənilər bu üsulla binanın tarixini saxtalaşdırmaq istəyiblər. Evi o vaxt şuşalı sənətkarlar tikib. Çünki mən gənc vaxtlarımda Xan Şuşinskinin Şuşadakı ata mülkünü görəndə heyrətə gəlmişdim ki, necə də Ballıcadakı evlə eyni quruluşdadır.

K.Əkbərov onu da əlavə etdi ki, atasından eşitdiyinə görə, Aslan ağa tez-tez ailəsi ilə Ballıcadakı mülkünə gələrək burada yaşayır, balaca İsfəndiyar da böyük bağlarında oynayarmış:

– Sovet hökuməti qurulduqdan sonra həmin bina ailənin əlindən alınıb, məktəb kimi fəaliyyət göstərib. Burada azərbaycanlılarla yanaşı, ətraf kəndlərdə yaşayan erməni uşaqlar da təhsil alırdı. Sonradan yeni məktəb binası tikilib və evə Cümşüd Nəsibyan adlı erməni köçürülüb. Onun övladları da tarixi binanı erməniləşdirmək üçün “nə lazımdırsa” ediblər. İşğal vaxtı isə ermənilər evin xarici görünüşünü tamamilə dəyişdiriblər, həyətyanı torpaq sahəsində əlavə tikililər inşa olunub...

Mövzu ilə bağlı Xocalının daha bir ağsaqqalı, rayonun Cəmilli kənd sakini, 1935-ci il təvəllüdlü Aydın Fərhadovla əlaqə saxladıq. Onun K.Əkbərovdan da əvvəl Ballıcada oxuduğunu öyrəndiyimiz üçün fakta münasibət bildirməsini xahiş etdik. 90 yaşlı Aydın baba vaxtilə nəinki azərbaycanlıların, hətta ermənilərin də sözügedən binanı “Xan evi” adlandırdıqlarını dedi:

– Mən 1944-cü ildə həmin evdə yerləşən məktəbdə 1-ci sinfə getmişəm. Müəllimimiz erməni idi. Bizə deyirdi ki, bu ev vaxtilə xanın evi olub, ölkəmiz “xan-bəy zülmündən azad ediləndən sonra onların əlindən alınıb zəhmətkeşlərin istifadəsinə verilib”.

Ustad sənətkarımızın qızı, “Xan Şuşinski” fondunun rəhbəri Bəyimxanım Cavanşirova-Verdiyeva bizimlə söhbətində bildirdi ki, Azərbaycanda Sovet hakimiyyəti qurulmamışdan əvvəl Ballıca kəndinin onun babasına məxsus olması ilə bağlı arxiv sənədləri mövcuddur. Həqiqətən də həmin kənddə baba mülkləri olub, atası isə müəyyən dövrlərdə orada yaşayıb.

Qeyd edək ki, 2019-cu ildə görkəmli sənətkarın ölümünün 40-cı ildönümü ərəfəsində oğlu və tədqiqatçısı Aslan Cavanşirovun “Xan Şuşinski: İsfəndiyar Aslan ağa oğlu Cavanşir” adlı məqaləsində də mövzuya toxunulub. Məqalənin həmin hissəsini təqdim edirik:



“İsfəndiyar Aslan oğlu Cavanşir, 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində, Qarabağ xanlığının banisi Pənahəli Xanın nəvəsi, İbrahim Xəlil Xanın oğlu Məhəmməd Həsən ağa Cavanşirin nəticəsi Aslan ağa Cavanşirin ailəsində ilk övlad kimi dünyaya gəlmişdir. Anası Bəyimxanım da Cavanşirlər sülaləsinin bir qolu olan Pənahəli xanın üçüncü oğlu Talıbxan ağanın törəməsi, Behbud bəyin nəvəsi, Murad bəyin qızıdır. Şuşa ətrafındakı Xoca (hazırkı Xocalı – M.R.), Ballıca və Korocaq kəndləri Aslan ağanın atası Mahmud bəyə məxsus olmuşdur. Aslan ağanın Şuşa qalasında, Bazarbaşı deyilən yerdə evləri olmaqla yanaşı, Xan bağı yaxınlığındakı Ballıca kəndində böyük mülkü, qoyun sürüləri, at ilxısı, geniş otlaqları, un dəyirmanı və meyvə bağları olmuşdur”.

“Xan əminin evi” ilə bağlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə regional idarəsi ilə də əlaqə saxladıq. Bildirdilər ki, qurumun Xocalı rayonu üzrə baş mütəxəssisi Pərviz Həbibi tərəfindən sözügedən evə baxış keçirilib, ev yeni aşkarlanmış tarixi abidə kimi qeydiyyata götürülüb.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# “Gülüş muzeyi”ndə xoşbəxtlik səyahəti

**Xorvatiyada yaradılmış yeni gülüş muzeyi ziyarətçiləri müasir həyatın mənfiliklərindən uzaqlaşdırmaq və neqativ enerjilərdən təmizləmək üçün “nəhəng paltaryuyan maşın”la uzaq səyahətə aparır.**



Ölkənin paytaxtı Zaqrebdəki “HaHaHouse” – “Gülüş evi” muzeyində insanları bu “maşın”a minməzdən əvvəl narahatlıqlarını azaltmaq və tamamilə yox etmək üçün içəri daxil olan kimi ağ tüstü qarşılayır. Sonra bu tüstü onları dolanbac yollar vasitəsilə kiçik ağ toplarla dolu hovuza aparır və burada onların daha xoşbəxt bir yerə səyahəti başlayır.

Muzeyin yaradıcısı Andrea Qolubiç bildirib ki, bu ideya onun ağlına pandemiya zamanı, çoxlarının depressiyaya düşdüyü və təcrid olunduğu bir vaxtda gəlib. Muzeyi açmağa isə onu birinci sinifdə oxuyarkən çəkdirdiyi gülən fotosu ilhamlandırıb.

Qeyd edək ki, muzey səkkiz interaktiv otaqdan ibarətdir. Burada müxtəlif yumor üslubları, tapmacalar və başqa əyləncəli oyunlar da oynamaq mümkündür.

***S.FİDAN***
***XQ***

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti**

*“Picus Security”, “Cloudflare” və “F5 Networks” lisenziyalarının satın alınması üçün açıq tenderin tarixini uzadır*

Nəzərinizə çatdırırıq ki, 2025 – ci il fevralın 11-də “Azərbaycan Hava Yolları” QSC tərəfindən elan edilmiş “Picus Security”, “Cloudflare” və “F5 Networks” lisenziyalarının satın alınması məqsədilə keçiriləcək açıq tender müsabiqəsinin tarixinin 2025 -ci il fevralın 26-na qədər uzadılması qərarı verilmişdir. Zəhmət olmasa təkliflərin son təqdim edilmə tarixini 26 fevral 2025-ci il saat 17.00-a kimi nəzərə alasınız.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 37 (30731) 19 fevral 2025-ci il, çərşənbə

İdman

## Şahmatçımızın İran qələbəsi

**Azərbaycan şahmatçısı Vüqar Rəsulov İranın Gilan şəhərində keçirilən "Xəzər dənizi kuboku" ("Caspian Sea Cup") beynəlxalq turnirinin qalibi olub.**



Qrossmeysterimiz son turda Ermənistan təmsilçisi Vladimir Şahinyanla heç-heçə edib. Bununla da aktivinə daha yarım xal əlavə edən təmsilçimiz 7,5 xalla birinci yeri tutub.

Turnirdə 15 ölkədən 116 şahmatçı çıxış edir.

***L.AZAD***
***XQ***

## "Səmaya açılan yol: Tusi irsi"



**Dünən görkəmli azərbaycanlı alim, filosof, riyaziyyatçı və astronom Nəsirəddin Tusinin anadan olmasının 824-cü ildönümü ilə əlaqədar Bakı şəhər Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyada "Səmaya açılan yol: Tusi irsi" adlı elmi sessiya keçirilib.**

Gimnaziyanın direktoru Xəyalə Veyisova dahi alim Nəsirəddin Tusinin astronomiya, riyaziyyat və fəlsəfə sahələrində dünya elminə verdiyi töhfələri vurğulayaraq, onun adını daşıyan Şamaxı Astrofizika Rəsədxanasının bu irsi layiqincə təbliğ etdiyini qeyd edib.

Elmi sessiyada rəsədxananın böyük elmi işçisi Ülkər Rüstəm və Gənc Alim və Mütəxəssislər Şurasının məsul katibi Lalə Səlimzadə müvafiq olaraq "Tusi və astronomiya: elmə baxış və təsiri", "Tusi və əxlaqi fəlsəfənin cəmiyyətə təsiri" mövzularında məruzə ilə çıxış ediblər.

Sonda Nəsirəddin Tusinin elm və yaradıcılığı ilə bağlı astrosərgidə şagirdlər tərəfindən hazırlanmış rəsmlər və maketlər nümayiş etdirilib.

***XQ***

## Günəş sistemindən kənarda su ehtimalı

**Kioto Universitetinin yaponiyalı alimləri Ryuqu asteroidində duz minerallarının olduğuna dair sübutlar aşkar ediblər. Bu barədə araşdırma "Nature Astronomy" (NatAstro) elmi jurnalında dərc olunub.**



Tədqiqat məqaləsinin həmmüəllifi Toru Matsumoto bildirib ki, duz mineralları məhdud maye tədarükü şəraitində əmələ gələ bilərdi, sonra buxarlanıb və ya donub. Onun sözlərinə görə, kəşf suyun, planetlərin və onların peyklərinin əmələ gəlməsindəki rolunu anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.

Alimlər oxşar duz yataqlarının cırtdan Serera planetində, eləcə də yeraltı okeanların mövcud olduğu güman edilən Yupiter və Saturnun peykləri olan Avropa, Qanimed və Enseladda da ola biləcəyini ehtimal edirlər.

***XQ***

Dünya korifeyləri

# Rusiyanın zülmət səltənətini nurlandıran bəstəkar

**1850-ci ildə, Pyotr İliç Çaykovskinin 10 yaşı olan zaman dekabristlərdən hələ sağ qalmış sonuncu adamlar, keçən əsrin birinci rübünün ən namuslu, ən istedadlı, qabaqcıl rus ziyalıları Sibirdə və Qafqazda yavaş-yavaş sönüb gedirdilər. Rus inqilabçılarının ikinci nəsli katorqa həbsxanalarında ölür, dəli olur, qüvvədən düşürdülər. Şevçenko Xəzərətrafı susuz səhralarda əsgərlik edirdi. Şair Pleşşeyev sürgün vaxtını Orenburq xüsusi batalyonunda keçirirdi. Sonralar Çaykovski onun şeirlərinə bir sıra romanslar bəstələmişdi. Dostoyevski Omsk həbsxanasında katorqa işləri görərək cəzasının nə vaxt bitəcəyini gözləyirdi.**



I Nikolayın əmrilə "Olmuşlar, olacaqlar, düşüncələr" əsəri ilə tanıdığımız Gertsen qiyabi olaraq ömürlük sürgünə məhkum edilmişdi. İmperatorun göstərişi ilə böyük rus dramaturqu Ostrovski polis nəzarəti altına alınmışdı.

Qərbdə baş verən 1848-ci il inqilabi hadisələrindən və Rusiyanın özündə inqilabi yüksəlişin ilk əlamətlərindən sonra senzura nəzarəti elə güclənmişdi ki, rus ədəbiyyatının tezliklə məhv olması təhlükəsi yaranmışdı. Feodal-təhkimçi idarə üsulu can verməkdə idi və öz labüd ölümünü, nəyin bahasına olursa-olsun, uzatmağa çalışırdı.

Belə bir zamanda 10 yaşlı bir uşaq həyatında ilk dəfə olaraq Qlinkanın dahiyanə operasını dinləyirdi. Gələcəkdə böyük bəstəkar olacaq bu uşağın hafizəsində "İvan Susanin" operası silinməz iz qoydu. Sonralar I Nikolayın şəxsi arzusu ilə bu əsərin adı dəyişdirilərək "Çar yolunda" qoyulmuşdu. Qlinkanın musiqisi Çaykovskinin yetişməsinə vəsilə oldu.

Pyotr Çaykovski 1840-cı ilin 25 aprelində anadan olub. Atası İlya Petroviç dağ mühəndisi idi və gələcək bəstəkar anadan olmamışdan 3 il əvvəl Kama-Votsinsk dağ dairəsinin rəisi təyin olunmuşdu. Çaykovski də bu fəhlə qəsəbəsində dünyaya gəlmişdi.

Pyotr İliçin ulu babası Fyodor Afanasyeviç XVIII əsrin əvvəllərində I Pyotrun qoşunlarında xidmət etmiş, yüzbaşı rütbəsində aldığı yaradan dünyasını dəyişmişdi. Bəstəkarın atası İlya Petroviçin bir səciyyəvi xüsusiyyəti bütün həyatı boyu teatra və musiqiyə bəslədiyi ehtiraslı marağı olub. Bacısı Yekaterinada qeyri-adi musiqi istedadı vardı, o, həmyaşıdları arasında həvəskar müğənni kimi də tanınırdı. Balaca Pyotrı ilk dəfə fortepiano yanına gətirən anası olub. O, anasının zümzümə etdiyi mahnılarla böyüyürdü və bu uşaq üçün anasının oxuduğu mahnılardan gözəl mahnılar yox idi.

Atası istefaya çıxdıqdan sonra onların ailəsinin sıxıntılı günləri başlanır. Ailə əvvəl Moskvaya, sonra isə Peterburqa köçür. Peterburqa gələn kimi onun üçün Filippov familiyalı yaxşı bir musiqi müəllimi axtarıb tapdılar. Eyni zamanda onu xüsusi pansiona verdilər. 1848-ci ilin dekabrında keçirdiyi qızılca xəstəliyi gözlənilmədən onun əsəb sisteminin pozulmasına, ürəkkeçmə xəstəliyinə tutulmasına səbəb olur. Bu xəstəlik ona irsən keçmişdi, babası da ürəkkeçmə xəstəliyindən əziyyət çəkirdi.

Bir il sonra onlar Urala köçürlər. 1850- ci ildə Pyotr Peterburqdakı hüquq məktəbinin hazırlıq sinfinə daxil olur. Məktəb qapalı tədris müəssisəsi olsa da burada tərbiyə işləri bir növ ev tərbiyəsi xarakteri daşıyırdı. Bəxtindən burada musiqiyə çox böyük əhəmiyyət verirdilər.

Hüquq məktəbində, təxminən, 9 il oxudu. Çaykovski bu dövrdə bir dəfə də olsun cəzaya məruz qalmamış, karserə salınmamışdı. Onunla birlikdə oxumuş A.V.Mixaylov adlı bir şəxs xatırlayır ki, Çaykovski vaxtını saatlarla musiqi otağında royal arxasında keçirirdi. Onun ruhi inkişaf prosesi və yetkinləşmə dövrü çox namünasib şəraitdə keçirdi. Hüquq məktəbi onun musiqi inkişafını xeyli ləngitmişdi.

Vaxtının çoxunu musiqiyə həsr edən bəstəkar Puşkinin və Afanasi Fetin sözlərinə bir neçə romans bəstələyir. O, boş vaxtlarını musiqiyə sərf edir. Mənəvi zənginliyi onu xilas edir. Bəstəkarlıq niyyətlərini həyata keçirmək üçün kübar cəmiyyətindəki əyləncələrdən ayrılır və vaxtını, enerjisini yaradıcılığa sərf edir.

1861-ci il payızın axırlarında Çaykovski musiqi nəzəriyyəsini öyrənməkdən ötrü rus musiqi cəmiyyəti Peterburq şöbəsinin nəzdindəki musiqi sinfinə daxil olur. Peterburq Konservatoriyasının banisi Anton Qriqoryeviç Rubinşteyn onun musiqi təhsilinin zənginləşməsində böyük rol oynayır.

Çaykovski sinifdə başqalarından kənarda əyləşər, əllərini döşündə çarpazlayıb hər sözü diqqətlə izləyərdi. O, şagird orkestrlərində, habelə xüsusi konsertlərdə fleytaçı kimi uğurla çıxış edirdi. Rubinşteynin keçdiyi məşğələlərdə o, nəinki musiqi haqqında danışmağa qadir olan, həmçinin onu yaratmaq iqtidarında olan bir sənətkarı görürdü.

Beləliklə, Çaykovski tərk etdiyi qulluğun əvəzində böyük sənətə yiyələndi, bəstəkarlıq texnikasını mənimsədi. Hətta sonralar müəlliminin məsləhəti ilə konservatoriyadan kənarda fortepianodan, musiqi nəzəriyyəsindən dərs deməyə başladı.

Onun yaradıcı dühası parlayırdı. Çaykovskinin ilk böyük əsəri olan "Qış xəyalları" simfoniyası Rubinşteynin məsləhəti ilə yazılmış və ona həsr olunmuşdur. Bu əsər həm də bəstəkarın Moskva dövrünün başlanğıcıdır. Bəstəkar sonrakı illərdə "Yevgeni Onegin", "Cadugər qadın", "Qaratoxmaq qadın" əsərlərini yaratdı.

Çaykovskinin Rusiyadakı şöhrəti "Opriçnik" operası ilə başlanır, lakin bu əsər qadağan olunur. Belə hesab edirlər ki, əsərin məzmunu inqilabi ruh daşıyır. Çaykovski də bütün yaradıcı insanlar kimi tənhalığa meyilli olub. Məşğələlər zamanı nəinki insanlar, hətta sevimli iti də ona mane olurdu. O, orta hesabla gündə 8 saata yaxın işləyirdi. Bəstəkar həm də yorulmadan mütaliə edir, Qoqolun, Tolstoyun, Turgenevin, Ostrovskinin, Floberin əsərlərini qiraət edirdi.

İstər hərf, istər not olsun, fərqi yoxdur, o, çox sürətlə yazır və oxuyurdu. Gündəlik rejimə alışdığından o, tənbəlliyin nə olduğunu bilmirdi. Amma nə qədər lazımdırsa, istirahət edir, bir dəqiqəsini belə hədər itirmirdi. Zehni əməyin bu yüksək mədəniyyəti, ciddi şəxsi intizam Çaykovski üçün çox vacib idi.

1887-ci ildə ilk dəfə olaraq xarici ölkələrə konsert səyahətinə çıxan Çaykovski Hamburqda, Berlində, Praqada, Parisdə və Londonda öz əsərlərindən ibarət və özünün idarə etdiyi konsertlər verir. Onun bundan sonrakı həyatı dünyanın müxtəlif ölkələrində konsertlər verməklə keçir. Bəstəkar 1893-cü ilin oktyabrında vəba xəstəliyindən dünyasını dəyişir.

***Kənan HACI,***
***yazıçı-publisist***

Sənət inciləri

## Qadın rəssamın "Pambıqçı qadın"ı



**Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xətti ilə seçilən Vəcihə Səmədova milli rəssamlıq tariximizdə silinməz iz qoymuş sənətkarlardandır. Onun əsərlərində qadın obrazı xüsusi yer tutur. Rəssamın yaradıcılığında qadınlarımızın gücü, əməksevərliyi və gözəlliyi ön plana çıxır. Bu baxımdan "Pambıqçı qadın" tablosu rəssamın ən diqqətçəkən işlərindən biridir.**

1961–1964-cü illərdə kətan üzərində yağlı boya texnikası ilə işlənmiş bu əsərdə pambıq tarlasında çalışan qadın təsvir edilib. Rənglərin ahəngi, kompozisiyasının quruluşu və qəhrəmanın ifadəli baxışları tablonu daha təsirli edir. Rəssam pambıqçı qadını təkcə əməkçi kimi deyil, eyni zamanda fədakar və cəmiyyət üçün dəyərli obraz kimi təqdim edir. Tabloda ön planda təsvir edilən qadınla bərabər, arxa fonda pambıq yığımı ilə məşğul olan əməkçiləri də görürük.

Yeri gəlmişkən, Vəcihə Səmədova yaradıcılığı boyu qadın mövzusuna xüsusi diqqət yetirmişdir. "Pambıqçı qadın" sənət əsəri isə bu mövzuda çəkilmiş ən parlaq nümunələrdən biridir. Bu tablo Azərbaycan qadınının əzmkarlığının və zəhmətinin simvolu kimi bu gün də sənətsevərlər tərəfindən yüksək dəyərləndirilir.

Əsər hazırda Milli İncəsənət Muzeyində qorunub saxlanır və sərgilənir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

## Sarıkök ürəyi "yaşıl"laşdırır



**Amerikanın Nebraska-Linkoln İctimai-Tədqiqat Universitetinin alimlərinin apardığı araşdırma sarıkökün ürək sağlamlığı üçün faydalı olacağını sübut edib.**

Məşhur ədviyyatın əsas komponenti olan kurkumin əzələlərdə oksidləşdirici streslə mübarizə edən Nrf 2 geninin fəaliyyətini stimullaşdırır. Bu maddənin ürək çatışmazlığına təsiri siçanlar üzərində təcrübələrdə yoxlanılıb.

Tədqiqatçılar siçanların dərisinə kiçik dozalarda kurkumin vuran xüsusi nasos yerləşdiriblər. Ürək çatmazlığı olan heyvanlarda zərdəçalın təsirindən beş ay sonra ürək əzələsinin işində nəzərəçarpacaq yaxşılaşma qeydə alınıb. Gəmiricilər əvvəlkindən fərqli olaraq, daha uzun məsafələrə qaçmağa başlayıb və onların qaçış sürəti artıb. Araşdırma zamanı alimlər daha bir yeniliyin şahidi olublar. Ürək çatışmazlığından əziyyət çəkməyən, buna baxmayaraq, zərdəçal verilən nəzarət qrupundakı heyvanlar ürək dözümlülüyündə oxşar irəliləyişlər göstəriblər, onların da qaçış sürəti və məsafəsi artıb.

Xatırladaq ki, əvvəlki tədqiqatlar da göstərir ki, kurkumin orqanizmə iltihabla mübarizə aparmağa kömək edir, həmçinin insanı korluq və demensiyadan qoruyur.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

## Abşeronda çiskinli, Aranda arabir yağış, dağlarda qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 19-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə çiskinli olacağı, axşama doğru isə arabir yağış yağacağı gözlənilir.**

Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 2-5°, gündüz 5-7° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında çiskinli, axşamdan isə bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-5° , gündüz 5-10° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-4° isti olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.



***Q.Q ASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Respublika Pediatriya Mərkəzi Publik Hüquqi Şəxsin direktoru Azər Əhmədov və mərkəzin kollektivi Nərimanov Uşaq Klinik Xəstəxanasının təcili təxirəsalınmaz tibbi yardım şöbəsinin həkimi Könül Məzahimliyə atası

**QAÇAY MEHDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3204
SİFARİŞ 374
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00